Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 16 (6109) 2 may 2025-ci il | Qiyməti 40 qəpik

# Yenidən qurulan Ağdama Böyük Qayıdış təntənəsi



Bax:səh-3

## Vilayət Eyvazov Tovuzda vətəndaş qəbulu və sıra baxışı keçirdi



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 27-də və 28-də Tovuz Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

DİN-dən Adalet.az-a bildirilib ki, nazir əvvəlcə Tovuz şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Tovuz Rayon Polis Şöbəsində Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Qazax, Ağstafa rayonlarından və digər bölgələrdən qəbula gələn 153 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb. Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarına xidmətə qəbulla bağlı sıra baxışı keçirib. Vətən müharibəsinin 36 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 191 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

## Siyasi partiyalar azad Laçında

Bax:səh-2

## Palata daha bir nazirliyə xəbərdarlıq etdi





**Hesablama Palatasının 2022-2023-cü illərdə Gənclər və İdman Nazirliyi dövlət vəsaitinin və digər dövlət əmlakının istifadəsinə dair apardığı uyğunluq auditi nəticəsində aşkarlanmış nöqsanlardan 3-nün aradan qaldırılması (Palatanın verdiyi təkliflərin icra edilməsi) gecikir.**

Adalet.az xəbər verir ki, bu barədə Palatadan bildirilib.

Məlumata görə, həmin təkliflər aşağıdakılardır:

- Qərarın aidiyyəti bəndlərində göstərilənlərə əsasən müvafiq illər üzrə əməliyyatların məzmununa və xarakterinə uyğun olaraq kassa və faktiki xərclər, eləcə də uçotdan yayındırılmış aktivlərin baş vermə səbəbinə uyğun olaraq müvafiq hesablar üzrə mühasibat yazılışı verilməklə maliyyə hesabatlarında əks etdirilməsi;
- 2022-ci il üzrə 35 967 manat, 2023-cü il üzrə 30 668 manat qabaqcadan ödənilmiş yanacaq xərcinin hərəkətinə dair mühasibat uçotunda müvafiq müxabirləşmə verilərək hesabat dövrünün sonuna qalığın müəyyən edilməsi və 2023-cü il hesabat dövrü üçün tərtib ediləcək maliyyə hesabatlarında 888 manat qabaqcadan ödənilmiş yanacaq xərcinin qalığının əks etdirilməsi;
- baş vermiş əməliyyatlara uyğun olaraq uçotda mühasibat yazılışları verilməklə Goranboy, Yardımlı və Tərtər olimpiya idman komplekslərinin Nazirliyin balansından çıxarılması və 2023-cü il üçün tərtib edilən maliyyə hesabatlarında əks etdirilməsi.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## QƏŞƏM ASLANOV PROFESSORLARI NECƏ MAT QOYDU?



*Rəhmətlik Qəşəm Aslanovu ilk dəfə Şuşada görmüşdüm. Özü fəhlələrə qoşulub küçədə asfalt döşəyirdi. Ümumiyyətlə, Şuşa şəhərinin abadlaşmasında çox böyük zəhməti vardı. Adamları çox zaman iməciliyə çıxarırdı, bu da şuşalıların xoşuna gəlmirdi, deyinirdilər. Amma fərqinə varmırdılar ki, Qəşəm müəllim bunu özü üçün yox, şuşalılar üçün edir.*

*Vilayət Partiya Komitəsinin birinci katibi Qəşəm Aslanovdan xoşlanmırdı. Qəşəm müəllimin də ondan zəndeyi-zəhləsi gedirdi. Bir səbəbi də o idi ki, vilayət rəhbərliyi Şuşaya ayrılan pulları kasib ermənilər yaşayan kəndlərə, nə bilim Əsgərana, Martuniyə yönəldirdi. Qəşəm müəllim Şuşaya gələndən sonra bunun qarşısını aldı.*

Bax:səh-2

## ƏDALƏT PARTİYASI SƏDR AXTARIR



**Neçə ildi bu partiyanı, elə İlyas İsmayılovun vaxtında da, çiynində daşıyan Elxan Şükürlünü qoyub kimi və nəyi axtarırlar?**

### *Azad edilmiş ərazilərdə daha 381 mina aşkarlandı*

**İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprel ayında icra olunan əməliyyatlar barədə məlumat açıqlanıb.**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən (ANAMA) Adalet.az-a verilən məlumata görə, Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanda 302 piyada əleyhinə mina, 79 tank əleyhinə mina, 3047 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb. Bildirilib ki, 6365.7 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

## GÜNÜN LƏTİFƏSİ

### *QƏŞƏM ASLANOVDAN BİR ANEKDOT*

Bir vaxtlar Azərbaycanın rayonlarında belə bir plakat vurulmuşdu. Qəribə bir plakat idi. Plakatda Heydər Əliyev əl çalır, Brejnev isə əllərini geniş açır, elə bil oynayır. Plakata baxan camaat da gülürdü. Həmin dövrün adamları yaxşı xatırlayır.

Heydər Əliyev plakatları görəndə tapşırır ki, təcili bunu dəyişin.

İsmayıllının memarı gəlir ki:

**- Qəşəm müəllim, bəs indi bu plakatın yerinə biz nə vuraq? Heydər Əliyevin portretini, yoxsa Brejnevin portretini, çaşıb qalmışıq, nə edəcəyimizi bilmirik.**

Qəşəm müəllim bir az fikirləşib deyir:

**- Gedin Leninin portretini vurun.**

# Prezident Fərman və Sərəncamlar imzaladı



**Azərbaycanda bir sıra dövlət qulluqçularının aylıq vəzifə maaşları artırılıb.**

Bununla bağlı Prezident İlham Əliyev "Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında" Sərəncama dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

Fərmana əsasən, Milli Məclisi sədrinin müşaviri, Milli Məclis sədrinin köməkçisi, Baş nazirin köməkçisi, Baş nazirin müşavirinin aylıq vəzifə maaşı 2425 manat müəyyən edilib.

***

**Kamran Bayram oğlu Əliyev Azərbaycan Respublikasının Baş prokuroru təyin edilib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Qeyd edək ki, Kamran Əliyev 2020-ci il mayın 1-də Prezident İlham Əliyevin Sərəncamı ilə Baş prokuror təyin edilib. Onun səlahiyyət müddəti 2025-ci il mayın 1-də başa çatmışdı.

***

**İlham Ata oğlu Mirzəliyev "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

**Azərbaycan Prezidenti İlham Əliyev Qusar rayonunun Quxuroba-Hiloba-Yasaoba-Əniqoba-Aşağı İmamqulukənd-Şirvanlı avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, beş min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Quxuroba-Hiloba-Yasaoba-Əniqoba-Aşağı İmamqulukənd-Şirvanlı avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutmalıdır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Azərbaycan-Küveyt Birgə Komissiyanın 4-cü iclası Bakıda keçiriləcək

**Azərbaycan Respublikası və Küveyt Dövləti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın 4-cü iclası 2027-ci ildə Bakıda keçiriləcək.**

Bununla bağlı qərar Birgə Komissiyanın Küveytdə keçirilən 3-cü iclasının yekunları üzrə qəbul edilib.

Bundan əlavə, Azərbaycan Respublikası və Küveyt Dövləti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın 3-cü iclasının işinin sonunda iclasın təsdiq olunmuş protokolu, ona nəzarət mexanizmləri, onun əlavələri - növbəti iki il üçün müştərək yol xəritəsi imzalanıb. Bu hər iki ölkənin bütün aidiyyəti qurumlarının strateji əməkdaşlıq vasitəsilə müxtəlif sahələrdə fəaliyyətini, eləcə də əməkdaşlıq çərçivəsini, konkret prosedurları və 2025-2027-ci illər üzrə müddəti əhatə edir. Tərəflər, həmçinin kənd təsərrüfatı sahəsində əməkdaşlıq müqavilələri, idman, mədəniyyət və turizm sahələrinə aid bir neçə fəaliyyət proqramını imzalayıblar.

# Siyasi partiyalar azad Laçında

**Prezident Administrasiyasının təşkilatçılığı ilə aprelin 29-də həyata keçirilmiş səfərdə ümumilikdə 80 nəfər olmaqla, 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər.**

Adalet.az xəbər verir ki, səfər çərçivəsində Zabuxçay su anbarı, Laçın şəhəri, o cümlədən Heydər Əliyev küçəsi, "Lacinema" kino mərkəzi, "Hoçazfilm" kinopavilyonu və Bəylik kəndində aparılan bərpa və yenidənqurma işləri ilə tanışlıq olub, habelə "Zerti Aqro-Sənaye Parkı"nda fəaliyyət göstərən müəssisələr haqqında ətraflı məlumatlar verilib.

Səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Laçın şəhərində iştirakçılar qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı şəkildə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında geniş məlumat verib.



Ölkədə həmrəylik mühitinin qorunmasında siyasi partiyaların müstəsna əhəmiyyətini vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə bütün dünya azərbaycanlılarının qürur mənbəyidir. Vətənpərvər qüvvələri birləşdirən əsas amilin milli maraqlar və dövlətçilik mövqeyi olduğunu bildirən Ədalət Vəliyev bildirib ki, Laçının timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan bərpa-quruculuq işlərinin səviyyəsi haqqında təsəvvürlər formalaşa bilər. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı müasir Azərbaycan tarixinin ən qürurlu səhifələrindən olduğunu bildirən Administrasiya rəsmisi mövcud istiqamətdə Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş müvafiq dövlət proqramlarından da söhbət açıb.

Suverenliyin tam bərpasının Azərbaycan tarixinin mahiyyət və keyfiyyət etibarilə yeni inkişaf mərhələsi olduğunu xüsusi vurğulayan Ədalət Vəliyev diqqətə çatdırıb ki, ölkəmizdə yaşanan milli həmrəylik mühiti sabitlik və dayanıqlı inkişafın zəmanətidir. Siyasi dialoqda fəal iştirak edən siyasi partiyalar həmrəylik mühitinin qorunmasına öz töhfələrini verirlər. Odur ki, siyasi partiyaların Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan bu cür layihələrdə fəal iştirakı bilavasitə milli və siyasi həmrəyliyin təzahürüdür.

Səfər çərçivəsində siyasilər Laçının iqtisadi, habelə turizm potensialı ilə də tanış olublar. İştirakçılara bildirilib ki, Laçının turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Nəzərə alınmalıdır ki, yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

Aqil ABBAS

# QƏŞƏM ASLANOV PROFESSORLARI NECƏ MAT QOYDU?

*Rəhmətlik Qəşəm Aslanovu ilk dəfə Şuşada görmüşdüm. Özü fəhlələrə qoşulub küçədə asfalt döşəyirdi. Ümumiyyətlə, Şuşa şəhərinin abadlaşmasında çox böyük zəhməti vardı. Adamları çox zaman iməciliyə çıxarırdı, bu da şuşalıların xoşuna gəlmirdi, deyinirdilər. Amma fərqinə varmırdılar ki, Qəşəm müəllim bunu özü üçün yox, şuşalılar üçün edir.*

*Vilayət Partiya Komitəsinin birinci katibi Qəşəm Aslanovdan xoşlanmırdı. Qəşəm müəllimin də ondan zəndeyi-zəhləsi gedirdi. Bir səbəbi də o idi ki, vilayət rəhbərliyi Şuşaya ayrılan pulları kəsib ermənilər yaşayan kəndlərə, nə bilim Əsgərana, Martuniyə yönəldirdi. Qəşəm müəllim Şuşaya gələndən sonra bunun qarşısını aldı.*



*Hətta Qəşəm müəllim Gevorqovun qonaqlarını Şuşadakı Qonaq Evinə də buraxmırdı ki, bu ev Şuşanın qonaqları üçündü.*

*Bir dəfə Heydər Əliyev Şuşada olarkən Gevorqov Qəşəm müəllimdən canını qurtarmaq üçün erməni bicliyi ilə demişdi:*

*- Yoldaş Əliyev, Qəşəm müəllim kimi bir kadrı Şuşa kimi balaca bir şəhərə sığışdırmaq olmaz. O, böyük bir şəhərə rəhbərliyə layiqdir.*

*Ulu Öndər Bakıya qayıtdıqdan sonra Qəşəm Aslanovu İsmayıllı kimi böyük bir rayona birinci katib göndərdi. Qəşəm müəllim İsmayıllıda da ləyaqətlə çalışdı.*

*Mənim məqsədim Qəşəm müəllimin başqa bir məziyyətini yazmaqdır. Deməli, Bakıdan bir neçə nəfəri Moskvadakı Ali Partiya Məktəbinə oxumağa göndərirlər. İmtahan verəndə mütləq bir xarici dildən də imtahan verməlisən. Tələb edirlər ki, ya ingilis, ya alman, ya da fransız dilindən imtahan verməlisən.*

*Qəşəm müəllim razılaşmır, deyir mən türk dilindən imtahan vermək istəyirəm. Deyirlər olmaz.*

*Qəşəm müəllim açır Əsasnaməni deyir:*

*- Bura yazıblar ki, xarici dildən imtahan. Dəqiq yazmayıblar ki, alman, ingilis. Türkiyə də xarici ölkədir, mən yalnız türk dilindən imtahan verəcəm.*

*İşə rektor qarışır, amma Qəşəm müəllimi fikrindən daşındıra bilmirlər. Və məcbur olub ondan türk dilində imtahan götürürlər.*

*Bunu Qəşəm müəllimlə eyni vaxtda Ali Partiya Məktəbinə gedənlər danışırdı. Daha dəqiq desək, Naxçıvanın sabiq birinci katibi Nurəddin Mustafayev. Kim inanmırsa zəng edib soruşa bilər.*

*Sonra Abşeronun birinci katibi olarkən avtoqəza nəticəsində həlak oldu. Yeri behişt olsun. O vaxt deyinən şuşalılar sonralar Qəşəm Aslanovu xoş xatirələrlə xatırlayırdılar və elə indi də.*

# *Komitə sədri:* "Biz daha çox iş yerləri yaratmaq barədə düşünməliyik"

**"Yaş insanın əmək fəaliyyəti üçün əngəl ola bilməz. İnsanın sağlamlığı, biliyi, bacarığı, vərdişləri imkan verdiyi təqdirdə o çalışmalıdır. Yaş məhdudiyyətini ona görə qoymuşuq ki, gənclərə daha çox yol açılsın. Biz daha çox iş yerləri yaratmaq barədə düşünməliyik, nəyin ki, yaşlı insanların məcburi istefaya göndərməklə gəncləri yol açmağı".**



Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev komitə iclasında Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" qanunların müzakirəsi zamanı deyib.

O bildirib ki, bununla bağlı hesablamalar getməlidir: "Hər il əmək bazarına 120 min gənc gəlir. Bunları biz daha da yaxşı və yüksək maaşlı işlərə yerləşdirməliyik. Bu istiqamətdə daha çox düşünməliyik. Nəyin ki, məhdudiyyətlərə getməliyik ki, kimsə sertifikasiyadan keçməsin və s. Bunlar ciddi məsələlərdir.

Parlamentdə bu məsələlərin qalxması sosial sifarişdən doğur. Ölkədə orta ömür artır. İnsanların sağlamlığı imkan verdiyi təqdirdə, onlar çalışmaq istəyirlər. Ona görə aktiv məşğulluq tədbirlərini genişləndirməliyik".

"Bu layihə ortaya çıxana qədər bizə professorlar yazılı və şifahi müraciətlər edirdilər. Deyirdilər ki, elmlər doktoru, professoru niyə 5 ildən bir yenidən imtahan verməlidir. Belə götürəndə imtahan götürənlər titul baxımından onlardan aşağı pillədə dayanan şəxslərdir. Beləliklə, mənəvi-psixoloji çətinliklər də yaranırdı. Bizim məqsədimiz o deyil ki, imtahanda həkimlərə çətinlik yaradan suallar qoyulsun.

Əsas humanizm məqsədilə yanaşmaq lazımdır ki, təkcə həkimlər yox, orta tibb işçilərinə də nəzəri yox, praktik suallar vermək lazımdır. Biz anatomiya keçəndə yadımdadır, o qədər ağır suallar salırdılar, sonradan o sualların 80%-i heç bizə lazım olmurdu. Yəni, həm kredit ballarının toplanmasında, həm də sertifikasiyada praktik, həkimə nə lazım olacaqsa, onları suala salmaq lazımdır", - deyə komitə sədri vurğulayıb.

**Nicat**

# Yenidən qurulan Ağdama Böyük Qayıdış təntənəsi

**Bəli, bu gün biz Ağdama qayıdırıq. Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 il məcburi köçkün adını daşıyan həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratdı.**

19 iyul 2022-ci il tarixindən etibarən Qarabağa Böyük Qayıdış prosesinə start verildi. Vandalizmin qurbanı olmuş Ağdamda da Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən bərpa və yenidənqurma işləri ölkə rəhbərliyinin təyin etdiyi xətt üzrə aparılmağa başlanıldı.

Və üçtərəfli Bəyanata əsasən, 2020-ci ilin noyabr ayının 20-də Azərbaycana qaytarılan Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi 27 mart 2025-ci il tarixində keçmiş köçkünlərin sərəncamına verildi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.





Azərbaycan Prezidenti İlham Əliyev: "Mən işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərim zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən hər dəfə deyirdim ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və biz sizi öz doğma torpağınıza qaytaracağıq. Bu gün də o sözlərimin təsdiqi bir daha öz yerini tapır. Artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar. Bütün keçmiş köçkünlər üçün gələcəkdə bu cür şərait yaradılacaq. Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi keçmiş köçkünlərin sərəncamına verilir. Ancaq bu il digər kəndlərə də ağdamlılar qayıdacaqlar. Kəngərli, Xıdırlı kəndlərinə bu il qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Təbii olaraq, Ağdam şəhəri sıfırdan qurulur, yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək".

Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub. Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilib. Burada sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Xüsusi qeyd olunmalıdır ki, kənddə inşa olunmuş bütün qeyri-yaşayış binalarının damında günəş panelləri quraşdırılıb.

Qeyd edək ki, Sarıcalı kəndi Birinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il iyulun 23-də işğal olunmuşdu. İşğal dövründə kənd viran qoyularaq xarabalığa çevrilmişdi, burada evlərlə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə, ticarət, iaşə obyektləri də vəhşicəsinə məhv edilmişdi. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə 1024 nəfər əhali yaşayıb. Hazırda Sarıcalı kəndinə köçürülənlərin sayı 767 nəfərə (184 ailə) çatıb.

Qeyd edək ki, birinci bərpa olunan bina Ağdam məscidi olmuşdur. Bununla yanaşı "İmarət" Kompleksi, Natəvanın qəbri bərpa olundu, Xaçınçay su anbarı yenidən quruldu, Ağdam Muğam Mərkəzi inşa edilir. Bununla bərabər, bölgənin turizm imkanları nəzərə alınaraq iki mehmanxana artıq fəaliyyətə başlayıb.

İşğaldan azad olunan Ağdam şəhərinə isə bu ilin oktyabr-noyabr aylarında ilk köçün həyata keçirilməsi planlaşdırılıb. Ağdam təxminən 2000 hektarlıq ərazini əhatə edən 100 min əhalini məşkunlaşdıracaq ölkənin 4-cü ən böyük şəhəri olacaq. 2026-cı ilə qədər Ağdama 20-25 min civarında əhalinin köçürülməsi nəzərdə tutulub. Şəhərin 500 hektarlıq ərazisində müxtəlif infrastruktur obyektləri inşa olunacaq. 2026-cı ilin sonuna qədər yaşayış üçün zəruri olan bütün məsələlərin tamamlanması nəzərdə tutulub.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovun mətbuata verdiyi açıqlamaya görə, yaxın vaxtlarda rayonun Xıdırlı və Kəngərli kəndlərinə də ilk köç olacaq: "Xıdırlıda 719, Kəngərlidə isə 292 fərdi yaşayış evi tikilib. Bundan başqa, bütün qeyri-yaşayış obyektlərinin də tikintisi başa çatıb. Tamamlanma işləri görülüb. Tezliklə o kəndlərin sakinlərini qəbul etməyə hazırıq. Ağdam şəhərində isə 5 məhəllənin inşası nəzərdə tutulub. Onlardan birinin tikintisinə başlanılıb. Şəhərə oktyabr-noyabr aylarında ilk köç planlaşdırılır. İlin sonunadək 5, gələn il 10, ümumilikdə isə 20-25 min əhalinin Ağdama köçürülməsi nəzərdə tutulub "

Hazırda Ağdam-Xankəndi dəmir yolu xətti ilə bağlı layihələndirmə işlərinə start verilib. Ağdamdan Xankəndiyə qədər 27-28 kilometr olacağı gözlənilən dəmir yolu xəttinin artıq podratçı şirkəti seçilib. Mobilizasiya işləri davam etdirilir. Bərdə-Ağdam dəmir yolu xəttinin isə Əsgəran rayonuna qədər uzadılması planlaşdırılır.



Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının yaradılmasına xüsusi diqqət göstərilir.

Hazırda inşası davam etdirilən Ağdam şəhər 1 nömrəli tam orta məktəbi bunun daha bir nümunəsidir. Bu orta təhsil müəssisəsi Böyük Qayıdış Proqramı çərçivəsində şəhərə qayıdacaq şagirdlərin müasir standartlara uyğun təhsil almalarına xidmət edəcək.

Ümumi tikinti sahəsi 4300 kvadratmetrdən çox olan yeni məktəb binası üç mərtəbədən ibarətdir. Təməli 2021-ci ilin mayında qoyulan məktəb 960 şagird yerlikdir. Burada kitabxana, muzey, iki yeməkxana, fənn kabinetləri ilə yanaşı, fizika, kimya, biologiya laboratoriyaları, akt və idman zalları, həmçinin 8 STEAM otağı mövcuddur.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 40 minə yaxın insan yaşayır.

Göründüyü kimi, Ağdamda tikinti-quruculuq işləri sürətlə gedir və görülən işlərin miqyası böyükdür.

**Bütün bu fəaliyyət isə onu deməyə əsas verir ki, Qarabağın bütün bölgələri tezliklə dirçələcək, Qarabağımızda həyat əvvəlki vəziyyətinə qayıdacaq. Sözsüz ki, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusunun, qəhrəman əsgər və zabitlərimizin və bu yolda canlarından keçən şəhidlərimizin sayəsində.**

**Nicat NOVRUZOĞLU**

## *Nazirlik rəsmisi:* "Bölgələrə təyinat alan həkimlərin bir hissəsi təyinat yerlərinə gedib çıxmır"

**"Dövlət sifarişi əsasında rezidenturada təhsil alan və bitirən məzunlar 3 il müddətində təyinat üzrə dövlət tibb müəssisələrində işləmək üçün göndərilirlər".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" qanunların müzakirəsi zamanı Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsi müdirinin müavini Təranə Əhmədova deyib. O bildirib ki, bununla bağlı rezidenturaya qəbul olanda həmin həkimlər Səhiyyə Nazirliyi ilə müqavilə bağlayırlar və orada bu şərtlər müəyyən edilir:



"Səhiyyə Nazirliyinin Kadr məsələləri üzrə komissiyası həmin təyinatı həyata keçirir. İstər TƏBİB, istərsə də Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrdə, eləcə də digər dövlət qurumlarında olan vakansiyaları rezidentura məzunlarına təklif edirik. Hamısına təyinat verilir. Burda bir qədər problemlərlə qarşılaşırıq. Həkim mütəxəssilərin bir hissəsinin təyinat yerlərinə gedib çıxmaması və ya getdikdən sonra uzun illər qalıb işləməməsi ilə qarşılaşırıq. Vakansiyalar əsasən bölgələrdədir. Fikir veririk ki, bununla bağlı müəyyən çətinliklər var. Nazirlər Kabinetinin kənd yerlərinə göndərilən tibb mütəxəssislərinin stimullaşdırılması ilə bağlı qərarı var. Ola bilər ki, stimullaşdırıcı tədbirlərin daha çox gücləndirilməsinə ehtiyac var. Digər məsələlər də nəzərə alınmalıdır".

**Nicat**

## Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın iddialarını rədd etdi

**25 aprel 2025-ci il tarixində Haaqa şəhərində yerləşən Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində, eləcə də 2020-ci il Vətən müharibəsi zamanı və ondan sonra törədilmiş cinayətlərlə bağlı hazırda Bakı Hərbi Məhkəməsi tərəfindən mühakiməsi davam etdirilən Ruben Vardanyan və digər 15 erməni əsilli şəxslərlə rəftar ilə bağlı Ermənistanın bir sıra iddialarını rədd edib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı iş üzrə Azərbaycan tərəfinin cavabını və əlaqədar sübutları nəzərdən keçirən Məhkəmə



əlavə məlumat istəməməyə və məhbusların saxlanma şəraiti ilə bağlı müstəqil araşdırma və ya ekspert rəyi tələb etməməyə qərar verib. "Məlumdur ki, məhkəməsi həyata keçirilən erməni əsilli şəxslərlə Azərbaycanın və beynəlxalq hüququn bütün tətbiq olunan standartlarına uyğun rəftar edilir və onlara Beynəlxalq Qızıl Xaç Komitəsinin və Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkilinin Aparatının nümayəndələri dəfələrlə baş çəkiblər. Məhkəmənin qərarı BMT-nin Əsassız Həbslər üzrə işçi qrupunun Ruben Vardanyanın Azərbaycanın milli təhlükəsizliyinə, ictimai təhlükəsizliyinə və ictimai asayişinə ciddi təhdidlərlə bağlı cinayət ittihamları əsasında həbsdə saxlanıldığını təsdiq edən son rəyinə də müvafiqdir.

Bu qərar, Ermənistanın davam edən məhkəmə proseslərini pozmağa və diqqəti əvvəllər işğal olunmuş ərazilərdə Ermənistanın qanunsuz şəkildə yaradılmış rejiminin qeyri-qanuni hərəkətlərindən yayındırmağa yönəlmiş əsassız tələblərinin heç bir nəticə verməyəcəyini bir daha nümayiş etdirir".



Rüstəm Hacıyev

## Tramp nala-mıxa vurur, nəticə yoxdur

***Rusiya-Ukrayna müharibəsində vasitəçilik etməyi öhtəsinə götürən Birləşmiş Ştatların prezidenti Donald Tramp nala-mıxa vurmaqda davam edir.***

***Amerikan jurnalist Qlenn Bekə müsahibə verən Ağ Evin sahibi bəyan edib ki, Ukraynadan fərqli olaraq Rusiya böyük hərbi gücə malikdir: "Rusiya çox böyük hərbi gücə malikdir, Ukrayna isə yox".***

***Rusiyanın hərbi cəhətdən güclü olması Afrika cəngəlliklərində yaşayan, suvilizasiyadan uzaq tayfalardan başqa hamıya bəllidir. Tramp seçkiqabağı "Ukrayna müharibəsini 24 saata dayandıracam" vədlərini verəndə də, Rusiyanın hərbi gücündən xəbəri var idi və yaxşı bilirdi ki, rusiyalı həmkarı Vladimir Putin Ukraynı işğal etməyənədək müharibəni dayandırmaq niyyətindən əl çəkməyəcək.***

***Hazırda münaqişə düyününü açmağı bacarmayacağını görən Donald Tramp, komanda üzvlərinin diliylə, hərbi münaqişəni dayandırmaq gücündə olmadığını etiraf edir. Ağ Evin mətbuat katibi Temmi Bryus, keçirdiyi brifinqdə bildirir ki, "ABŞ, Rusiya-Ukrayna münaqişəsinin dayandırılmasında, vasitəçilik rolundan imtina etməsi variantına baxılır. . Əgər bu məsələnin həlli yolunda irəliləyiş olmayacaqsa, biz vasitəçilik missiyamızdan imtina edəcəyik"- deyə Temmi xanım bildirir.***

***"Biz hazırda elə bir mərhələyə gəlib çıxmışıq ki, tətəflər bu münaqişəyə son qoyulması üçün konkret təkliflərini bildirməlidirlər. Sonra necə hərəkət edəcəyimizə isə, prezident Donald Tramp qərar verəcək. İrəliləyiş olmayacaqsa, onda biz vasitəçilikdən imtina edəcəyik"- deyə mətbuat katibi bəyan edib.***

***Tramp isə, "Mən həqiqətən məsələni bitirirəm"-deyə bəyan etməklə vasitəçiliyini davam etdirəcəyinə işarə edir. Ağ Evin lideri yəqin özü də anlayır ki, bu məsələnin həlli onun gücündə deyil, lakin yenədə cəhdlərini davam etdirir.***

***Zelenski və Putin isə, danışıqlara başlanması üçün irəli sürdükləri şərtlərdən bir addım da geri çəkilmək niyyətlərində olmadıqlarını israrla bəyan edirlər.***

***Amerikan liderinin milli təhlükəsizlik üzrə məsləhətçisi Mayk Uolts, Ukrayna və Rusiyayaya, "Trampın səbr kasası dolmamış" tərəfləri danışıqlara nail olmaq naminə tez hərəkət etməyə" çağırır.***

***ABŞ prezidentinin xüsusi elçisi Kit Kelloq daha əvvəl bildirmişdi ki, Donald Tramp tərəfləri ən azı 30 gün müddətinə atəşi dayandırmağa çağırıb. Xüsusi elçinin sözlərinə görə, Rusiya və Ukrayna sülh razılaşmasını imzalamağa yaxındırlar. Trampın xüsusi elçisi də, yəqin ki, öz dediklərinə inanmır. Çünki, əksinə tərəflər, nəinki sülh danışıqları barədə düşünürlər, əksinə döyüş meydanında aqressivliyi artırmaqda davam edirlər. Xüsusiylədə Rusiya addım-addım olsada, Ukrayna ərazilərində irəliləməkdə davam edir.***

## *İqtisadçı: "Bu, həm Azərbaycan, həm də İran üçün tarixi hadisə olacaq"*

**"Bu gün İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri iki ölkə arasındakı iqtisadi və siyasi əlaqələrin daha da möhkəmlənməsi üçün əhəmiyyətli bir mərhələdir. Bu səfər regionda strateji əməkdaşlıq və qarşılıqlı inamı daha da gücləndirəcək, hər iki tərəfin potensialını artırmaq üçün böyük bir fürsət təqdim edir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O bildirib ki, İranla Azərbaycanın zəngin tarixi, mədəni əlaqələri xalqlarımız arasında dərin etimad və anlayışın formalaşmasına kömək edir: "İkitərəfli ticarət dövriyyəsi sürətlə artmaqdadır. 2023-cü ildə ticarət dövriyyəsi 500 milyon dollar olub və 2024-cü ildə 33 faiz artaraq 650 milyon dollara yaxınlaşıb. Azərbaycandan İrana neft-kimya məhsulları, kənd təsərrüfatı və plastik məmulatlar, İrandan isə bizə ərzaq məhsulları və tikinti materialları daha çox daşınıb. Yarım trilyon dollara yaxın ÜDM-ə sahib və 765 km uzunluğunda sərhəd xətti olan bir ölkə ilə bu ticarət dövriyyəsi potensialdan xeyli azdır. İranın Azərbaycandakı investisiyaları 370 milyon dolları keçib və bu, sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti və ticarət sahələrində mühüm əməkdaşlığı əhatə edir.

Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı iki ölkə arasında dialoqların mərkəzində duran məsələlərdən biridir. 2024-cü ildə bu dəhliz üzrə yükdaşıma 28 faiz, tranzit daşıma isə 23 faiz artıb. Ticarət dövriyyəsində olduğu kimi, bu yükdaşıma üzrə də real rəqəmlər potensialdan çox azdır".

İqtisadçı hesab edir ki, Ələt-Astara dəmir yolu xəttinin yenidən qurulması, Ağbənd - Kəlalə avtomobil və dəmir yolu bağlantısının yaradılması və digər dəhliz elementləri üzrə görülən işlər bu istiqamətdə effektivliyi artıra bilər: "Həmçinin, Araz çayı üzərindəki su ehtiyatlarının birgə idarə olunması, işğaldan azad edilən ərazilərimizdə fəaliyyətə İran sahibkarlarının maraq göstərməsi digər iqtisadi potensialı da üzə çıxara bilər. Bir məqamı xüsusi qeyd edim ki, 2027-ci ildə Xudafərin körpüsünün yubileyi qeyd ediləcək. Bu, həm Azərbaycan, həm də İran üçün tarixi bir hadisə olacaq. Bu minilliyin şərəfinə böyük bir dövlət tədbiri keçirilə bilər, həmçinin bu, həm ikitərəfli əlaqələr, həm də regionun sabitliyi və inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edər".

# Karni Trampa uduzarsa, ermənilər də Karnini müdafiəyə qalxar

**Bu ilin yanvarında Kanadanın Baş naziri Castin Trüdo 9 ildən sonra vəzifəsindən ayrılır. Trüdo 2015-ci ildən bəri baş nazir vəzifəsini icra edirdi.**

Məlumatlarda deyilirdi ki, Donald Trampın Kanadanın ABŞ-ın 51-ci ştatına çevrilməli olduğu ilə bağlı açıqlamaları və Kanadada tənəzzülə səbəb ola biləcək Kanada idxalına tariflər qoyması baş naziri bu qərara gəlməsinə səbəb olub. Castin Trüdo istefa açıqlamasında partiya daxilində münaqişələr olduğunu və belə bir atmosferdə partiya lideri kimi seçkiyə qatıla bilməyəcəyini dedi

53 yaşlı baş nazir, Liberal Partiya yeni bir lider seçənə qədər vəzifədə qalacağını və parlamentin 24 mart tarixinədək dayandırılacağını bildirdi...

Nəhayət Kanadada seçkilər başa çatdı.

Adalet.az xəbər verir ki, İlkin nəticələrə görə, bazar ertəsi Kanadada keçirilən parlament seçkilərində Liberal Partiyası qalib gəlib. Partiyanın lideri, Kanadanın hazırkı baş naziri Mark Karni ölkənin növbəti hökumətinə rəhbərlik edəcək. Bu barədə "Azadlıq" radiosu məlumat yayıb .

Əvvəllər Kanada və Böyük Britaniyanın mərkəzi banklarına rəhbərlik etmiş 60 yaşlı iqtisadçı Mark Karni seçki kampaniyasını ABŞ ilə münasibətlərə yönəltməklə





özünü anti-trumpist kimi göstərib.

Bu həmin Kanada Liberal Partiyasının lideri Mark Karnidir ki, saxta erməni soyqırımının 110-cu ildönümü ilə bağlı bəyanat yayıb.

"Aprelin 24-də mən on minlərlə kanadalı erməni və bütün dünyada milyonlarla insanla birlikdə Erməni Soyqırımının 110-cu ildönümünü qeyd edirəm.

Bu gün mən Osmanlı İmperiyasının sistemli şəkildə planlaşdırdığı və həyata keçirdiyi bu mənasız vəhşiliklərin qurbanı olmuş bir milyon yarım erməni qurbanını xatırlayıram. Həyatlarını, icmalarını və institutlarını yenidən qurmaq üçün inanılmaz çətinliklərin öhdəsindən gəlmək üçün cəsarət və mətanət göstərmiş sağ qalanlar haqqında da düşünürəm.

110 il keçməsinə baxmayaraq, bu soyqırımı hələ də onu törədənlər tərəfindən fəal şəkildə inkar edilir. Erməni xalqı təqib və zülmlə üzləşməkdə davam edir. Ən son, bunun faciəli nümunəsi 2023-cü ilin sentyabrında 120.000-dən çox yerli erməninin Dağlıq Qarabağdan məcburi köçkünə çevrilməsi, aylar davam edən qeyri-qanuni blokadadan sonra onları əsas insan hüquqlarından məhrum etdi.

Bu gün biz həyatını itirənləri xatırlayırıq və ayrı-seçkilikdən və nifrətdən azad, daha güclü, daha tolerant Kanada qurmaq öhdəliyi götürürük".

Gedib öz ölkəsini Trampın caynağından qopartmır, gəlib Azərbaycan üçün hərbə-zorba göstərir....

Yeri gəlmişkən, Karni qələbədən sonrakı çıxışında Trampı Kanadanı ələ keçirməyə çalışmaqda ittiham edərək, bu cəhd dəf edilməli olduğunu vurğuladı: "Amerikalılar bizim resurslarımızı, suyumuzu, torpağımızı, ölkəmizi istəyirlər. Əgər uğur qazansalar, həyat tərzimizi məhv edəcəklər. Amerika Kanada deyil. Kanada heç vaxt heç bir şəkildə və ya formada Amerikanın bir hissəsi olmayacaq".

***P.S.** Ümid edirik, Karninin Trampla mübarizəsinin sonunda eyni tərkibli bəyanatla erməni xalqı da Karni hakimiyyətini müdafiə etməyə çalışdığını bəyan edər.*

**Əntiqə Rəşid**

# *Həyasızlığın həddi: Türkiyə Ermənistana 76,5 milyard avro təzminat ödəməlidir*

**"Türkiyə Ermənistana 76,5 milyard avro təzminat ödəməlidir".**

Adalet.az xəbər verir ki, bu fikri anti-türk ölkələrin "qaz"ına gəlmiş, erməni iqtisadçı ekspert Hrayr Kamendatyan erməni saytlarına müsahibəsində dilə gətirib:""Erməni etnosunun məhv edilməsi proqramını həyata keçirən dövlət 100 il əvvəl alçaldılmış vəziyyətə düşmüşdü. Qalib müttəfiq ölkələr məğlub olmuş, alçaldılmış Türkiyəni vəhşiliklərinin əvəzini ödəməyə məcbur etmişlər.

Müharibə təzminatlarını hesablamaq üçün Paris konfransı nəzdində xüsusi komissiya yaradılmışdır. Komissiya qərara almışdır ki, Türkiyə Ermənistana 14 milyard frankı və Qərbi Ermənistana 5 milyard frank verməlidir. Bu rəqəmin təxminən 76,5 milyard avro olduğunu açıqlayan sənədlər var".

Jurnalistin Türkiyə soyqırımı tanımadığı təqdirdə pulu necə qaytarması ilə bağlı sualına Kamendatyan belə cavab



verib: "Mən öz istəyi ilə məhkəməyə gələrək ədalətli mühakimə olunmasını tələb edən siyasi cinayətkarla rastlaşmamışam. Türkiyə cinayətkar dövlətdir. Türkiyənin nə vaxtsa tanınma və təzminat prosesinə başlamaq istəməsini gözləməyə ehtiyac yoxdur. Ermənistan tərəfi bu məsələni daim qaldırmalıdır". Hrayr Kamendatyan qeyd edib ki, Ermənistan bütün mümkün üsullarla Erməni Soyqırımı ilə bağlı səsini daim ucaltmalıdır.

Qeyd edək ki, Türkiyə lideri R.T.Ərdoğan dəfələrlə saxta "erməni soyqırımı" iddialarından, bəhanələrindən Türkiyənin bezdiyini vurğulayıb: "Bezdik artıq. Dəfələrlə dedik, bu məsələni tarixçilərin, antropoloqların, alimlərin ixtiyarına buraxaq, bu siyasətlik məsələ deyil. Ortada hər hansı bir məsələ olmadığı halda, bizi ittiham edirsiniz. İllər keçdi, ABŞ-ın da daxil olduğu Minsk Qrupu Azərbaycan-Ermənistan problemini həll edə bilmədilər. Nəticədə Azərbaycan öz problemini özü həll etdi.

Bu tarixi fakta laqeyd qaldığı halda, ortada bir fakt yox ikən siz Türkiyəni necə soyqırımı ilə ittiham edə bilərsiniz? Bu soyqırımı ifadəsini nə Baydendən öncəki demokratlar, nə də respublikaçılar dedi. Yetər artıq. Biz qəsəbə dövləti deyilik, Türkiyəni bir küncə sıxışdırmağa çalışanlar NATO-da güclü müttəfiqlərini itirmiş olacaqlar".

***P.S.** Ay adamlıqları olmayan, ağılsız toplum, siz bir sübut edin ki, doğrudan-da 1milyon yarım erməni olub Türkiyədə?... sonra da Türkiyə onların hamısını qırıb? Qırıbsa, bəs niyə orada yaşayan ermənilər, suryanilər, həmşinlər xoşbəxtcəsinə yaşayırlar? ... Bir 100 ildi dediyiniz iddianı sübut edin də ay xəstə toplum, sonra tələb edin.. Yeri gəlmişkən, sizə təzminat hesablayan fransızlara deyin, qətlə yetirdikləri 5 milyon ərəbin və Əlcəzairə atdığı 17 atom bombasının da təzminatını ödəsin.*

**Əntiqə Rəşid**

# *Siqaret çəkin, araq için...*

**Bütün kütləvi informasiya vasitələri, eləcə də ayrı - mütəxəssislər bar- bar bağırırlar ki, siqaret çəkməyin, araq içməyin , hətta siqaretin qutusunun üstündə Səhiyyə Nazirliyi onu çəkənləri xəbərdar edir ki, siqaret çəkmək sizin sağlamlığınıza ziyandır**

Amma buna baxan kimdir? Yenə əksər insanların damağından siqaret düşmür.Bəzən təbliğatın əks təbliğatı da olur. Yəni deyirlər və xəbərdar edir ki, siqaret çəkməyən, amma yenə çəkirlər. Biz də bunun əksini deyirik: siqaret çəkin, araq için! Bəlkə belə deyəndə siqaret çəkmədilər və araq içmədilər.Çox təəssüf ki, siqaret ürək və ağciyər xəstəliklərinə düçar olan insanların düşmənidir. Ürək əməliyyatından çıxan pasiyentə kardioloqların ilk tövsiyəsi bu olur ki, siqaret çəkməyin, araq içməyin, kökəlməyə imkan verməyin!Əfsuslar olsun ki, əksər xəstələr bu tövsiyələrə əməl eləsələr də bizləri deyilənləri qulaqardına vurur və öz bildiyini edir.



Belə olanda pasiyentin ya vəziyyəti ağırlaşır, ya da o, dünyasın dəyişir. Məsələn, Əməkdar artist Vahid müəllim açıq ürək əməliyyatı keçirib. Amma həkimlərin tövsiyəsinə riayət etməyi. Və siqaret çəkməkdə davam edib, nəticə isə qanqaraldıçı olub , vəziyyəti ağırlaşıb, xəstəxanaya yerləşdirilib. O, xeyli müddətdir ki, xəstəxanada müalicə alır və deyilənə görə vəziyyəti stabil-ağırdır. Allah şəfa versin!Həyat yoldaşı deyir ki, Vahid özünü qorumadı, siqaret çəkdi və saatlarla siqaret çəkilən yerdə dominə oynadı. Bu da onun fəsadları.O, özü- öz evini yıxdı. Görürsünüzmü, siqaret, araq nə qədər insanların həyatın məhv edib. Ona görə də ondan sizə " dost" olmaz!Nə qədər geç deyil, bu zəhrimardan uzaq durun!!!

**EMİL FAİQOĞLU**

**Hazırda ölkəmiz qalib ölkə olaraq öz torpaqlarını işğaldan azad edib. Bu əlbəttəki, 5 ilin, 15 ilin töhfəsi deyil. 1988-ci ildən- Qarabağda münaqişə başlayan ilk gündən Azərbaycan xalqının sistematik mübarizəsinin, dövlətin, ölkə prezidentinin bu mübarizəyə dəstəyi sayəsində baş verdi. Nəhayət 2020-2023-cü il ərzində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu Qarabağda qəti qələbəni təmin etdi. Çünki indiki gənclik 1990-94-cü ilin gəncliyinin mübarizəsini nəinki unutmadı, hətta o qəhrəmanlıqları özlərinə örnək götürdülər.**





Polkovnik nizami batalyon yaratmaq fikrində olduğunu dedi.

Özü də əslən Xankəndindən imiş.

***Keçmiş döyüşçü Əhməd Xudiyev***

Ancaq batalyon yaratmaq

# Ağdamda çəkilən şəklin 34 illik tarixçəsi: Danışır Əhməd Xudiyev ...



Ötən həftə redaksiyamızın qonağı olan keçmiş döyüşçü Əhməd Xudiyev maraqlı bir foto ilə bizi tanış etdi.

Gördüyünüz fotonun maraqlı tarixini sizinlə bölüşmək istəyirik.

Əvvəlcə məlumat üçün bildirək ki, Ağdamlıların "güləşçi Əhməd müəllim" kimi tanıdığı Əhməd Mirzə oğlu Xudiyev Qarabağ münaqişəsinin başladığı ilk gündən silaha sarılan soydaşlarımızdandır. O, Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun yaratdığı "Vətən oğulları "dəstəsinin üzvü olub.

Sonradan həmin dəstənin əsasında yaradılmış Eldar Bağırov adına 845 saylı Ağdam ərazi müdafiə batalyonunun şəxsi heyət üzrə rəisi, qərargah rəisinin müavini vəzifələrində döyüşlərin ən qızğın nöqtələrində döyüşüb.

Ə. Xudiyevin şərhi: "Bu fotoşəkil yaxın tariximizin ,1991 ci ilinin payızında çəkilmişdi.Yaxın tariximizdə önəmli yer tutan hadisənin əksidir. Torpağımızda yer verib məskunlaşdırdığımız,xəyanətkar ermənilər, rus ağalarına arxalanaraq yenidən bizdən torpaqlar qoparmaq iddiasına düşmüşdülər. Məkrli əməllərini həyata keçirmək üçün silahlanıb nizami ordu yaratmağa başladıqları zaman,içimizdə olan, rus imperiyasına nökərçilik edən vəzifəlilər əlimizdə olan ov tüfənglərini də müsadirə edib, bizləri düşmən qarşısında əliyalın qoymuşdular. Xalq özü dəstələr yaradaraq, xalq cəbhəsi ətrafında birləşdi. İlk özünümüdafiə dəstəsi Allahverdi və Eldar Bağırov qardaşlarının ətrafında toplaşdı.Kiçik dəstələrlə şəklində müdafiə dəstələri təşkil edildi. Qarabağda nizami ordu yaradıb silahlanmaq lazım ldı.Hərbçi kadrlar yox idi. Belə bir zamanda,cəbhəçi fəallarından,Şahin Qarayev arıq, uca boy bir oğlanla Ağdam cəbhəçilərinin qərargahına gəldi. Təbii ki, biz o vaxt onu yaxından tanımırdıq. Həmin adamın rus ordusundan tərxis olunmuş polkovnik olduğu məlum oldu.

üçün cavanlardan ibarət əsgərlər toplanması üçün kömək lazım idi. E.Bağırav polkovnikə dedi ki, sizə hərtərəfli kömək olunacaq. E.Bağırov cəbhə fəallarından, mən də daxil olmaqla bir neçə nəfərə göstəriş verdi və gecikmədən işə başlamağı tapşırdı.Bu foto nizami ordu yaradılması üçün Ağdam 50 nömrəli peşə məktəbinin idman meydançasında keçirilən ilk toplantıdandır.

Ağdamda ilk həqiqi hərbi birləşmə yaradılırdı. Fotoda, soldan birinci polkovnik Şirin Mırzəyevdi. Uzun meddət batalyon nizamlanana qədər o səsgücləndirici ciynindən düşmədi. Mirzəyevdən sağda, Ağdamın o vaxtkı hərbi komissarı olmuş Mustafa Əliyevdi. Ondan sonrakı Ağdamın icrakomun müavini Həmzə Əliyevdi.Öndə isə əsgərlər qarşısında cıxış edən mənəm.

Həmin gümAğdamda ilk nizami 836- cı batalyonun əsası qoyuldu.Tezliklə Şirin Mirzəyev mükəmməl bir alay yaratdı. Hətta alayın desant qrupunu yaradaraq, ermənilər yaşayan kəndlərin əhatəsində olan Umudlu, Kərəmli, Narışlar kəndlərinin müdafiəsini təşkil etdi.

Ən az itki verən və mükəmməl əməliyyatlar kecirən hərbi hissələrin öncülü oldu. Şəhid olduğu günə qədər alay rəhbərlik etdi".

**Xatırladaq ki, Azərbaycan Respublikasının müdafiə naziri, general-leytenant Valeh Bərşadlının 12 noyabr 1991-ci il tarixli əmri ilə polkovnik-leytenant Şirin Vəli oğlu Mirzəyev Ağdam ərazi özünümüdafiə taborunun komandiri təyin olundu.**

**Əntiqə Rəşid**

# Bu savaş Ermənistanın silahlanmasına təsir edə bilər

**Məlumdur ki, Hindistan-Pakistan arasında gərginlik artıb və müharibə risqi yaranıb. Hindistan dərhal silahlanmağa başlayıb və bir o qədər zəngin cəbbəxanası olduğuna baxmayaraq yeni silah müqavilələri imzalayıb.**

Məsələn, Hindistanın Müdafiə Nazirliyi məlumat yayıb ki, Fransayla 7,3 milyard dollarlıq müqavilə imzalayıb.

Pakistanla qarşıdurma Hindistanın Ermənistana silah tədarükünə təsir edə bilər.

Hazırda erməni siyasiləri, politoloq və ekspertləri Pakistanla qarşıdurma Hindistanın Ermənistana silah tədarükünə təsir edə biləcəyini müzakirə edir.



Xatırladırıq ki, Ermənistan Hindistan silah və hərbi texnikasının ən böyük istehlakçısından biridir və Hindistan Ermənistana "Pinaka" silah sistemlərinin tədarükünə hələ ötən ildən başlayıb. Hindistanın müdafiə mənbələri "Pinaka" reaktiv yaylım atəş sistemlərinin ilk partiyasının Ermənistana göndərildiyini açıqlamışdı. Onların tədarükü ilə bağlı iki ölkə arasında təxminən 2-3 il əvvəl uzun danışıqlardan sonra müqavilə imzalanmışdı .Hindistan eyni vaxtda Ermənistana "Akaş" Hava Hücumundan Müdafiə (HHM) sistemlərinin tədarükünə başlamışdı. Ermənistan 2024-2025-ci illər üçün Hindistandan daha 600 milyon dollar məbləğində silah almağı öhdəsinə götürüb. İrəvan artilleriya sistemlərinə və hava hücumundan müdafiəyə üstünlük verir. Hindistanın "Zen Anti-Drone System" (ZADS) şirkəti tərəfindən hazırlanmış pilotsuz uçuş aparatları əleyhinə sistemlərin Ermənistana tədarükü üçün 41 milyon dollarlıq sifariş barədə məlumatlara istinad edir.

**Bundan başqa, ötən il İrəvanda Hindistanın "Hindustan Aeronautics Limited" şirkəti vasitəsilə dörd "Su-30 SM" təyyarəsinin təkmilləşdirilməsi məsələsi də müzakirə olunmuşdudu.**

**Ə. Rəşid**

*Qalib İbrahimoğlu*

# 150 yaşlı mətbuatımız: Sözə sahib çıxaq



**Milli mətbuatımız 150 yaşına çatır. Tarixi köklərini hələ 1875-ci ildə Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzetindən götürən mətbuatımız 150 ildir müqəddəs missiyasını davam etdirir.**

**Güclü dövlətin təməl daşlarından biri də azad, obyektiv, vicdanlı mətbuatdır. İllərdi azad sözün çırağını sönməyə qoymayıb milli mətbuatımız. Həmişə də dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunub.**

**Elə Prezident İlham Əliyevin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncam da dövlətimizin, onun başçısının milli mətbuata verdiyi önəmin, növbəti qayğının göstəricisidir. Bu Sərəncam milli mətbuatın Azərbaycanın ictimai-siyasi və mədəni həyatındakı yerini, mədəniyyətin, maarifçiliyin inkişafında rolunu, müasir cəmiyyət quruculuğu və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi sahəsində töhfələrini nəzərə alaraq imzalanıb. Bu Sərəncam eyni zamanda Ulu öndər Heydər Əliyevin milli mətbuatımızın yubileylərinin qeyd olunması ilə qoyduğu ənənənin davamıdır.**

**Sərəncamda göstərilir ki, ötən dövr ərzində müstəqil siyasi kursun qətiyyətlə və ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilib, qarşıda duran strateji vəzifələr uğurla gerçəkləşdirilib. Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq və unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazdı, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoydu, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərdi. Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratdı.**

**Vətən müharibəsində qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbulu media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləyib. Vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin etmişdir.**

**Dövlətimizin başçısı bu Sərəncamla yalnız bir yubiley tədbirinin təşkili deyil, həm də Azərbaycan mətbuatının cəmiyyət həyatındakı əvəzolunmaz roluna dəyər verdi. Cəmiyyətin güzgüsü, dövlətlə xalq arasında körpü olan Azərbaycan jurnalistikası milli kimliyimizin qorunmasında da böyük xidmətlər göstərib.**

**Bu gün mətbuatımız təkcə informasiya yaymır. Eyni zamanda milli kimliyimizi qoruyur, ictimai rəy formalaşdırır.**

**Prezidentin imzaladığı bu sərəncam mətbuat işçilərinə həm mənəvi stimul verir, həm də onların əməyinin cəmiyyət tərəfindən nə qədər yüksək qiymətləndirildiyini göstərir.**

**Bu Sərəncam jurnalistlərə yeni ruh verməklə yanaşı həm də bütün media işçilərinə bir mesajdır: milli mətbuat ənənələrini qoruyaq, qələmi vicdanla işlədək, sözə sahib çıxaq.**

## *Tramp Süveyş kanalına da göz dikdi: Bizə ödənişsiz olsun...*

**ABŞ prezidenti Donald Tramp hərbi və ticarət gəmilərinin Panama kanalından sonra Süveyş kanalından da ödəniş etmədən keçməsini tələb edib.**

Adalet.az xəbər verir ki, aprelin əvvəlində Tramp misirli həmkarı Əbdülfəttah əs-Sisi ilə söhbətində Amerika gəmilərinin Süveyş kanalından ödənişsiz keçidinə nail olmaq istədiyini bildirib.O, həmçinin əmindir ki, Amerika gəmiləri Atlantik və Sakit Okeanları birləşdirən Panama kanalından keçərkən gömrük maneələri olmamalıdır.

Bu barədə mənbələrə istinadən The Wall Street Journal (WSJ) məlumat yayıb.

Nəşr bildirir ki, Tramp bildirib ki, ABŞ hərbi yardım və kəşfiyyat mübadiləsi yolu ilə Husilərə qarşı əməliyyatlarında Misirin dəstəyini təmin etmək istəyir. O qeyd edib ki, bu, Süveyş kanalı vasitəsilə nəqliyyatın hərəkətini yaxşılaşdıra bilər. Bununla belə, Əl-Sisi buna qarşı çıxıb və Qəzzada atəşkəsin əldə olunmasını "husiləri dayandırmağın ən yaxşı yolu" adlandırıb.

**Əntiqə Rəşid**




Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az


# Sızlar yada düşəndə...

**... İnsan ömrünün ən gözəl günlərindən biri də tələbəlik illəridir. Bizim də tələbəlik dövrümüz 1974-79-cu illərə təsadüf edir. Və bu illərdə biz ömrümüzün ən gözəl günlərini yaşamışıq.**

**Tələbə yoldaşlarımın adını bir-bir çəksəm, uzun siyahı alınar. Onların əksəriyyəti tanınmış jurnalistlərdi. Və onların arasında Xalq yazıçısı, Əməkdar jurnalist, Əməkdar mədəniyyət işçisi, Əməkdar incəsənət xadimi, elmlər doktoru, professor var. Amma qoy bir neçəsinin adını və soyadını yada salım: Afaq Məsud, Flora Sadıqova, Rəhman Salmanlı, Loğman Rəşidzadə, Şamil Abdullayev, İbrahim Mehdiyev, Tofiq Yusifov, Elşad Həsənov, Zemfira Ələkbərova, Yeganə Rəhimova, Əməl Kərimova, Gövhər Rzayeva... Adlarını çəkmədiklərim məndən inciməsinlər. Bu yaxınlarda dostum və qardaşım Rəhman Salmanlı mənə zəng etdi ki, tələbə yoldaşımız Mehdi Alıyevin həyat yoldaşı rəhmətə gedib. Təbii ki, mən də Mehdi qardaşımıza telefon açdım və başsağlığı verdim.**

**Yəni dərdinə şərik oldum. Mehdi də bizim tələbə yoldaşlarımızın arasında ən tərbiyəli, ən mərifətli bir insandır. O dedi ki, Faiq, çox sağol ki, bu ağır gündə mənim dərdimə şərik olursan, minnətdaram! Sözün açığı, heç mənim "minnətdarlıq" sözündən xoşum gəlmir. Elə bil ki, birinə yaxşılıq eləyirsən, amma boynuna minnət qoyursan ki, sabah mənim elədiyim yaxşılığı qaytar! Nə isə... Mehdi dedi ki, tələbə yoldaşlarımızın çoxu zəng edib. Bunlar hamısı mənə təsəlli oldu. Sonra da fikrini davam etdirib dedi ki, bəs Şamil Abdullayev də açıq ürək əməliyyatı keçirib. Vaxtın olsa, bir ona zəng elə! Mən də vaxt itirmədən Şamil dostumuzla əlaqə yaratdım. Səsimi eşidən kimi sevindi və özünəməxsus bir şirinliklə hal-əhval tutdu. Və heç xəstəliyindən bir kəlmə də danışmadı, əksinə dedi ki, uşaqları mayda bir yerə yığarsan, sizə qonaqlıq verərəm. Mən Şamillə bir qrupda qəbul imtahanı vermişəm.**

**O qrupda Flora Sadıqova, Loğman Rəşidzadə də vardı. Şamil Azərbaycan dili və ədəbiyyat şifahi imtahandan "beş" aldı. Və bu "beşi" də imtahan komissiyasının sədri İsmayıl Şıxlı yazdı. Şamil Abdullayev qrupumuzda "əlaçı" tələbələrdən idi. Səhv eləmirəmsə, neçə bacının bir qardaşıdır. O, uzun müddət "Bakı-Baku" qəzetində məsul vəzifədə çalışıb və Şamil Qaraoğlu imzası ilə çıxış edib. Sonradan iş adamı kimi fəaliyyət göstərib və bu gün də həmin işlə məşğuldur. Bir dəfə də Şamil qardaşımız qəzetdə işləyəndə onun maşınında Şamaxının Ərəbşalbaş kəndinə tələbə dostumuz istedadlı jurnalist Qismət Babayevin toyuna getmişik. Onun maşınında Rəhman Salmanlı, mən, bir də adını unutduğum bir tələbə yoldaşımız vardı. Kəndə çatdıq, Qismətin qohumlarının hamısı bizi böyük sevgiylə qarşıladılar. Toyu da Alim Qasımov aparırdı. Hələ mən elə gözəl, yaddaqalan, muğamla zəngin toy görməmişdim.**

**Qismətin anasına həsr etdiyi şeir bizim hamımızı kövrəltdi... Hətta tələb dostumuz Məzahir Süleymanzadənin, Əlipənah müəllimin gözləri doldu. Yeməkdən əvvəl bizə Qismətin qohumlarıgildə kəklikotundan dəmlənmiş çay verdilər və o çayın dadı indiyə kimi damağımdan getməyib. Bax belə! Bizim Şamil qardaşımızla yol yoldaşlığımız olub və onun da öz gözəlliyi var!**

**Rəhmətə gedən tələbə dostlarımız da var: Əli Səfəroğlu, Ağalar Mirzə, Qismət Babayev, Mübariz, Vaqif, Mehman, Habil, Azər, Beydulla, Əhməd... Məkanları Cənnət olsun!!! Bax beləcə tələbəlik illərini xatırladım və çox kövrəldim. Sən demə, ən xoşbəxt günlərimiz həmin illər imiş. Amma bizim xəbərimiz yoxmuş... Yazımı da tələbəliklə bağlı məşhur şeirin bir bəndi ilə bitirirəm:**

**Sızlar yada düşəndə,**
**Ürəyimin telləri,**
**O mehriban, o əziz ,**
**Tələbəlik illəri...**

## Si Cinpin: Süni intellekt görünməmiş risklər də yaradır

**Çin lideri Si Cinpin süni intellekt texnologiyalarının cəmiyyətə böyük imkanlar yaratdığını, lakin eyni zamanda görünməmiş risklər və çağırışlar da ortaya çıxardığını bəyan edib.**

Adalet.az xəbər verir ki, bununa bağlı ölkənin mərkəzi televiziyası məlumat yayıb.

"Süni intellekt inkişaf üçün misilsiz imkanlar təqdim etsə də, onunla yanaşı, təhlükəli və görünməmiş risklər də mövcuddur", - deyə Si Cinpin bildirib.

**ÇXR liderinin sözlərinə görə, süni intellekt insanın həyat tərzini və istehsalat proseslərini köklü şəkildə dəyişdirəcək. O, bu sahədə qanunvericilik bazasının və etik prinsiplərin sürətlə formalaşdırılmasının zəruriliyini vurğulayıb.**

## Qaydaları pozanlar...



**Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsində yol polisinin rolu əvəzsizdir. Ən azından ona görə ki, yol polisi gözə dəyməyəndə bir çox sürücülər kobud qayda pozuntusuna yol verir, avtoxuliqanlıq edir və sərxoş vəziyyətdə sükan arxasında əyləşərlər. Bu isə birmənalı olaraq ölümə gedən yol deməkdir.**

Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsi Yol Patrul Xidməti Alayının beşinci tağımının əməkdaşları da bir qayda olaraq paytaxta hərəkətin təhlükəsizliyinin təmin edilməsində üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir. Belə ki, onlar xidmət apardıqları küçə və prospektlərdə hərəkət iştirakçılarının mənzil başına sağ- salamat çatmaları üçün bütün qabaqlayıcı tədbirləri vaxtında həyata keçirir. Əlbəttə , öncə beşinci tağımın əməkdaşları kobud qayda pozuntularına- avtoxuliqanlara, sərxoş sürücülərə, qəza vəziyyəti yaradanlar, sürücülük hüququ olmadan sükan arxasında əyləşənlər qarşı vaxtında və yüksək peşəkarlıqla tədbirlər görülür. " Dayanma" , " durma" qaydalarını pozanlara və avtobus dayanacaqlarını zəbt edənlər inzibati məsuliyyətə cəlb edilir.

Amma bu o demək deyil ki, tağım əməkdaşları əsas vasitə kimi cəza tədbirlərindən isifadə edirlər. Onlar inzibati məsuliyyətdən öncə sürücüləri, hərəkət iştirakçılarını maarifləndirirlər. Bu addımlar uğurlu olmayanda onlar məcbur olub inzibati üsullardan istifadə edilirlər. 5-ci tağımın komandiri Nurlan Əliyev deyir ki, əməkdaşlarımız qeyri- sabit hava şəraitindən tutmuş, adı hava şəraitinə qədər avtomobil yollarında hərəkətin təhlükəsizliyini yüksək səviyyədə təmin edirlər. Hərəkətin intensiv olduğu saatlarda tıxacların vaxtında aradan qaldırılması üçün bütün qabaqlayıcı tədbirlər elə həmin an gerçəkləşdirilir. Xüsusilə səhər və axşam saatlarında belə vəziyyət yaranır.

Ona görə də əməkdaşlarımız belə çətin iş şəraitinə həmişə hazırdır və tapşırılan vəzifəni yüksək peşəkarlıqla yerinə yetirirlər! Bəli, tağım komandirinin sözünə qüvvət olaraq deyə bilərik ki, Bakıda hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün Yol Patrul Xidməti Alayının beşinci tağımın əməkdaşları bütün zəruri tədbirləri vaxtında həyata keçirir. Bu isə qəzaların qarşısının alınması, ölüm və xəsarətalma hadisələrinin baş verməməsi, azalması deməkdir!

## Motosikletçilər "avtoş" luq edirlər



**Biz çox müxtəlif markalı avtomobil sürücülərinin " avtoş" luq elədiyini görmüşdük, ancaq təəccüblənməmişdik. Heyrətlənməmişdik ki, onlar bir - biri ilə ötüşəndə bu avtomobilləri iki təkəri üstə sürür, qəfil əyləci basmaqla tükürpədici səslər çıxır.**

Amma motosiklet sürücülərinin bir - biri ilə ötüşdüyünü gördük və təəccübləndik! Təəccübləndik ki, bunu da gördük. Deməli belə. Bir neçə gün bundan əvvəl Bakının Suraxanı rayonu, Yeni Günəşli yaşayış sahəsinin Mürsəl Kazımlı küçəsində ( bu yol 33-cü Polis Bölməsinə kimi uzanır) üç motosikletçi bir- biri ilə ötüşürdü. Düşünmürdülər ki, qəfil qarşılarına piyada çıxar və onu vura bilərlər. Motosikletlərin səsi hər tərəfi bürümüşdü. Bir motoskletçi isə o birilərindən fərqli olaraq bir neçə saniyə nəqliyyat vasitəsini tək təkər üştündə idarə edirdi. Yol polisi əməkdaşları çox vaxt bu yolda xidmət aparır, amma təəssüf ki, həmin an onlar yox idi.

Elə bundan da istifadə edən motosikletçilər " avtoş" luq eləməkdən çəkinmirdilər. Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsi, eləcə də Suraxanı rayonu Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsi adını çəkdiyimiz Mürsəl Kazımlı küçəsində profilaktik tədbirlər keçirsə, heç şübhəsiz onların avtoxuliqanlığını aşkar edər.

Üstəlik də həmin küçədə bir neçə yerdə kameralar var və kameralara baxılsa, motosikletçilərin bütün hərəkətlərini görə bilərlər. Əlbəttə, " avtoş" luq edənlər həm özlərinin, həm də digər hərəkət iştirakçılarının həyatını təhlükə qarşısında qoyur.Ona görə də bu məsələyə yol polisi diqqət yetirməlidir!!!

## Brend addan istifadə olunur

**İsmayıllı rayonunun bir çox məhsulları ölkəmizdə məşhurdur.**



İsmayıllı alması, İsmayıllı şoru, İsmayıllı yeməkləri... Bir sözlə, bu rayonun özünəməxsus bir gözəlliyi və özəlliyi var. Çox təəssüflə ki, İsmayıllının məhsulları adından sui- istifadə edilir.Bəziləri keyfiyyətsiz almanı və şoru İsmayıllı məhsulu kimi satışa çıxarır, amma tanıyan adamlar o dəqiqə bilirlər ki , nə alma , nə də şor İsmayıllının deyil, başqa rayonun məhsuludur.

Çünki adını çəkdiyimiz İsmayıllı məhsulları bir brenddir və brenddən də başqaları istifadə edir, ancaq bir müddət keçəndə sonra ifşa olunurlar. Bax , Bakıda əksər marketlərdə və maqazalarda İvanovka şoru satılır. Bir kəndin elə bir imkanı yoxdur ki, ölkəni şorla təmin etsin. Görünür, yenə müyyən işbazlar bu brend məhsuldan istifadə edir. Düzdür, elə market var ki, həqiqətən də İvanovka şoru satır. Ancaq bu ad altında istehlakçıları aldadan marketlər az deyil. Ona görə də əlaqədar qurumlar bu qanunsuzluğun qarşısını almalı, brend adlardan istifadə edən fiziki, hüquqi, vəzifəli şəxsləri məsuliyyətə cəlb etməlidir!!!

## Dəm qazı can almaqda...



**Son illər Azərbaycanda dəm qazından ölənlərin sayı ilbəil artır. Ötən il nisbətən bu il bu faciənin qurbanlar bir az da çoxalıb**

Çox təəssüflə ki, nə " Azəriqaz" , nə də digər qurumlar gündəngünə artan ölüm faktlarının qarşısını ala bilmir. Deyirlər ki, dəm qazından ölüm hallarının baş verməsinə səbəb qeyri - standart qaz cihazlarından istifadə etməkdir. Yaxşı bu fikrinən razıyıq. Amma onunla razı deyilik ki, o qeyri-standart deyilən cihazların da çoxu zavod istehsalıdır və sertifikatı var. Dəm qazından boğulmalarla bağlı " Azəriqaz ' evlərdə , mənzillərdə yoxlamalar aparıb, mövcud nöqsanlarla bağlı aktlar tərtib edilib. Və texniki qüsurlara yol verən abonentlərə xəbərdarlıq olunub.

Bir çox mənzil sahibləri suqızdırıçı cihazları hamam otağından çıxarıb ya mətbəxdə , ya eyvanda quraşdırıblar. Bununla müəyyən təhlükələr aradan qaldırılıb. Amma məsələnin bir tərəfi də var ki, mənzillərə verilən təbii qazın keyfiyyəti də yaxşı deyil. Başqa sözlə demiş olsaq, emal zamanı qazın tərkibindəki zəhərli maddələr tamamilə çıxarılmır. Heç sovet dönəmində qazdan ölüm faktları bu qədər çox deyildi.Çünki onda hər şeyə güclü nəzarət vardı. Amma indi belə nəzarət yoxdur.

Bəzən də qaz sobalarının dəm qazı çıxan yerində quş yuva qurur, ancaq bunu ev sahibləri görmür. Bir neçə gün bundan əvvəl Tərtər rayonununda evlərin birində qaz sobasının dəm qazı çıxan yerində quş yuva qurubmuş və nəticədə bir ailənin dörd üzvü dəm qazından boğularaq ölün. Bax, bu, faciə deməkdir. Bu faciələrin qarşısını hələ ki, alan yoxdur!!!

## Xalq və bəstəkar mahnıları səsləndirilir



**Heç kimə sirr deyil ki, sosial şəbəkələr və özəl televiziya kanalları bəsit, bayağı mahnıları təbliğ edir. Bu da birmənalı olaraq insanların zövqünü korlamaqla yanaşı, həm də o mahnılar ifa edənləri kütlə arasında məşhurlaşdırır.**

Sonradan da o" müğənniləri çox baha qiymətə toylara aparırlar. Bu " manıs" lar da tanınadan sonra o pullara avtomobillər, evlər alırlar və özlərini reklam edərək camaatın əsəbləri ilə oynayırlar. Bir sözlə toy müğənnilərinin əlindən insanlar lap boğaza yığılıb. Amma nə yaxşı ki, son vaxtlar Bakı metrosunun stansiyalarında xalq və bəstəkar mahnıları səsləndirilir. İnanın adam o mahnıları və musiqini dinləyəndə əsəbləri sakitləşir, ruhu dincəlir. Özü də metrodan istifadə edən insanlar da bu mahnıları böyük sevgi ilə qarşılayırlar.

Dünyaşöhrətli sənətkar Rəşid Behbudovun ifa etdiyi" Lalələr" mahnısı çox unikaldır. O mahnını Rəşid bəy elə yüksək sənətkarlıqla ifa edib ki, musiqini dinləyəndə özünü gülün- çiçəyin, lalələrin, yazın içindən hiss edirsən və hiss edirsən ki, yaz yağışı yağır, ürəyinə yaz təravəti hopur.

Özü də Rəşid Behbudov bu mahnını üç- dörd səslə oxuyur və bu "ağ səs" di. Və bu " ağ səs" Azərbaycan musiqisində iki- üç sənətkarda var. Bunlar yanaşı, metroda Polad Bülbüloğlunun və digər böyük müğənniləri mahnıları səsləndirilir. Qoy, özəl televiziya kanalları gözələrinə su versin və Azərbaycan musiqisinin təbliğini Metropolitendən öyrənsin. Əgər öyrənə bilərlərsə...


EMİL FAİQOĞLU




# “Hay”laşdılmış xristian Qıpçaq-ƏRmən tarixi: Bağrevənd döyüşü - 1250

**Ermənilər bu gün növbəti bir fəlakətin ildönümünü qeyd edirlər. Yenə” qəhrəmanlıq nağılları , yenə uydurulmuş tarix, yenə məzlum ermənilər” nağılları ilə dünyanın gözünə girməyə çalışırlar.**

Məsələni oxucularımıza ətraflı danışmaq üçün əvvəlcə bu gün erməniləri ”ağladan” olaydan bir neçə yüz il əvvələ getmək , o hadisələrin bu günkü ”ildönümü” keçirilən hadisələrlə bağlılığını açıqlayaq. Yəqin ki, bir çoxunuz xatırlayırsınız: 2023-cü ildə ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Ermənistana səfəri və burda qonşu ölkələrlə bağlı ikibaşlı çıxışları nəinki tək Bakını, Moskvanı eləcədə İran İslam Respublikasını narahat etdi.

Pelosi sentyabrın 18-də İrəvandakı Cafesjian İncəsənət Mərkəzində çıxış etd və erməni rəssam Q.Xancyanın ”Avarair” tablosu qarşısında ”Bu xristian Ermənistanın İranla mübarizəsinin təsviridir” sözləri ilə başladı. Amma o vaxt bir çoxumuz bilmirdik ki, Pelosinin nümunə göstərdiyi o döyüşün hazırki haylarla heç bir əlaqəsi yoxdur. Bu elə pelosi kimilərin uydurub ermənilərin boş beyinlərinə yeritdikləri mənasız bir oyun, məqsədli bir layihədir.



### *Hayların öz adına çıxdıqları Avarayr döyüşü*

Qafqaza 1828-ci ildə Rusiya çarı I Pyotrun əmri ilə köçürülən və xristian olan ƏRmən - türk əsilli xalqların yadellilərə qarşı mübarizəsini öz adlarına çıxan haylar başqalarının tarixini oğurlayaraq yeni bir tarix qondarıblar: Avaray, yaxud Avarayr döyüşü 26 may, yaxud 2 iyun 451-ci ildə baş verib. Avaray İranın Maku və Xoy şəhərləri arasındakı düzə ermənilərin verdiyi addır.

Tarixdə bu döyüş Sasani əsarətinə qarşı erməni üsyanı kimi tanınır. Üsyana Vardan Mamikonyan adlı ƏRmən başçılıq edib. Döyüşdə ermənilərlə birlikdə qonşu iberlər və albanlar da iştirak edib.

Həmin döyüşdə Sasani qoşunu sayca az olan üsyançıları məğlub edib. Bu vuruşmada Mamikonyan öldürülüb, lakin sasanilərin qələbəsi həlledici olmayıb. 457, 48-484-cü illərdə Cənubi Qafqazda Sasanilərə qarşı yeni üsyanlar baş verib. Çünki Mamikonyanlar sülaləsi öz knyazlığını genişləndirə bilib və hakimiyyətlərini qoruyub saxlaya bilir.

### *Hayların Ardzni döyüşü dedikləri Bağrevənd döyüşü*

651-ci ildə şahanşah III Yezdəgirdin Ərəb xilafətinə məğlub olması nəticəsində Sasani İmperiyasına son qoyulduqdan sonra Mamikonyanlar knyazlığı yenidən fəaliyyətini aktivləşdirməyə çalışdı. Abbasilər xilafəti (750-1258) dövründə yenidən üsyanlara başladı. Abbasilər xilafətinin qurulmasından sonra xəlifə Mənsur (754-775-ci illərdə hakimiyyətdə olub) müxtəlif erməni naxararlarına (knyaz) verilən subsidiyaları ləğv edir və əlavə olaraq onlara ağır vergilər qoyur.

O dövrdə islama boyun əyməyən xristian ƏRmən əhalisinə qarşı dini təqib halları sərtləşməyə başladı. Bundan qəzəblənən Abbasilər xilafətinin ərazilərində yaşayan xristian əhali, o cümlədən ƏRmən xalqları 774-cü ildə böyük bir üsyana qalxırlar. Üsyana 451-ci ildə Sasanilərə məğlub olan Mamikonyanlar sülaləsinin üzvü Artavazd Mamikonyan başçılıq edirdi. O əksər naxarar ailələrinin birbaşa və ya üstüörtülü dəstəyini əldə etmişdir.

Onların arasında ən diqqət çəkəni indiyə qədər ərəbpərəst Baqratunilər idi(Baqratuni sülaləsi 885-1045-ci illər arasında Ermənistan və Şərqi Anadolunu idarə edən ƏRmən sülaləsidir.red-Ə.R), lakin Artsruni (Artsruni ƏRmən mənşəli knyaz və çar ailəsi, Bizans imperator sülaləsidir red-Ə.R) və Süni sülalələri (Sünik, Süni, Syuni, Sisakan sülaləsi antik və orta əsrlər dövründə Sünik vilayətində hakimiyyət sürmüş alban sülalədir. red-Ə.R) bitərəf qalır. Üsyan bütün Ərməniyyəyə yayılır və ərəb vergi yığanlara qarşı hücumlar adi hal alır. Yerli ərəb valisi Həsən ibn Qəhtəbə üsyançıları dayandıra bildirir. Xəlifə Əmir ibn İsmayılın başçılığı ilə Xorasandan 30 min nəfərlik ordu vilayətə göndərilirş və 25 aprel 775-ci ildə Bağrevənd döyüşündə ƏRmənlər qəti məğlubiyyətə uğrayırlar. VII Smbat Baqratuni və VI Muşeq Mamikonyan döyüşdə həlak olur. Döyüşdən sonra üsyan Abbasilər tərəfindən yatırılır.

### *Avropanın, Rusiyanın, antitürk dövlətlərin qondardığı “böyük Ermənistan” layihəsi*

Əziz oxucularımız, gördüyünüz kimi qıpçaq türkləri olan xristian ƏRmənlər tarixdə böyük ərazilərə sahib olub və tarixə önəmli qatqıları olub. 1828-ci ildə Qafqaza İrandan, Türkiyədən, Hindistan və Mesopotomiyadan sürülmüş qaraçılarla qohum xalqlar olan hayların ƏRmən türk tayfalarının heç bir əlaqəsi olmayıb. Artıq haylar 200 ildir arxalarındakı hegemon dövlətlərin dəstəyi ilə bu görüntünü yarada bilib ki, guya ƏRmən Ərməniyyə onlara məxsusdur.Amma bütün dünya bu yalanı cücərtdiyi üçün onu böyütməkdə, ””bar”ınını haylara yedirməkdə israrlıdr. Bu dünyadakı böyük Türk adına qarşı müharibənin, münaqişənin, qısqanclığın bir nümunəsidir.

Bu Fransa, ABŞ, Rusiya və digər irticaçı dövlətlərin bölgədə türk gücünü zəiflətməyin bir açarıdır. ”Böyük Ermənistan” qondarma ehay soyqırımı isə antitürk dövlətlərin bu bədbəxt və yesir toplumun boyuna biçdiyi geniş bir layihədir.

Layihə addım-addım, qarış-qarış işləyir. Amma burda ən çox zərər görən, xam xəyallarla psixikası pozulan, hər əsrdə ölümlərə, qırğınlara məhkum qalan hay toplumudur.

**Yəqin ki, bu mənfur layihədən əl çəkməyincə haylar qırılmağa , zərər görməyə məhkumdurlar.**

**Əntiqə Rəşid**

# Maşın alıcıları ucuz variant tapıblar

**Avtomobil bazarında durğunluq müşahidə olunur. Bu durğunluqdan ən çox avtomobil satışı ilə məşğul olan şəxslər gileylənirlər. Onlar alıcı azlığından şikayət edirlər. Bildirirlər ki, maşın bazarında alıcı yoxdur.**

Əslində olan isə alıcıların azalması deyil. Hazırda avtomobil almaq istəyən kifayət qədər şəxs var. Sadəcə alıcılar ”uçan qiymətlər”ə görə artıq maşın bazarına getməyə ehtiyac duymur.

Əvvəllər maşın bazarındakı qiymətlər elan saytlarındakından qat-qat aşağı idi.

Rayondan maşını gətirən şəxslər ”əlimyandı qiymət”ə maşını satıb gedirdilər. Hazırda vəziyyət tam dəyişib. Maşın bazarındakı qiymətlər elan saytındakından daha bahadır.

Məlum məsələdir ki, hazırda Bakıda bəzi modellər var ki, qiyməti həddən artıq şişirdilir. Bunlar sırasında ”Çeşka”, ”4 fara” və ”Elantra” modelləri xüsusi yer tutur. Hansı ki, bu maşınlar artıq ”qocalıb” və müasir texnologiyalar baxımından çox geridə qalır.




Artıq maşın satışında İnstagram və Tiktok elan saytlarını belə geridə qoyub. Dəyərindən olduqca aşağı qiymətə təqdim olunan maşınlar sosial şəbəkələrdə yarım saata satılmaqdadır. Bu da maşın bazarının alıcılıq qabiliyyətini zəiflədən səbəblər sırasındadır.

Bundan əlavə, hər kəsin özü üçün avtomobil gətirə bilməsi də maşın bazarında durğunluğu yaradan amillərdəndir. Belə ki, şəxsi istifadə üçün gətirdiyi maşının bazardakından 2,3 min ucuz olduğunu bilən şəxslər heç maşın bazarına getməyə ehtiyac duymur.

**Ümumilikdə isə Çin avtomobilləri Bakıya ”ayaq açandan”, xüsusilə də BYD destroyer və Changan a05 ölkəmizə gətiriləndən bütün ekonom maşınların bazarı ölüb. Çinin 22 min manata 0 km maşın sürmək imkanı yaratması digər avtomobillərin satışını alt-üst edib.**

**Əntiqə**

Səxavət Məmməd



# Dünya böyük savaşın ASTANASINDA

***Son 10 ildə dövlətlər hərbi xərclərini hər il müəyyən qədər artırırdı və bu stabil şəkildə həyata keçirilirdi. Rusiya-Ukrayna müharibəsi ilə Qərb ölkələri hərbi xərclərini daha çox artırmaq yönündə addımlar atdı. Bundan əlavə, Yaxın Şərqdə baş verən proseslər də region ölkələrinin hərbi xərclərini əhəmiyyətli dərəcədə artırmasına gətirib çıxardı.***

***Təqdimat olaraq deyilir ki, Rusiyanın Ukraynaya hücumu dünyada böyük müharibə təhlükəsini artırdı. Reallıqlar isə onu deməyə əsas verir ki, dünyaya bir bəhanə lazım imiş. İllərdir aktivləşməsi gözlənilən münaqişə zonalarında danışılır. Bunlar arasında Cənubi Qafqaz, Şərqi Avropa, Yaxın Şərq, Hindistan-Pakistan, Çin-Tayvan göstərilirdi. Hazırkı vəziyyətə baxdıqda, ehtimal olunan münaqişə ocaqlarının hamısı aktivləşmiş vəziyyətdədir, yaxud bir bəhanəyə bənddir ki, aktivləşsin.***

***Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) məlumatına görə, qlobal hərbi xərclər 2024-cü ildə 2,718 trilyon dollara çatıb ki, bu da 2023-cü illə müqayisədə 9,4 faiz artım deməkdir. Bu, Soyuq müharibədən sonra ən böyük illik artımdır.***

***Ötən il ən çox pul xərcləyən beş ölkə ABŞ, Çin, Rusiya, Almaniya və Hindistan olub.***

***Yeri gəlmişkən, Almaniya xaric digər 4 ölkə aktiv münaqişələrin əsas aktorlarıdır. Almaniyanın yaxın gələcəkdə əsas fiqurlardan biri olacağına isə şübhə yoxdur. Almaniyanın yeni kansleri Fridrix Merzin "Almaniya Avropa və dünyada yenidən məsuliyyəti öz üzərinə götürəcək" fikri kifayət qədər iddialıdır. İki dünya müharibəsi aparan Almaniyanın yenidən o gücə yiyələnəcək potensialı var. Qeyd edim ki, Almaniya hərbi xərclərini 28 faiz artıraraq 88,5 milyard dollara çatdırıb.***

***Avropada hərbi xərclər 2024-cü ildə 17 faiz artaraq 693 milyard dollara çatıb ki, bu da Ukraynadakı müharibə və potensial daha geniş münaqişə ilə bağlı narahatlıqlar fonunda Aİ-nin müdafiə və çəkindirmə qüvvələrini gücləndirməyə təkan verməsi ilə əlaqədardır.***

***Rusiyanın hərbi xərcləri 2023-cü illə müqayisədə 38 faiz artaraq 149 milyard dollara çatıb, Ukraynanın xərcləri isə 2,9 faiz artaraq 64,7 milyard dollar olub.***

***Rusiyanın Ukrayna müharibəsi ilə paralel olaraq daha böyük müharibəyə hazırlaşdığı iddiası reallıqları əks etdirir. Orduda aparılan reformlar, bundan əlavə, Qərb ölkələrinin yayımladığı kəşfiyyat məlumatları onu deməyə əsas verir ki, Rusiya Ukrayna müharibəsi ilə məsələni yekunlaşdırmayacaq. Sahədəki reallıqlar Ukraynanın öz ərazilərini geri qaytarmaq gücündə və potensialında olmadığını deyir. Ukraynada Zelenskidən fərqli olaraq bir çox rəhbər şəxslər torpaq itirmək təklifi ilə barışıblar. Ən azı verdikləri açıqlamalar bunu deməyə əsas verir. Rusiya indiki hüdudlarda müharibəni dayandırmaq niyyətində deyil. Buna səbəb isə ruslar da bilir ki, Ukraynanın 20-30 faizini ələ keçirməklə Ukraynanın 70-80 faizini itirmiş olurlar. Ona görə də Rusiya müxtəlif bəhanələr gətirərək müharibəni uzatmaq istəyir və hələ ki bunu bacarır.***

***ABŞ 997 milyard dollarla NATO-nun ümumi xərclərinin 66 faizini və qlobal xərclərin 37 faizini təşkil etməklə dünyanın ən böyük müdafiə xərcləyən ölkəsi olaraq qalır.***

***Dünyanın ikinci ən böyük hərbi xərcləyən ölkəsi olan Çin müdafiə büdcəsini 7 faiz artırıb 314 milyard dollara çatdıraraq otuzillik sabit artımını davam etdirir. Çin hərbi xərclərini təkcə Tayvana görə yox, ehtimal olunan böyük müharibəyə görə artırır. Çinin Tayvandan başqa Hindistan kimi iqtisadi rəqibi və ərazi problemi var. Bundan başqa, ABŞ-nin əsas hədəfinin Çin olduğunu nəzərə alsaq, Sakit və Hind okeanı hövzəsində böyük toqquşma potensialı həmişə qalır.***

***Hindistan hərbi xərclərini 1,6 faiz artıraraq 86 milyard dollara çatdırıb. Hindistanın artan iqtisadi gücü və insan resursu rəsmi Dehlini təhlükəli bir dövlətə çevirir. Hazırda Pakistanla Hindistan arasında gərginlik pik həddə çatıb. Hər iki tərəf müharibənin qaçılmaz olduğu barədə açıqlamalar verirlər. Pakistan müdafiə naziri yaxın günlərdə müharibənin başlama ehtimalının yüksək olduğunu dilə gətirib. Hindistanla Pakistanın hərbi gücünü müqayisə etdikdə, Hindistanın daha güclü olduğunu deyə bilərik.***

***İstər havada, istər dənizdə, istərsə də quruda Hindistan ordusu üstün sayılır. Hər iki ölkənin nüvə silahının olması beynəlxalq təşkilatların iki dövləti müharibədən çəkindirmək üçün addımlar atacağını deyir. Ancaq sahədə baş verənlər hər iki dövlətin müharibəyə hazırlaşdığını göstərir. Tərəflər sərhədboyu hərbi texnikalar, canlı qüvvələr cəmləşdirirlər. Pakistanlı jurnalist həmkarlarımdan aldığım məlumatda deyilir ki, hər iki tərəf sərhəd istiqamətində yerli əhalidən özünümüdafiə dəstələri yaradır və hərbi təlimlər keçir. Yeri gəlmişkən, Çinin Pakistana ciddi hərbi yardımlar etməsi yönündə iddialar var. Çinin bu cür davranışı da anlaşılandır. Çünki əsas rəqiblərindən birinin ağır müharibəyə girməsi, zəifləməsi arzuolunandır.***

***Qlobal hərbi xərclərin artması fonunda hələ də sülh müqaviləsi bağlaya bilməyən Azərbaycan və Ermənistan da hərbi xərclərini rekord həddə çatdırıb. Hər iki dövlət hansı regionda olduğunun və Cənubi Qafqazın potensial münaqişə ocağı olmasının fərqindədir. Ona görə də müharibə ehtimalı bu regiondan uzaq deyil. Cənubi Qafqaz təkcə ərazi mübahisələri ilə deyil, gələcəkdə içməli su ehtiyatları üzərindən də potensial münaqişə ocağı kimi qalacaq.***



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# "Köhnəlməyən xiffət"in yeni çalarları

**Şeir - mənə görə hamının yaza biləcəyi söz, fikir, cümlə toplusu deyil. Yəni bir-biri ilə səsləşən, bir-biri ilə yola gedən sözlərin bir araya gəlməsi anlamını daşımır. Mənim inancıma və bildiyimə görə şeir ilahi bir hədiyyədi, paydı, sovqatdı, həm də vergidi!.. Və mənə görə şeir o vaxt yazılır ki, onun yazılma, bir az açıq ifadə etsəm, onun dünyaya gəlmə məqamı tamam olur, yetişir. Bax, onda şeir yazılır. Özü də hökm deyil ki, dəftərə, kağıza, bilgisayara yazılsın. Şeir öncə ürəyə, yaddaşa yazılır. Sonra ordan köçür onu idarə edənin, əslində isə idarə olunanın istədiyi ünvana.**

Bax, bu mənada demək olar ki, mən hər gün çoxlu və hətta saysız-hesabsız sözlə, cümlə ilə qarşılaşıram. Yolum kəsişir, sözlərim baş-başa gəlir. Həmin o minlərlə sözün içində hərdən qarşıma ŞEİR də çıxır. Oxuyuram, düşünürəm, içimdə həm təkrarlayıram, həm də yaşayıram o şeiri. Özü də kimin yazmasından, kimə aid olmasından asılı olmayaraq. Çünki mənim daxilimdə ŞEİRƏ paxıllıq yoxdur. Şeirə sevgi var və bir də heyrət var. Məni heyrətləndirən şeirlərin sadəcə olaraq qarşısında baş əyirəm və az-çox sözü tanıyan adam kimi o cür ilahi şeirlər üçün özümdə güc axtarıram, təpər axtarıram. Lap açığını desəm, mən də o şeirlərin müəlliflərindən olmaq istəyirəm. Zənnimcə istək günah sayılmır. Heç paxıllıq da sayılmır və

Bəli, işimlə, həyatımla bağlı kifayət qədər söz adamı ilə, yazı adamı ilə təmasım var. Onların arasında mənə doğma olanlar üstünlük təşkil edir. Çünki mən söz adamlarını RUH doğmaları hesab edirəm. Özüm-özümü inandırmışam ki, ruh doğmaları bacıdan, qardaşdan kənarda qalmır. Onlar qədər yaxındı mənə. Bax, bu mənada ruh doğmamım sözü ilə qarşılaşanda elə bilirəm ki, elə onun özünü gördüm, özü ilə həmsöhbət oldum!..

Bugünlərdə bir kitab hədiyyə olundu mənə. Hələ mətbəə qoxusu canında olan və ilk təmasının da mənimlə olduğunu düşündüyüm kitabın adı dərhal diqqətimi çəkdi. Çünki o addakı "xiffət" sözü mənim yaddaşıma işıq saldı. Az-az işlətdiyimiz, az-az yadımıza düşən sözdü bu mənim üçün. Xüsusilə 30 il yurdsuz-yuvasız, evsiz-eşiksiz, Vətəndə vətənsiz olduğum illərdə o xiffət məni bir an da olsun tərk etmədi. Və mən həm ocağım üçün, həm evim üçün, həm elim üçün, həm tanıdığım daş, qaya, dağ, dərə, çay, bulaq, meşə, hətta əkdiyim ağac, gül, oxuduğum məktəb, gəzdiyim biçənəklər, ziyarət etdiyim doğmaların məzarları    Bir sözlə, hər şey məni o xiffəti yaşamağa məcbur etdi, xiffət çəkdim. Sonuna gün doğacağını, işıq düşəcəyini düşünə-düşünə. Şükürlər olsun ki, o günəş doğdu, o işıq düşdü və kəndim də, elim də, işğalda olan ərazilərimiz də o işığa büründü. Bunun üçün haqqı olanların hər birinə baş əyməklə, səcdə etməklə dualarımı çatdırıram!..

Bəli, kitabın adı "Köhnəlməyən xiffət"dir. Kitabın müəllifi isə mənim ruh doğmam, dəyərli söz adamı, yaradıcı insan, ərklə Bacı!- dediyim Nəzakətdir. Elə Nəzakət xanım da kitaba yazdığı avtoqrafda beləcə qeyd edib:

- Nəzakətdən Əbülfət Mədətoğluna bacı hədiyyəsi!!

Kitabı əlimə götürəndə əvvəldə vurğuladığım o xiffəti yavaş-yavaş unutmağa başladım. Çünki yaranan ovqat həm kitabın tərtibatı ilə bağlı, həm də ön sözün müəllifi, dəyərli şair dostum Rəfael Tağızadənin fikirləri yaratdı bu auranı mənim ətrafımda. Burda ön söz müəllifinin ustalıqla işlətdiyi "təbəssümün gizlətdikləri" fikri o qədər dəqiq ifadə olunmuşdu ki, mən kitabla tanış olanda Rəfael qardaşımın bu kitaba özəl bir söz adamı istəyi ilə yanaşdığını etiraf etməyə məcburam. Bunu ona görə xüsusi vurğulayıram ki, həqiqətən kitabdakı şeirlər bir təbəssüm ilğımına bürünüb. Onun canındakı, qanındakı ağrını, acını müəllif təbəssümü sanki nazik tülə bükür, istəmir ki, oxucu həmin ağrıları bütünlüklə yaşasın, bütünlüklə özünə hopdursun.







Yəni indiki məqamda Nəzakət xanım həyatındakı ağrıları, sözə çevirdiyi kədəri daha çox öz içində, öz dünyasında yaşayır. Onu sadəcə olaraq oxucuya rəssam kimi göstərir, tanıdır, amma oxucu ilə bölüşmür. Bunu da ona görə edir ki, o, təbəssümünü bölüşür, sevincini bölüşür, ağrısını yox, acısını yox, kədərini yox.

Kitabdakı ilk şeirləri oxuyuram. Bu şeirlərdə yaşadığımız Zəfərin həm mənzərəsi, həm də havası var. Sanki insan o hava ilə, o mənzərə ilə qanadlanır. Çünki "Qarabağa bahar gəlir, ilahi!":

***Sevincə bax bulaqların gözündə,***
***Qəlbi gülür dərənin də, düzün də.***
***Şəhid qanı çiçəkləyir üzündə,***
***Qarabağa bahar gəlir, ilahi!***

***Ötən çağlar indi üzübəridi,***
***Gələn günlər ömrün təzə-təridi,***
***Otuz illik yurd həsrəti əridi,***
***Qarabağa bahar gəlir, ilahi!***

***Dalğalanır arzuların bayrağı,***
***Hər təbəssüm bir ümidin yarpağı,***
***Zəfər ətri bürüyübdür torpağı,***
***Qarabağa bahar gəlir, ilahi!***

***Qulac-qulac açılıbdır qucaqlar,***
***Əl eləyir sevinc dolu o çağlar,***
***Alov-alov gülümsəyir ocaqlar,***
***Qarabağa bahar gəlir, ilahi!***

***Zəmilərdə daraqlanır sünbülün,***
***Ocağında ruhu gülür Bülbülün,***
***Cıdır düzü indi xarıbülbülün,***
***Qarabağa bahar gəlir, ilahi!***

***Ürəklərdə ümid naxış toxuyur,***
***Ellər zəfər nəğməsini oxuyur,***
***İndi vətən Şuşa ətri qoxuyur,***
***Qarabağa bahar gəlir, ilahi!***

***Gəlsin bahar, gülsün bahar elimdə,***
***Xudayarın nəğməsi var könlümdə,***
***Nəzakətəm, min alqış var dilimdə,***
***Qarabağa bahar gəlir, ilahi!***

Bu şeir mənə görə, Vətən üçün, torpaq üçün, bir övladın, bir vətəndaşın, indiki məqamda bir xanım yazarın duasıdı. Sevinc duası, şadlıq, şadyanalıq duası, bütövlük duası, xatırlamaq və minnətdar olmaq duasıdı!. Düşünə bilərsiniz ki, dünyanın hər yerinə, o cümlədən işğal zamanında Qarabağa da bahar gəlirdi. Amma o bizim bahar olmayıb. Biz o baharı yaşamamışıq, onun gəlişinə sevinməmişik. Nəzakət xanımın vurğuladığı bahardı, bizim bahar. Onu şəhidlərimiz, onu əsgərlərimiz, onu, o savaşı Zəfərə çevirən insanlarımız bizim üçün gətirib!

Məhz həmin gözlədiyimiz bahardı Qarabağa gələn və bizi sevindirən! Bu yerdə mən "xiffət" məqamına da qayıdıram. Bu sevinc bizim çəkdiyimiz xiffəti gözümüzün önündən çəkib uzaqlara aparır. Deməli, köhnəlməyən xiffətin izi burada da görünür.

Oxuduğum kitabda diqqətimi çəkən bir məqamı xüsusi qeyd etməliyəm. O da Nəzakət xanımın ordumuza, həm də ordumuzun timsalına, onun zabitlərindən biri olan, savaş meydanında sözünü deyən oğlu Ramil bəyə üz tutaraq yazdığı şeirlərdir. Ordumuzun zabiti olan Ramil bəyin timsalında müəllif bütün əsgər və zabitlərimizə öz sevgisini, öz duasını yönəldir, onları haqq etdikləri uca mərtəbədə hər zaman var olmağı Allahdan diləyir. Məsələn, şeirlərinin birində müəllif yazır:

***Açıb qucağını sənə Qarabağ,***
***Öpür qədəmini hər dərə, hər dağ.***
***Qələbə ətrinə bələnib torpaq,***
***Zəfərin mübarək, komandir oğlum!***

*və yaxud :*

***Qeyrət ətirlidir adın, ünvanın,***
***"Cəngi"yə köklənib damarda qanın.***
***Əmrindən güc aldın Baş Komandanın,***
***Zəfərin mübarək, komandir oğlum!***

Yəqin ki, müəyyən hissələrini siz də oxuduğunuz bu şeirdəki əhval-ruhiyyə, ovqat, inam və güvən sizə də öz təsirini göstərdi. Birmənalı olaraq hamımız bildik ki, bu ordunun sıravisindən zabitinə qədər, əsgərindən Ali Baş Komandanına qədər hər kəs qəhrəmandır, hər kəs Qarabağda və torpaqlarımızın işğaldan azad edilməsində halal haqqı olan ƏRƏNDİR! Onları yalnız vəsf etmək və bir də haqlarına sayqı ilə yanaşmaq isə bizim borcumuzdur. Bu cür oğullarla bütün dərdlərə, bütün problemlərə sinə gərmək və qalib çıxmaq mümkündür.

Mən dərd məsələsini ona görə təkrar diqqətə çəkirəm ki, kitabda müəllifin özəl həyatı ilə, yaşadığı itkilərlə, qarşılaşdığı problemlərlə, üzləşdiyi ağrı-acılarla bağlı xeyli şeirlər var. Həmin şeirlərdə anaya, ataya, sevdiklərinə, doğmalarına aid olan hissləri Nəzakət xanım öz şair qələmi ilə fərdilikdən çıxarıb, onun hamımızın, yaşadıqlarımızın bir hissəsinə çeviribdir. Ona görə də o atasına, anasına üz tutub pıçıldadıqlarını mən də öz pıçıltılarım kimi eşidirəm:

***Qürurum. Vüqarım, həm güvənc yerim,***
***Əlçatmaz zirvəsən, bir qarlı dağsan.***
***Sən mənim ən ali həyat məktəbim,***
***Ata, ölməmisən, qəlbimdə sağsan.***

***Qulaqda sırğadı, ürəkdə səsdi,***
***Sözlərin yaddaşa hördüklərimdən.***
***Bu ömür yolunda sənsən bələdçim,***
***Yükümü tutmuşam gördüklərimdən.***

Və ya:

***İsti nəfəsinmiş həyatım, anam,***
***Sənsiz keçən illər boşdur, hədərdir.***
***Bəxtəvər olmuşam səninlə, anam,***
***Yoxluğun əzabdı, bitməz kədərdir.***

***Gör neçə vaxtdı ki, həsrət qoymusan,***
***Səsinə, sözünə, özünə anam.***
***Torpağın qoymayır bircə yol baxam,***
***Ay kimi nurlanan üzünə, anam.***

Bəli, bu şeirlərin hər biri müəllifin özəl duyğularıdı. Amma hisslər o qədər doğmadı ki, oxucu onun özünün qanına, canına, ruhuna hopdurur. Çünki biz də kiminsə övladıyıq, kiminsə bir parçasıyıq. Demək ata, ana, qardaş, bacı, doğmalar anılanda o hisslər paylaşılır. Sadəcə müəllif peşəkarlığı yazının əvvəlində vurğuladığım məqamı önə çəkir. Kitabın redaktoru Rəfael Tağızadənin dediyi kimi, bu xiffətlər təbəssümə bürünüb.

Kitabdakı müxtəlif mövzulu şeirlərin ana xətti səmimiyyət və bir də gerçək duyğulardı.

O duyğular ki, müəllif onu ruhunun köynəyindən keçirib və hətta bunu şeirlərində də oxucuya çatdırıb. Necə deyərlər, ismarıc edib. İstər təbiətdən, istər sevgidən, istərsə də dostlardan, yəni ünvanlı şeirlərdən fərq etməz.

Bir mənalı olaraq bütün mövzuların oxucunu özünə çəkən, səsləyən çağırışı, işığı və hətta həniri belə səmimiyyət və yaşamdı. Bax, elə onun dördlüklərində də bunu görmək mümkündü. Söylədiklərimin gerçək olduğunu bu misralar özü sizə pıçıldaya bilər:

***Bu dünya bir imtahandı, sınaqdı,***
***Çoxu bilmir nə doğru, nə nahaqdı.***
***Bir inamla yaşayıram dünyada,***
***Bir inam var - O doğrudur. O haqdı...***

**Bəli, mən Nəzakət xanımın kitabı barəsində qələmə aldığım bu kiçik yazıda onunla sevincimi bölmək və həm də onun öz təbəssümünü bizimlə kədər arasında necə pərdə etdiyini dilə gətirmək istədim. Çünki bunu hər yazar bacarmır. Uğurlar olsun özünüzə də, kitabınıza da Nəzakət xanım!**

## *Sözlə Ucalan Bir İmperiyanın Gizli Qəhrəmanı: Şeyx Ədəbalı*

**"Bir dövlətin kökləri yalnız qılıncla yox, hikmətlə də atılır..."**

Əgər bir dövlət min illərlə ayaqda qalıbsa, onun yalnız güclü ordusu və ağıllı sərkərdələri deyil, həm də dərin düşüncəyə sahib mənəvi rəhbərləri olmuşdur. Osmanlı imperiyası bu baxımdan istisna deyil. Onun mənəvi banilərindən biri, bəlkə də birincisi - Şeyx Ədəbalıdır.



Şeyx Ədəbali XIII əsrin sonları ilə XIV əsrin əvvəllərində yaşamış, Anadolu torpaqlarında tanınmış bir din alimi və sufi mürşidi idi. Əslən Karaman bölgəsindən olduğu qeyd olunur.

O, qılıncın yol açdığı torpaqlarda könüllərə yol salan, bir dövlətin ruhunu yoğuran və insanı mərkəzə qoyan düşüncənin sahibi idi. Bu gün belə onun sözləri tarix kitablarından çıxıb ürəklərdə yaşayır.

### *Bir alim, bir sufi, bir ata...*

Şeyx Edebali haqqında düşünərkən onu təkcə dini şəxsiyyət kimi görmək, böyük bir gerçəyi görməmək deməkdir. O, xalqla iç-içə yaşayan, dərd dinləyən, nəsihət edən, gələcəyi görən bir fikir öndəri idi.

Əsl adı Ədəbalı bin İsmail olan bu böyük şəxsiyyət, təhsilini Şam və Hələb kimi elmi mərkəzlərdə almış, Anadoluya qayıdaraq İtburnu (indiki Bilecik) bölgəsində bir zaviyə qurmuşdu. Bu zaviyə sonradan yalnız bir ibadət məkanı deyil, həm də düşüncə mərkəzinə çevrildi.

Ədəbalının adı, ən çox Osman Qazi ilə bağlı olaraq xatırlanır. O hələ gənc yaşlarında Şeyx Ədəbalınən dərgahına gəlib-gedər, ondan elm öyrənərdi. O dərgahda yalnız dini dərs deyil, həyat dərsi də alırdı. Bir gecə Osman Qazi orada qaldığı zaman bir yuxu görür - onun qoynundan bir ay doğur, o ay bir ağac olur, budaqları dörd bir yana yayılır...

Bu yuxunu dinləyən Ədəbalı təbəssümlə belə deyir: "Oğul, sən böyük bir dövlətin təməlini atacaqsan. Amma unutma, ağacın kökü torpaqdadır. O torpaq - insanın könlüdür." Bu yalnız bir yuxu yozumu deyil, eyni zamanda bir dövləti insan sevgisi üzərində qurulması gərəkdiyinin vəsiyyəti idi.

Şeyx Ədəbalının Osman Qaziyə etdiyi nəsihətlər tarixdə dərin və mənalı idarəçilik prinsipləri arasında yer almaqdadır. Onun "İnsanı yaşat ki, dövlət yaşasın!" kəlamı sadəcə bir cümlə deyil - dövlət idarəçiliyinin fəlsəfəsidir.

**Fikrət Əkbərli**

## Dünyanı heyrətləndirən müəmmalı El Ojo adası: UNO-lar tikib?

**Planetimizdə hələ də naməlum möcüzələr var və onlardan biri Argentinadakı El Ojo adasıdır. İspan dilində "göz" mənasını verən El Ojo özünəməxsus forması və hərəkətli quruluşu ilə bir çox insanın diqqətini çəkir.**

Adalet.az xəbər verir ki, Argentinanın Buenos-Ayres



əyalətindəki Parana Deltasında yerləşən 120 metr hündürlüyündəki El Ojo, sanki kompaslarla çəkilmiş kimi mükəmməl forması ilə görən hər kəsi heyran edir. Çünki ada öz oxu ətrafında daim saat əqrəbi istiqamətində hərəkət edir. Əfsanələrin mövzusu olan ada yuxarıdan baxanda nəhəng bir gözü xatırladır. Ada 2003-cü ildən mövcud olsa da, vaxt və necə yarandığını heç kim bilmir. Amma ada yalnız 2016-cı ildə argentinalı kinorejissor Sergio Neuspiller tərəfindən Google Earth vasitəsilə kəşf edilib. Türkiyə, ABŞ, Sinqapur və bir çox başqa ölkələrdə hərəkət edən və ya üzən adalara rast gəlmək mümkündür. Ancaq adanın öz oxu ətrafında fırlanması misli görünməmiş bir hadisə olduğu üçün bütün diqqətləri cəlb edir. El Ojo-nun öz oxu ətrafında fırlanmasının səbəbi məlum deyil, lakin alimlər bunu cərəyanla əlaqələndirirlər.

El Ojo izah olunmayan xüsusiyyətlərinə görə paranormal hadisələrlə də əlaqələndirilir. Hətta bu adanı yadplanetlilərin tikdiyi önə sürülür.

**Əntiqə Rəşid**

## Ukrayna ilə danışıqlar iflasa uğrayır?

**Sergey Lavrov Rusiyanın güzəştə getməyə hazır olduğunu bildirib**

Rusiyanın xarici işlər naziri Sergey Lavrov, amerikanın CBS telekanalına müsahibəsində jurnalist Marqaret Brennanın Ukrayna münaqişəsinin həlli ilə bağlı "Rusiya-ABŞ danışıqlarının uğursuzluğa uğradımı" sualına, pessimiscə cavab verərək bildirib ki, "danışıqlar davam edir".

**Lavrov, Trampın raket zərbələriin endirilməsini dayandırmaq təklifinə baxmayaraq, bu günlərdə paytaxt Kiyevə olduğu kimi, başqa yerlərə də raket zərbələri endirilməsinin davam etdiriləcəyini bildirib. Sergey Lavrov Ukrayna məsələsiylə bağlı ABŞ-la aparılan danışıqlarda güzəştə getməyə hazır olduqlarını bildirib. Lakin bu güzəştlərin nədən ibarət ola biləcəyi barədə açıqlana verməyib.**

**Rüstəm Hacıyev**

**Esmira İsmayılova**
**Filologiya üzrə fəlsəfə doktoru**



# "Segah" üstdə yazılan ağı

**Aqil Abbas "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına..." niyə badə qaldırır, yazıçını "Segah" üstə ağladan nədir?**

Yazıçı-publisist, millət vəkili Aqil Abbasın Qarabağ mövzusunda qələmə aldığı "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına..." povesti yazıçının son illərdə yazdığı ən maraqlı, ədəbiyyatımızda mübahisə-müzakirə doğuran əsərlərdən biridir. Povest ilk oxunuşda bədii əsərdən daha çox, iki yaxın tanışın ərkyana zarafatını, çəpərüstü söhbətini xatırladır. Əsərin bədii, poetik üslubda yox, danışıq tərzində, həm də Ağdam şivəsində yazılması, jarqon ifadələrə geniş yer verilməsi, ərkyana zarafatların bolluğu oxucu bir yana, hətta peşəkar tənqidçini belə çaşdırır, əsərin təhlili ilə bağlı fikirlərinə düyün salır. Nədən, necə başlamaq, əsərin baş qəhrəmanlarına münasibət bildirmək, povestin ideya, məzmun, bədii xüsusiyyətlərini dəyərləndirmək, tərbiyəvi mahiyyəti barədə söz demək böyük məsuliyyət tələb edir.

Oxucu sual edə bilər: Aqil Abbas Qarabağ mövzusunda yazdığı sənədli povestini niyə məişət danışıq uslubunda yazıb, əsərində Ağdam şivəsinə üstünlük verməkdə məqsədi, məramı nə olub? Açığı, mənə elə gəlir ki, niyəsini heç yazıçının özü də düz-əməlli bilmir. Fikrimcə, Aqil Abbas illərdir içini yandıran, donduran, qəlbinə yük olan xatirələrindən birmərrə qurtulmaq istəyib, bu istəyini sətirlərə boşaldıb və sonda həm uslub, həm dil, həm də mövzunun işlənməsi baxımından yeni, orijinal povestini ərsəyə gətirə bilib. Tənqidçi kimi yox, oxucu kimi deyirəm-Aqil Abbas istəyinə nail ola bilib!

Povestdə ədəbi dil normaları, janr, mövzu qəlibi,tələbi, tənqidçilərin nə deyəcəkləri yazıçının "umurunda" olmadığından nə düşünübsə, elə o cür də yazıb Aqil Abbas. Eşitdiklərini, şahid olduqlarını qəlibə salmadan oxucuya olduğu kimi, tam təbiiliyi ilə təqdim etməyi, yazıçı səmimiyyətini daha məsləhətli bilib və belə də edib. Hər nə isə, görünən budur ki, yazıçı oxunaqlı bir əsər ortaya qoymağı bacarıb. Povesti 70 yaşı adlamış yazıçının özünə hesabatı, keçmişi ilə dərdləşməsi kimi də qəbul etmək olar. Aqil Abbas illərdir onu üzən, narahat edən, yaxınlarına belə açmağa ürək etmədiklərini varaqlara tökəb. Ötən XX əsrin 90-cı və hazırkı XXI əsrin ilk 20 illiyində baş verənləri olduğu kimi əks etdirmək millət vəkilinə hansı başağrılar gətirib-bu, ayrı söhbətin mövzusudur(Fikrimcə bunsuz olmaz). Yəqin ki, Aqil Abbas bu barədə də nə vaxtsa yazacaq.

Diqqət etmisinizmi? Nə sirdirsə, son vaxtlar yazıçının qələmə aldıqlarının hamısı kövrək notdadır, xatirə motivinə köklənib, vida nəğməsi kimi həzindir. Ömrün payız dönəmində yazıçının bədii yaradıcılığındakı bu lirik ovqatı Aqil Abbasın yaradana şükranlığı, üzrxahlığıdır bəlkə də.

Qeyd edək ki, Qarabağ mövzusu son onilliklərdə ədəbiyyatımızın baş mövzusuna çevrilməkdədir. Bu mövzuda yazan nasirlərimiz, şairlərimiz, uğurlu əsərlərimiz az deyil. Elə Aqil Abbasın "Dolu"su nəyə desən dəyər. Amma, yazıçının Abdal-Gülablı Şakirin xatirəsinə həsr etdiyi son sənədli povestini Aqil Abbas digər əsərlərindən daha çox sevir, dəyərli sayır- qənaətindəyəm. Niyəsini müəllifin oxucularına bu əsərini mütaliə etmək tövsiyəsində axtarmaq lazımdır.

Povestə seçdiyi qəribə, həm də deyərdim ki, bir az da qəliz adla bağlı müəllifdən nəsə soruşmağa ehtiyac yoxdur. Əsərdəki alim obrazının dili ilə müəllif bu məsələyə belə açıqlıq gətirir: "Su qırağında bitib susuz qalan ağaclar! Dəniz qırağında bitib o dənizin balıqlarına həsrət qalan ağaclar. Nöyütün ortasında bitib nöyütsüz qalan ağaclar. Bir milyon ton pambıq verib kəfənsiz qalan ağaclar. Dünyaya elm bəxş edib özü bu elmdən kənar qalan ağaclar... Sayım, bəsinizdi? Çay kənarında bitib susuz



qalan bu millətdi də". Sağlığın açıqlaması əsərin ideyasının, bədii məzmununun, yazıçının məqsədinin açıqlamasıdr həm də.

İllərdir davam edən, iki qonşu millət üz-üzə qoyan, minlərin ölümünə, qaçqınlığına səbəb olan Qarabağ münaqişəsi kimlərə lazım idi, onu kimlər törətdi, nə məqsədlə etdi, münaqişənin kökündə nələr dayanır, ziyana uğrayanlar kimlər oldu? Aqil Abbas erməni Surenin oğlunun dili ilə povestində bu sualların cavabını verməyə çalışıb: "Şakir əmi, Həzrət Abbas haqqı, bayeviklər gələndən dədəm evdən çölə çıxmır. İspanakertdəki əmim olmasaydı dədəmi çoxdan güllələyərdilər. Mən də çıxmışdım heyvanların dalınca, sizinkilərə rast gəldim, tutub gətirdilər. Onu güllələdilər. Heç demə o biri kolxoz sədrlərinə də qoşulub sizin hökumətə məktub yazıblarmış ki, gəlin bizi bayeviklərin əlindən alın. O məktub da hardansa ötürülüb bayeviklərə, onlar da məktuba qol çəkənlərin hamısını bir-bir tapıb güllələyiblər".

Yazıçı Aqil Abbasın Abdal-Gülablı Şakiri əsərinin baş qəhrəmanına çevirməsi, adi bir qarmonçunu bədii obraz səviyyəsinə qaldırması heç də təsadüfi deyil. Ona görə ki, ən ağrılı anında belə bu insan şərəf və ləyaqətini itirmir, kəsdiyi duz-çörəyə qiymət qoyur, dosta xəyanəti binamusluq sayır:

**- Bunu buraxın getsin.**

**- Niyə?**

**- Buraxın getsin. Bu, o ermənilərdən deyil. Oğraşın dədəsiylə də bir ton çörək kəsmişiy. Toyunu da Rəmişlə mən eləmişəm. Get, ə, get evinizə. O dədən oğraşa da deyənən ki, adam kişi olar, çörək yediyi qaba tüpürməz. Dənən elə eləməsin ki, gəlif onu özüm öldürüm".**

Bu yerdə Viktor Hüqonun yaradıcılığının son ədəbi akkordu sayılan məşhur "Doxsan üçüncü il" romanını, onun qəhrəmanı Markiz de Lantenakı xatırladım. Əsərdə Viktor Hüqonun qəhrəmanının dili ilə dediyi o həqiqəti ki, həyatda hər şey mümkündür, insan bəzən siyasi düşmənlərinə belə aman verə bilir!

Müharibənin gətirdiyi ağrı-acılar, kasıbçılıq, köçkünlük dərdi çox şeylərin üstündən qələm çəkib, insanları maddi-mənəvi cəhətdən çox əskiltsə də, onların ürəklərindəki ümid işığını söndürə, insaniyyətini öldürə bilməyib. Abdal-Gülablı Şakiri oxucuya sevdirən də içini işıqlandıran, onu heç vaxt tərk etməyən ilahi nurdur, işıqdır: "Yasamal qəbiristanlığına çatanda, yadına Xudu Məmmədov düşdü. Bakıda elə də çox olmamışdı, bir əsgərliyə gedəndə, bir də qayıdanda şəhərdə iki-üç gün qalıb azadlığın kefini çıxarmışdı, bir də Xudu Məmmədov rəhmətə gedəndə gəlmişdi onun dəfninə. Ürəyində dedi ki, bir də nə vaxt yolum buralara düşəcək, girim Xudu Məmmədovu bir ziyarət edim, bir "Yasin" oxutdurum ruhu şad olsun".

Aqil Abbasın Azərbaycan reallığının əksi olan sənədli povestində xalqın öz sənətkarlarına olan sevgisi, hörməti gözəl əks etdirilib. Xalqın Rəmişə, Abdal-Gülablı Şakirə olan hörməti təkcə tanınmış gitara, qarmon ifaçısına olan dəyər deyil, milli musiqimizə, milli dəyərlərimizə verilən qiymət kimi başa düşülməlidir. Aqil Abbasın təsvirində musiqi özü də bir obrazdır, düşmənə olan kini, nifrəti, baş verənlərin ağrısını, qaçqınlığı, köçkünlük dərdini, yurd itkisini, yağı tapdağında qalan məzarlardakı itkin ruhların harayını "Segah"dan yaxşı kim anlada bilər ki? Və çaldığı "Segah" bu ağrıları içindən keçirən Şakirin ahıdır, naləsidir, xəcalətidir, içini yandıran utanc hissidir: "Segah" çalmırdı, yanan evini çalırdı, gülllədən partlaya-partlaya ölən Qurdbasarını çalırdı, deşik-deşik olmuş maşınını çalırdı, od tutmuş kəndini çalırdı. Və gözlərindən də yaş axırdı. Elə başına toplaşan adamların da gözlərindən yaş gəlirdi. Onlar da yanan evlərini görürdülər, yanan məktəblərini görürdülər, erməni gülləsindən qaçan camaatın vayşivən səsini eşidirdilər".

Yazının əvvəlində qeyd etmişdim, bir daha xatırladım ki, əsərdəki hadisələrin baş verdiyi zaman kəsiyində ölkədə baş verən neqativ hallar, rüşvətxorluq, qaçqınlara yardım kimi ayrılan cüzi vəsaitə də şərik çıxanların olması, köçkünlərin ağır maddi şəraitdə yaşaması, onların bu vəziyyətindən faydalananları Aqil Abbas povestində kəskin tənqid edir, qəhrəmanının dili ilə bu şəxsləri tutduqları mövqedən, vəzifədən asılı olmayaraq yıxıb-sürüyür: "Cənab başçı deyir ki, istəyir onu qoyaq yataqxanaya qaçqınların nümayəndəsi, çörəkpulunu da o paylasın. Hər qaçqının çörəkpulundan da bir məmməd tutsan dədənə də bəsdi.

Şakirin onsuz da qara olan rəngi bir az da qaraldı. Yerindən qalxdı, yapışdı gələnlərin birinin qalstukundan:

**- Ə, qurumsax, durun basın bayıra. Camahat gözünü o çörəypuluna tikif. İndi mən, Şakir, Avdal-Gülablı Şakir, qarmonçalan Şakir camahatın çörəypulundan oğurruyum? Gedin o cənabdı-nədi,nəyin başıdı, ona deyin ki, onun verdiyi iş təpəsinə dəysin. Bu yataxxanalardakılar gözünü dikif çörəhpuluna. Onların çörəhpulusu ilan sümüyüdü, adamın boğazında qalar. Amma sizlərin nətəər boğazında qalmır, Allah bunu nətəər götürür başa düşmürəm".**

Qarmonçalan Şakirin bildiyi bir həqiqət var: Nə qədər ki, yurdu düşmən tapdağındadır, özünü kişi hesab etməyə haqqı yoxdur. Toylara getməyi özünə yasaq edən Şakirin yorğan döşəyinə də pal-paltarlı uzanması çox mətləblərin açıqlamasıdır. Elə onun Lökbatandan baş götürüb Ağdamın hələ azadlıqda qalan Quzanlı qəsəbəsinə dönüş qərarını verməsi, getməmişdən əvvəl qaçqın həmkəndlilərinin nisyə borclarını ödəməsi, nisyə dəftərini cırıb atması göstərir ki, insanı öldürmək olar, şərəfini sındırmaq yox: "Market Vəliş gedib nisyə dəftərini gətirdi. Şakir nisyə dəftərini aldı, heç açıb baxmadı. Cırıqlayıb tökdü yerə. Market Vəlişin gözü çıxdı kəlləsinə. Domino oynayanlar da təəccüblə Şakirə baxdılar".

Ağdama qayıtdıqdan sonra Şakirin ilk işi erməni iyi verən maşından qurtulmaq olur: "Təpənin yaxınlığındakı Hüseyn bulağında düşüb əl-üzlərini yudular, sonra da Şakir bakdan bir vedrə benzin çəkdi, tökdü maşının üstünə, içinə. Arvad-uşağa dedi bir kənarda durun, cibindən kibrit çıxarıb yandırdı və atdı maşının üstünə".

Erməni Surenin maşınını yandırmaqla Şakir onu narahat edən iydən qurtulsa da, ruhən narahatdır. Ona görə ki: "Qarabağdan hələ Erməni İyi gəlirdi. Bu iyi Qarabağdan yuyacaq oğlanlar hələ orta məktəbdə qız üstə dalaşırdılar, çoxu hələ doğulmamışdı, analarının qarnındakı müqəddəs zülmətdə mışıl-mışıl uyuyurdular. Bəziləri isə hələ təzəcə doğulmuşdular, analarının döşlərindən Vətən əmirdilər. Gün gələcəkdi məktəbdə qız üstə dalaşan oğlanlar heç üstündə dalaşdıqları qızları öpməmiş əsgər paltarı geyəcəkdilər, analarının müqəddəs bətnində mışıl-mışıl yatan balalar doğulacaqdı, özlərindən əvvəl doğulanlar kimi analarının döşündən Vətən əməcəkdilər, sonra da böyüyüb kişi olacaqdılar və gedəcəkdilər Qarabağdan Erməni İyini təmizləməyə".

Amma bu gedən oğullar heç vaxt ermənilər kimi qansız olmayacaqdılar. Yazıçının əsər boyu gəldiyi qənaət belədir və öz xalqının ədalətinə, insanpərvərliyinə olan etimaddan doğur: "Gün gələcəkdi Şakirin övladları da, Müşfiq Abbasovun oğlanları ilə birgə Böyük Vətən Müharibəsində Şuşayacan gedəcəkdilər. Kəndlərinin də, bütün şəhidlərin də qisasını alacaqdılar, amma heç kəsin başını kəsməyəcəkdilər. Çünki ermənilər kimi faşist deyildilər".

**Bilirsiniz əsərdə mənə ən xoş gələn cəhət nədir? Aqil Abbasın Vətən anlamı, Ağdam sevgisi: "Dünyada Ağdamnan böyüh şəhər yoxdu. Heç dünyada Ağdamnan gözəl şəhər də yoxdu". "Hardan başlanır Vətən? Bu məşhur suala bundan tutarlı cavab varmı-məncə yox!**



Qərənfil Dünyamin qızı,
Əməkdar jurnalist

# Maarif, təhsil, məktəb fədaisi

**Görkəmli yazar Yucin Simonis yazırdı ki, "Yüksəyə qalxmaq istəyirsənsə, lap aşağıdan başlamalısan. Sadə, zəhmətkeş bir ailədə dünyaya gələn Hasil Əliyevin həyat yoluna nəzər salarkən bir daha bunun şahidi oldum.**

Onun haqqında ilk dəfə Azərbaycan mühacirət mətbuatının görkəmli tədqiqatçısı, bu mövzuda onlarla sanballı əsərlərin müəllifi olan, söz aləmində öz dəsti-xətti, üslubu ilə tanınan, sözü-imzası ilə seçilən, sevilən, yazar Abid Tahirlidən eşitdim. Ürək dolusu danışdı və sonda "Hasil müəllim maarif, təhsil, məktəb fədaisi idi" sözlərini xüsusi vurğuladı. Elə diqqətimi daha çox cəlb edən də bu sözlər oldu.

Az qala hər şeyin alınıb satıldığı bir dünyada bütün ömrünü, günün təhsilə, maarifə onun inkişafına fəda edən insanlar nə yaxış ki var.

Yəqin ki, oxucum üçün də maraqlıdır kim idi bu maarif, təhsil fədaisi?

Hasil Qulammirzə oğlu Əliyev dünyaya göz açanda Azərbaycanda sovet hökumətinin dəhşətli repressiyası tüğyan edirdi. Ölkənin elit təbəqəsinə qənim kəsilən Sovet rus hökuməti unudurdu ki, bu xalqın təhsilli, ziyalı övladları bitib-tükənməzdir.

Hasil 1935-ci ilin 9-mayında Azərbaycanın dilbər güşələrindən biri olan Lənkəranda, Qulammirzə kişinin ailəsində dünyaya göz açıb. Yaşıdlarının əksəriyyəti kimi o da ilk təhsilini Lənkəran şəhəri 3-saylı məktəbdə alıb. Amma yaşıdlarının çoxundan fərqli olaraq bu təhsillə kifayətlənməyib, daha yaxşı, mükəmməl təhsil əldə etmək üçün üz tutur Bakıya. 1954-cü ildə M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutuna daxil olur. Hasil təhsil illərində yalnız yaxşı oxumağı ilə deyil, həm də ictimai işlərdə yaxından köməklik etməyi, istər müəllim, istər tələbə kollektivi arasında xoş rəftarı, mehribanlığı və cəldliyi ilə böyük hörmət qazanır. 1959-cu ildə İnstitutda təhsilini uğurla başa vuran Hasili təyinatla Lənkəran Pedaqoji Texnikumuna müəllim göndərilir.

Gənc müəllimin zəhmətkeşliyi, fədakarlığı gələcək həyat və faliyyət yoluna işıq saldı və xoşbəxtlikdən Tanrı qarşısına o zəhməti duyan, qiymətləndirən insanlar çıxardı. Onu texnikomda "profkom" seçdilər. Hasil yenədə tədrislə yanaşı, ictimai işlərdə ön sırada oldu. Təbii bu həm texnikomun rəhbərliyinin, həm də oraya tez-tez gələn Respublikanın görkəmli pedaqoqlarının, rəhbər işçilərinin diqqətindən yayınmadı.

1963-cü ildə texnikomda geniş tədbir kecirilir. Tədbirdə Maarif Ali Məktəb və Elmi İdarə İşmiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin sədri Rəfiqə Hüseynova da iştirak edirdi. Gənc Hasilin tədbir boyu cəldliyi, tədbirdəki çıxışı Rəfiqə xanımın diqqətindən yayınmır. Bu tədbirdən bir neçə ay sonra Hasil Rəfiqə xanımın məsləhəti ilə Həmkarlar İttifaqının Respublika Komitəsində şöbə müdiri vəzifəsinə təyin edilir. Etimadı doğruldan gənc pedaqoq 1966-cı ildə Maarif Nazirliyinə dəvət alır.

Gənc mütəxəssisin Nazirlikdə yalnız sənədlərlə işləmək səriştəsi diqqəti cəlb etmir. O, həm də təcrübəli, püxtələşmiş kadr kimi təkliflər irəli sürür, dəyərli məsləhətlər verir. Hasil müəllim 1966-72-ci illərdə Maarif Nazirliyin də uşaqların estetik tərbiyəsi respublika metodkabinetinin direktoru vəzifəsində çalışır. O, bu zaman tez-tez bölkələrə səfər edir, çox çətin də olsa qismən təlim-tərbiyənin milli zəmində qurulmasına nail olur. İmperiya quruluşunun sərt tələblərinə uyğun olaraq pedaqoji işin yalnız kəmiyyət göstəricisinə görə qiymətləndirilməsinin əlehinə çıxır. Rəhbər işçilərlə görüşləri zamanı təhsilimizin məzmununda qismində olsa dəyişikliklər edilməsini, pedaqoji əməyin qiymətləndirilməsini, yerli təhsil orqanlarının səlahiyyətlərinin artırılmasını və s. bu kimi söylədiyi dəyərli təkliflər, çoxlarının olmasa da, bəzilərinin ürəyincə olur.

Belə səfərləri arasında Lənkəran şəhəri 3 saylı məktəbi daha tez-tez ziyyarət edir, problemləri ilə yaxından tanış olur, kollektivə hər zaman dəstək göstərirdi. Hasil müəllim bununla sanki bir



məzun kimi borcünü yerinə yetirmək istəyirdi. Onu elmə, maarifə aparan ilk ocağı o, heç vaxt unutmurdu. Bu işə sinif yoldaşlarını da cəlb edərdi. Onlar hər yay bu müqqədəs ocaqda görüşərdilər.

İstər bölkələrdə, istər mərkəzdə təhsillə bağlı çıxışları, təklifləri hər zaman maraqlı və cəlb edici olurdu. Belə tədbirlərdən biri də Bakıda Maarif Nazirliyində oldu.

Onun söylədikləri Nazir Mehdi Mehdizadənin də xoşuna gəlir və 1972-ci ilin ortalarında Hasil Maarif Naziri Mehdi Mehdizadənin müsbət xasiyyətnaməsi ilə Nazirlər Sovetinə (indiki Nazirlər Kabinetinə) işə aparılır. Beləliklə H.Əliyev 1972-2010-cu illər ərzində Nazirlər Kabinetinin Aparatı tərəfindən hökumətin təhsil sahəsində qərar və sərəncamların tərtibi və icrası istiqamətində aidiyyəti üzrə 40 ilə yaxın bir müddət əszində fəaliyyət göstərmiş, eyni zamanda, nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri üzrə Dövlət Komissiyasının məsul katibi olmuşdur.

H.Əliyev bu illər ərzində təhsil sahəsi ilə bağlı mütamadi olaraq dövrü mətbuatda çıxış etmiş, müntəzəm olaraq "Azərbaycan müəllimi" qəzetinə müsahibələr vermişdir. Bu çıxış və müsahibələrində təhsillə bağlı problemlərin aradan qaldırılması yollarını göstərmiş, sahənin mütəxəssislərinə, gənc maarifçilərə öz dəyərli tövsiyə və məsləhətlərini vermişdir. O, bununla da kifayətlənmirdi.

Öz təcrübəsini gənc maarifçilərə, pedaqoqlara, rəhbər işçilərə öyrətmək üçün mütamadi olaraq texniki peşə məktəblərində, məktəbəqədər tərbiyə müəssisələrində olurdu. Odur ki, 1970-ci ildən üzü bəri təhsil sistemində hamı Hasil müəllimi tanıyırdı, hörmət edirdi. Hasil müəllim özü bu sahədə zəngin təcrübəyə malik olsa da hər zaman sahənin kadrları ilə məsləhətləşməyə ehtiyac duyurdu. Hətta gənc kadrlarla tez-tez görüşür, onların fikirlərini səbirlə dinləyirdi. Bu faktın özü bir daha sübut edir ki, Hasil müəllim təkəbbürdən, mənəm-mənəmlikdən çox uzaq olub.

O, hər zaman ictimai işlərə də vaxt tapırdı. 1970-ci illərdə Maarif Nazirliyinin təşkilatçılığı ilə gecirilən əksər tədbirlərə rəhbərlik edib. Onlardan biri də 1970-ci ildə Bakıda kecirilən Nəğmə bayramı olub. Görkəmli mədəniyyət xadimi Əfrasiyab Bədəlbəylinin drijorluğu ilə gecirilən tədbir xoş sorağı ilə dillərə düşmüşdür.

Hasil müəllim hər zaman kollektivin sevimlisi olub. Onun haqqında söz düşəndə iş yoldaşları Abid Tahirli, şair Dilsuz, Sevinc Ağacanova xoş təsüratlarla onu anırlar. Bunun üçün Hasil müəllimin ailəsi hər zaman onlara təşəkkürlərini bildirirlər.

Təcrübəli və təsübkeş təhsil, elm, məktəb fədasinin əməyi zaman-zaman xalqımız və dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. "Əmək rəşadətinə görə" medalla, "SSRİ maarif əlaçısı" və "Qabaqcıl maarif xadimi" döş nişanları və s. təltifləri var. Amma özünün də hər zaman dediyi kimi, ən böyük mükafatı xalqının sevgisi, hörməti və gözəl ailəsidir.

Deyilənə görə Hasil müəllim iş zamanı nə qədər ciddi, prinsipal olsa da, təbiətcə çox sakit, sadə, istiqanlı, həssas insan olub. Dostluqda sədaqətli və səxavətli idi.

Bildiyimiz kimi, 1980-cı ilin ortalarından başlayaraq ölkəmizdə bir çox sahələr üzrə, o cümlədən təhsil sistemində də islahatlar aparılmağa başladı. Doğrudur elə bəzi təhsil işçilərinin özləri bu islahatların əlehinə idi. Amma Hasil müəllim kimi təcrübəli, bu sahənin bütün çətinliklərini çözməyi bacaran və həm də daha çox milli-mənəvi dəyərlərə bağlı olan kadrlar çətin də olsa ölkəmizdə prosesi həyata kecirə bildilər.

Ona görə də biz bu gün qürurla deyə bilirik ki, Hasil müəllim 1980-ci illərin təhsil islahatları çərçivəsində məktəb proqramlarının modernləşdirilməsi, təhsil müəssisələrinin yeni formalarla idarə edilməsinin təkmilləşdirilməsi və müasir pedaqoji yanaşmaların tətbiqində aparıcı şəxsiyyətlərdən biri olub.

Aqillərin yazdığına görə "ailə insanlıq tarixinin ilk müəssisəsidir. Nəsillər oradan boy atır, orada böyüyür". Hasil müəllimin də həm öz ailəsi, həm də maarifləndirdiyi yüzlərlə ailə millətinə, torpağına, Vətəninə ləyaqətli vətəndaş olaraq "millətin sinəsində vuran ürək və mənəviyyat qalasıdır".

Bu qalanın möhkəmliyi onun əxlaqı, mənəviyyatı, tərbiyyəsi, təhsilidir... Onun ailə mühitində yaratdığı və formalaşdırdığı zəngin təcrübə bu gün övladlarına, nəvələrinə, nəticələrinə bir mayaq rolunu oynayır.

Hasil müəllim sədaqətli, xeyirxah ömür-gün yoldaşı, qayğıgeş ailə başçısı, mehriban baba və ən əsası xalqımıza başucalığı gətirən bir ziyalı idi. Onun iş dünyası haqqında yetərincə oxucuma məlumat versəm də, təəssüf ki, yaxşı, xeyirxah bir "şəxsiyyət kimi portretini tamamlaya, aça bilmədim".

Hasil müəllim haqqında yazılan məqalələrin birində sonda çox gözəl qeyd edilib ki, "O, maarifimizin, təhsilimizin həm yetirməsi, həm də onun veteranıdır".

**Bu gün də onun xoş əməllərindən bəhs ediləndə hamı onun ruhunu xeyirxahlıqla yad edir. Hasil müəllim 2022-ci ilin fevral ayında haqq dünyasına qovuşub. Amma onun təhsil, təlim sahəsində bizə miras qoyub getdiyi xeyirxah əməlləri, dəyərli tövsiyələri, məsləhətləri hər zaman gənc nəslin yardımcısıdır. Ona görə də belə insanlar amalları və əməlləri ilə hər zaman əbədi yaşardır.**

# "Aşiqliyin işığında"

**Bugünlərdə dəyərli söz adamı, tanınmış şair-publisist, "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələfli ilə görüşdüm. Həmişəki qaydada hal-əhval tutandan sonra yeni yaradıcılıq uğurlarından danışdıq və məlum oldu ki, Əli Rza Xələflinin yeni kitabı, yəni "Aşiqliyin işığında" oxucu dünyasına gəlibdir.**

Təbii ki, dəyərlimiz Əli Rza Xələflini təbrik etməklə işimi qurtarmış hesab etmədim. Onun mənə bağışladığı həmin kitabı qısa bir zaman içərisində gözdən keçirtdim. Kitabı oxuyarkən diqqətimi çəkən ilk məqam müəllifin oxuculara ünvanladığı fikir səcdə, güvənc, inam, sevgi qərar tutur.

Təbii ki, hər kəsin özəl pərəstiş, sevgi ünvanı var və Əli Rza Xələflinin də bu inamı, bu sevgisi həm özəldi, həm də necə deyərlər, saf və gözəldi.

Ona görə də bu kitabın "rəylər, düşüncələr" bölümündə verilmiş yazılarda da xüsusi olaraq həmin sevgi, həmin məhəbbət qeyd olunur və ona müxtəlif prizmalardan münasibət bildirilir. Yenə qeyd etmək istəyirəm ki, elə həmin o münasibətlərin özündə də mayasında məhz Əli Rza Xələfli sevgisinin möhtəşəmliyi hakimdi. Ümumiyyətlə isə birmənalı






oldu. Müəllif qeyd edir ki: "Hərdən məndən soruşurlar: Həzrət Əli aşiqliyin Babək sevgisi üzərinə kölgə salmır ki? Mən də cavab verirəm: Bəşəri insanla, milli-əxlaqi dəyər sahibləri, Vətən şəhidləri heç bir məqamda üzüzə gəlmir, toqquşmurlar.

Onlar əbədi dəyər gücündə həmişə qalibdirlər. Mənim düşüncəmdə Əli İbn Əbu Talib - "Nəhcül bəlağə" müəllifi kimi ağıl, məntiq, söz sərrafının ustadıdır. Şərq fəlsəfi məktəbinin, hikmət aləminin ən qüdrətli bağbanlarından biridir.

Onun söz çəmənzarı zamanlar durduqca ətri, rayihəsi rəngi heç vaxt solmayacaq güllərlə göz oxşayacaq. Əli İbn-Əbu Talib şəxsiyyət etibarı ilə də həqiqət tərəfdarı olub. Özünün və övladlarının timsalında şəhidliyin yenilməzlik məktəbini yaradıb".

Sizə də təqdim etdiyim bu sətirlər artıq məndə kitabın məzmunu barəsində müəyyən bir fikir formalaşdırdı.

Elə həmin o fikirin işığında da müəllifin "Aşiqliyin işığında" (poetik əsərlər) adlandırdığı bu kitabı demək olar ki, həm maraqla, həm də müəyyən mənada öyrənmək anlamında oxudum. Etiraf edim ki, Əli Rza Xələflinin bu aşiqliyi mənim üçün gözlənilməz idi. Ona görə də onun Həzrət Əliyə ünvanlanan misraları içimdə xoş duyğular yaratdı və bu sevginin ötəri olmadığına məni həqiqətən inandırdı. Yeri gəlmişkən onu da əlavə edim ki, bu kitabdakı hər sözün, hər fikrin mayasında, arxasında və bütövlüyündə məhz həmin o sevgi dayanır. Yəni Həzrət Əliyə olan olaraq vurğulamaq yerinə düşər ki, bu kitabda, yeni şair-publisist Əli Rza Xələfli sözünün indiki məqamda bütün təsviri və təqdimi məhz Həzrət Əliyə bir qələm adamının fərdi, həm də bir insanın bütövlükdə aşıb-daşan məhəbbəti sərgilənib.

Əgər həmin söylədiklərimi əyani görmək, tanış olmaq, yaşamaq istəyirsinizsə, mütləq "Aşiqliyin işığında" kitabını arayıb-axtarın. Onda mənim fikirlərimlə siz də razılaşacaqsınız. Son olaraq şairin bu kitabdakı möhtəşəm duyğularının ifadəsi olan "Hələ dünya bilmir ki " qəsidəsindən bir parçasına diqqət yetirək:

*Min illərin təzəsi - təravətsən, ya Əli!*
*Min dürlü haldan keçən təbiətsən, ya Əli!*

*Sənsən idrak sahibi - elmin yolu, qapısı,*
*Sən "Nəhcül-bəlağə"sən, söz, hikmətsən, ya Əli!*

*Nə Allah, nə peyğəmbər, nə hakimsən, nə məhkum,*
*Fəqət Ərşi - Əlaya bir zinətsən, ya Əli!*

*Bir qələmdir, bir kağız - qəlbimə işıq göndər,*
*Güc gəlsin varlığıma - dəyanətsən, ya Əli!*

*Zülfüqar tək qılınc yox, Əlik imi cəngavər,*
*Haqqın hökmü, qanunu, ədalətsən, ya Əli!*

*Əfsanəsən dillərdə, adın zirvə, ucalıq,*
*Əbədi nağıl, dastan, hekayətsən, ya Əli!*

*Hələ dünya bilmir ki, axıracan əzəlsən,*
*Adəmdən Xatəməcən əlamətsən, ya Əli!*

*Hər insan öz dilində oxunsa bir kitabdır,*
*Sən kitablar kitabı - kəramətsən, ya Əli!*

"Gənclik" nəşriyyatında işıq üzü görmüş "Aşiqliyin işığında" kitabına "Xoş gəldin!", müəllifinə isə yeni uğurlar arzu edirəm.

**Əbülfət MƏDƏTOĞLU**

# "Məni bu dağlardan xəbər alarsan", yaxud 80 yaşın cazibəsi

**Tanınmış hüquqşünas, şair-publisist Elbrus Şahmarın 80 yaşı tamam olur. Öncə deyək ki, 80 rəqəminin öz cazibəsi var. Bu rəqəm insan həyatının ölçüsü ilə müqayisədə böyük rəqəmdir. Ölçü vahidi kimi kiçik rəqəm deyil və bu ömrün içərisində həyatın uzaqlarda qalan məqamları, inamın və inadın gücü öz təsdiqini tapır.**

DİN sıravi heyətdən polis- polkovniki rütbəsinə qədər şərəfli bir yol keçən.Elbrus müəllim bu 80 ildənə edib, nə qazanıb, nə itirib? Həyatın mürəkkəb pillələrindən necə keçib? Bu 80 yaşlı kişi geriyə boylananda çoxmu təəssüf hissi keçirir, yaxud əksinə, sifətində təəssüf yox, təbəssüm hissləri sezilir?

Yola saldığı 80 ildə Elbrus müəllimin ürəyi həmişə Azərbaycanla döyünüb, nəbzi bir qayda



olaraq Vətəni ilə vurub. Bir təəssübkeş vətəndaş kimi soydaşlarının yaxşı günlərinə sevinib, bəd günlərində kədərlənib. Nə edibsə haqqı-ədaləti arada görüb.O, özünü tanıyandan bəri doğulduğu yerin qədir-qiymətini bilib, elinin-obasının daşını-kəsəyini, adi qanqal özəyini, tozunu-torpağını, hər saralmış yarpağını da əziz tutub. Çöldə biləyi, eldə çörəyi ilə tanınan, qarnını deyil, adını gözləyən kişilər həmişə özlərinin soyunu-kökünü arayıb axçamışlar.

Bu 80 ildə Elbrus müəllim mənəvi dəyərlərimizə sahib çıxaraq dədə-babalarımızdan bizlərə miras qalan xüsusiyyətləri uca tutub, milli mentalitetimizə həmişə hörmətlə yanaşıb. Xalqımızın ruhunu oxşayanlarla şərik olub. Vətənin müsəlləh əsgəri kimi qanunlarımızın keşiyində mərdliklə dayanıb.

Elbrus Şahmarın 80 yaşının tarixə çevrilən illərini vərəqlədikcə gözümüzün önündə bütün möhtəşəmliyi ilə diqqəti çəkən bir kişi ömrü canlanır. Dəftərçəsinə qeyd etdiyi aforizmlərdən biri belədir: "Yaşamaq-mübarizə aparmaq, mübarizə aparmaqsa-yaşamaqdır".

Elbrus müəllim həm də oxunaqlı, yaddaqalan şeirlərin müəllifidir. 1970-ci ildən mütəmadi olaraq müxtəlif mətbu orqanlarında məqalələri və şeirləri çap olunur. Hazırda 42 kitabın müəllifidir. Şairin ümumilli liderimiz Heydər Əliyevə həsr etdiyi "Xalqın inam simvolu" adlı kitabı şəxsən Ulu Öndərimizin xeyir-duası ilə çap olunub.

Şeirlərindən aydın olur ki, Elbrus müəllim harda olubsa, hansı tədbirlərdə iştirak edibsə doğma Azərbaycanın kiçik portretini ürəyində gəzdirib. Harda gəzib dolanıbsa, yalnız cöz-bəbəyi kimi sevdiyi Azərbaycanı,Azərbaycanınəsrarəngiz gözəlliyini, uca dağlarını düşünüb, Elə ən böyük uğurlarını da Vətənini düşünəndə qazanıb:

*Harda oldum, hara getdim, həmişə,*
*Bu dağları mən daşıdım özümlə*
*Qüdrətindən ilham aldım, güc aldım,*
*Uğurlara imza atdım əzmlə.*

Onun qəlbində millətinə, xalqına, vətəninə qarşı böyük sevgi var.Düşüncə sahibi kimi belə insanlar həmişə sevilirlər. Tanıyanlar Elbrus müəllimi həm alicənab insan, həm də gözəl şair kimi dəyərləndirirlər.

Onun təbiət mövzusunda yazdığı şeirləri maraqla qarşılanır:

*Çox sevmişəm bu dağları əzəldən,*
*Mən qurbanam torpağına, daşına.*
*Vüqarıyla öyünmüşəm, adını.*
*Mən yazmışam ürəyimin başına*

Qubadlının təbiəti, iqlimi burada yaşayan insanların əxlaqına, tərbiyəsinə, elm-sənət adamlarının bədii təfəkkürünün cilalanmasına və könül duyğularının inkişafına böyük təsir göstərməkdədir. Bu təmizlikdən, saflıqdan bəhrələnən insanların mənəviyyatında, onların ictimai həyatında bir zənginlik var.

Elbrus Şahmar özünəməxsus yüksək insani keyfiyyətləri ilə insanların nüfuzunu qazanıb. O, hələ sadəcə Elbrus olanda da, şagird kimi, tələbə kimi təhsil alanda da ətrafdakıları həlim xasiyyəti, mehriban davranışı səmimi münasibəti ilə heyran qoyurdu. Bəlkə elə daim qonaq-qaralı, dost-tanışlı bir ailədə böyüyüb boya-başa çatmağı ona insana hörmət, dosta diqqət, ətraf aləmə yanıb-dönmək tələin edib?

Elbrus müəllim80 illiyi münasibəti ilə yazdığı şeirini özünün-özünə hesabatı da daadlandırmaq olar:

*Səksən ilim bax, beləcə yetişdi,*
*Haqq yolundan mən heç zaman dönmədim.*
*80 yaşlı bir şairin qəlbində*
*Vətən eşqi korşalmadı, sönmədi.*

Elbrus Şahmar80 illik ömrünü əsl ziyalı kimi, peşəsini ürəkdən sevən səriştəli polis zabiti kimi yaşayıb. Ömrü boyu nurlu əməlləri ilə Vətəninə, Xalqına xidmət edib. Bunu onun keçdiyi şərəfli yol, qələmə aldığışeirləri bir daha sübut edir.

Yaradıcılığından belə məlum olur ki, Elbrus müəllim 80 ildə bütün borcunu çoxdan ödəyib-övladlıq, valideynlik, vətəndaşlıq, vəzifə, dostluq-yolsdaşlıq borclarını tamam-kamal qaytarıb.

O, əməlləri ilə ictimai həyatda, kollektivdə özünü təsdiqləyib ki, bu da həmkarlarının, eləcə də digər şəxslərin onun haqqında söylədikləri xatirələrdə, barəsində yazılmış məqalələrdə özünü bariz şəkildə göstərir.

Elbrus Şahmar oxucusuna xitabən yazır:

*Bir gün bu dünyadan köçəsi olsam.*
*Məni bircə ovuc torpaq sanarsan.*
*Heç yerdə arama, axtarma məni*
*Məni bu dağlardan xəbər alarsan!*

**Dünyanın əzəlliyini özündən, gözəlliyini gözündən keçirən, dünəni ilə fəxr edən, bu gününü şərəflə yaşayan, sabahını ümidlə düşünən Elbrus Şahmarı ad günü münasibəti ilə təbrik edir, onamöhkəm can sağlığı,yaradıcılığında yeni-yeni nailiyyətlər arzulayırıq!**

**Faiq Şükürbəyli,**
**Elman Qasımov**
**AJB-nin üzvləri**

**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**



# Ay Bəniz Əliyarın şeirləri haqqında

***Kim istər ki, kağız üzərində də, yazdığı şeirlərdə də şairliyi görünsün, o gərək əvvəlcə qəlbən şair olsun və öz təbiətinə uyğun olaraq, həyatın poetik tərəfini görsün. Poeziya təkcə kitablarda deyil: - o, həyatın öz nəfəsindədir.***

***V.Q.Belinski***

Mən qəlbən şair olan Ay Bəniz Əliyarın şeirlərini müntəzəm oxuyuram. Onun mətbuatda çap olunan ilk şeirləri və ilk şeirlər kitabı haqqında da söz demişəm. Ay Bəniz Əliyarın şeirləri ən çox onun isti poeziya ocağı hesab etdiyi "Azərbaycan" jurnalında işıq üzü görür.

Onun şeirləri çağdaş şeirimizin müasir durumunu əks etdirən bir səviyyənin göstəricisidir. Əsl şeir necə olmalıdır və o şeir şairin poetik duyğularını necə əks etdirir? sualına Ay Bəniz Əliyarın şeirlərində cavab tapıram.

*Mən yazıram, içimdəki od sönsün deyə,*
*Yazıram ki, ağrılarım dinə, danışa...*
*Mən yazıram, qanad olum eşqə, sevgiyə,*
*Yazıram ki, dönsün ürək yaralı quşa.*

*Nə hikmətsə, yazdıqlarım güc verir mənə,*
*Bu gücümü dostlarla da bölə bilərəm.*
*Nəfəs alıb verən kimi yazıram yenə,*
*Mən yazmasam boğularam, ölə nilərəm.*

Şairliyi, poeziya vurğunluğunu öz həyat idealı sanan hər kəs "nəfəs alıb verən kimi yazıram" deyə bilər. Ay Bəniz Əliyar üçün "həyatın poetik tərəfi" onun öz hislərindən, duyğularından keçir. O duyğularda, o hisslərdə Vətən də, torpaq da, ocaq da, ağac da, bir şəhid də, "Hardasa bir ümid də", xatirələr də, sevgi ömrü də poeziya rənglərinə, naxışlarına bürünür.

*Bir gül əkəsən bağında,*
*Gülüstana tən qoxuya.*
*Uca dağdan ev tikəsən,*
*Duman ala, çən qoxuya.*

*Çala, susmaya tütəyin,*
*Boşala,dola ətəyin.*
*Adına Vətən dediyin,*
*Qucağı Vətən qoxuya.*

*Ümid ola saxladığın,*
*Kədər ola doğradığın.*
*İçin-için ağladığın*
*Saçların da dən qoxuya.*

*Bəxti yolundan siləsən,*
*Haqqa tanrıdan gələsən.*
*Öləndə elə öləsən*
*Torpağın da sən qoxuya.*

"Qoxuya" rədifi üzərində köklənən bu şeir öz adi mənasından (qoxlamaq, iyləmək) uzaqlaşaraq poetik mənalar kəsb edir.

Ay Bəniz Əliyarın bədii dili ifadə vasitələrinin zənginliyilə seçilir. Məcazlar, təşbihlər, metaforalar, simvollar, mübaliğələr - bu poetik fiqurlar onun şeirlərinin ŞEİR kimi qavranmasını şərtləndirir.

*Qəlbimi oxşadı bahar yağışı,*
*Tutub buludları ilməyə hördüm.*
*Bir ovuc dumandan çəkdim başıma,*
*Bir çimdik bənövşə ətiri dərdim.*

*Bir süfrə başına cəm olduq yenə,*
*Dörd bacı, üç qardaş, doldu boş masa.*
*Həsədlə baxırdı eşikdən günəş,*
*Balaca daxmadan boylanan yaza.*

Deyim ki, Ay Bəniz Əliyar metaforalar şairidir. Bir-birinə oxşar məfhumların müqayisəsi zamanı məfhumlardan birinin atılaraq əvəzində onun bir xüsusiyyətindən istifadə yolu ilə yaradılan metaforalar hər hansı şeirdə yeni bir məna çaları yaradır. Bir kiçik şeirə müraciət edək:

*(Yağış yağır, yenə yağır,*
*Hər məhləyə, tinə yağır.*
*Doluxsunub uşaq kimi,*
*Sallayıb alt dodağını.*
*Bu buludlar mənə tanış,*
*Eşidirsən?*
**YAĞIŞ YAĞIR...**

Ay Bəniz Əliyarın bu çağacan oxuduğum şeirlərində mən ayrıca dağa, dənizə, çiçəyə, çölə, ilin fəsillərinə, gölə, dumana həsr olunan elə bir şeirinə rast gəlmədim. Amma onun şeirlərində təbiət və onun atributları təyinedici rol oynayırlar. "Kötük", "Kəsilən ağac", "Kəpənək eşqi", "Ay tutulması" və.s. şeirlərində təbiət həm özü bir obraz kimi diqqəti cəlb edir, həm də obrazlılığı təmin edir. Kəsilmiş ağaclardan az şeir yazmayıblar, Ay Bəniz Əliyar da bu faciəni əsl faciə kimi mənalandırır:

*Sən kəsirdin ağac kimi,*
*Dili yox idi danışa.*
*Sözü yox idi ağlaya,*
*Əli yox idi savaşa.*

*Nə olsun, kəsdiyin yerə*
*Axmadı bir damcı qanı...*
*Günahına günah qatdı*
*Tumurcuqların fəğanı.*

Ay Bəniz Əliyarın şeirlərində gözəllik anlayışı aparıcıdır desəm, yanılmaram. Gözəllik təkcə gözəl olan əşyaları, sifətləri tərənnüm etmək deyil, bu gözəlliyi insan həyatında, bu insanın işıqlı duyğularında, sevincdə, sevginin səni yaşatmaq qüdrətində, təbiətin hər zərrəsində görmək deməkdir. Hətta kədərin, qəmin özündə də gözəllik yaşar.

"Kəpənək eşqi" şeirində gözəllik antigözəlliklə qarşılaşır. Bir başqa şeirində sevgi ilə ayrılıq üz-üzə dayanır. " Hər şey qəfil olur, qəfil, çox qəfil, Birdən sevgi yağır, birdən ayrılıq". Deyərdim ki, onun bir çox şeirlərində sevgilərlə ayrılıqlar, hər təzadlı qütblər kimi diqqəti cəlb edir, həm də hardasa birləşirlər.

Ay Bəniz Əliyar "Poeziya həyatın öz nəfəsindədir" (Belinski) formuluna da şeirlərində riayət edir, yəni həyatın mənası nədir, insan necə yaşamalıdır suallarına cavab axtarır və mənim fikrimcə, doğru cavablar tapır.

*Ən gözəl hislər də xərclənib bitir,*
*Yeni heç nə qalmır dişinə dəyən.*
*Onda yaşamağın mənası nədir?*
*Heç nə qalmayıbsa yenilənməyən?*

*Sahib durmaq olmur bir çox hisslərə,*
*Bəzən əcəb belə həddini aşır.*
*Bir başqa baxırsan olduğun yerə,*
*Ömür günü-gündən mənasızlaşır.*

Əlbəttə, kiçik bir yazıda mən Şabranda yaşayan bu istedadlı şairin - Ay Bəniz Əliyarın şeir yaradıcılığı haqqında geniş, əhatəli söz aça bilərəm. Amma "Görünən kəndə nə bələdlik" deyirəm.

Amma çox arzu edirəm ki, Ay Bəniz Əliyar müasir həyatın dərinliklərinə də baş vursun, öz gözəllik anlayışının hüdudlarını genişləndirsin, real həyata daha çox yaxınlaşsın. Sonda onun altı il əvvəl qələmə aldığı ( "Azərbaycan" jurnalı, 2019, №11) bir şeirindən üç bəndlə sözümü bitirirəm:

*Özünə çəkilir tənha adamlar,*
*Dolur ayrılıqlar boş küçələrə.*
*İndi qərib-qərib yağışlar yağır.*
*Göylərin kölgəsi düşməyən yerə.*

*Yenə ehtirasla söndürür Bahar*
*Payız yatağında gül nəfəsini.*
*Tozlu sinəsində basdırır yollar,*
*Tənha qadınların addım səsini.*

*Üstümə çəkmişəm ağ saçlarını,*
*Sanki işığlanıb günüm-gündüzüm.*
*Eləcə dənlənən saçların kimi*
*Getdiyin yollarda ağarır gözüm.*

# Sağlam səhər yeməyi üç növ qidadan ibarət olmalıdır

**Britaniyalı dietoloq Paula Martinin fikrincə, sağlam səhər yeməyi mütləq üç növ qidadan ibarət olmalıdır - meyvə, tam taxıl və süd məhsulları.**

Adalet.az xəbər verir ki, mütəxəssis bu barədə "İnstyle" nəşrinə müsahibəsində danışıb.

Həkim xatırladıb ki, oyandıqdan dərhal sonra səhər yeməyi yemək lazım deyil - ilk yeməyi bir müddət təxirə salmaq və ya səhər məşqindən sonra başlamaq olar. Bununla belə, səhər yeməyini çox "çəkməməli" və ya tamamilə atlamamalısınız - bu vərdiş gün ərzində şirin və karbohidratlı qidalara olan həvəsi artırır və həddindən artıq yeməyə səbəb olur.

Doktor Martinin sözlərinə görə, səhər yeməyində meyvə yemək vacibdir. Ondan çox yemək lazım deyil - bir kiçik meyvə və ya böyük bir parça kifayət edəcəkdir. "Onların tərkibində lif var ki, bu da toxluq hissini daha uzun müddət saxlamağa kömək edir və şəkərin udulmasını tənzimləyir. O, həmçinin C vitamini, fol turşusu və antioksidantların əla mənbəyidir. Meyvələr maddələr mübadiləsini tarazlaşdırmağa və bağırsaq fəaliyyətini yaxşılaşdırmağa kömək edir. Çörək, səhər yeməyi taxılları və yulaf ezmesi kimi bütün taxılları da unutma.

Aşağı glisemik indeksə malik olduqları üçün bu cür qidalar iştahı idarə etməyə və qanda qlükoza səviyyəsini sabit saxlamağa kömək edir", - deyə mütəxəssis izah edib.

Bundan əlavə, Dr. Martin səhər menyunuza süd məhsullarını - şəkər, pendir və kefir əlavə edilməmiş adi qatıq daxil etməyi tövsiyə edir. Belə qida tərkibindəki zülal hesabına əzələ kütləsini saxlamağa kömək edir, toxluq hissini artırır və hormonal tarazlığı qoruyur.

# "Tərcümə təcrübələri", yoxsa tərcümə dərsləri

## (Bir kitabdan aldığım təəssürat)

**Tanınmış qələm adamı, imzası oxuculara yaxşı tanış olan Seyfəddin Hüseynlinin "Tərcümə təcrübələri" adlı qalın həcmli kitabının birinci cildi çapdan çıxıb, oxuculara çatdırılan gündən həm də elə ədəbi cameənin də diqqətini çəkib.**

Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Mətbuat Şurasının nəşrini dəstəklədiyi bu kitabda Amerika, Argentina, Çexiya, Çin, Fransa, İngiltərə, İsrail, İtaliya, Macarstan, Rusiya, Suriya, Türkiyə, Ukrayna, Yaponiya- bir sözlə dünyanın dörd qitəsində yerləşən ayrı-ayrı ölkələrin yazıçılarının hekayə, esse və söhbətlərindən seçmə nümunələr ana dilimizdə oxuculara təqdim edilib. (Bakı, "Zərdabi nəşr" MMC, 2024.)

Seyfəddin Hüseyinlinin tərcümələri, indiyəcən oxuyub tanış olmadığı, ancaq tanış olmaq istəyən hazırlıqlı intelektual səviyyəli oxucular üçündür. Qoy oxucu kütləsi bu sözlərimdən inciməsin.

Kitabı maraqla-əlbəttə, diqqət qarışıq səbrlə oxuyub qurtardıqdan sonra yazı-pozuya az-çox bələd olan bir oxucu kimi ilk əvvəl belə bir qənaətə gəldim ki, Seyfəddin müəllim təvəzökarlıq edib, kitabın adı "Tərcümə təcrübələri" yox, tərcümə kimi ağır bir işə girişmək istəyənlər üçün "Tərcümə dərsləri" olsaydı daha çox haqq edərdi.

***

Kitabda toplanan esselər və söhbətlərdə görkəmli sənətkarların yaradıcılıqla bağlı dilimizə çevrilən əsərləri təkcə ədəbi yox, həm də köhnəlməyən, bu gün də öz dəyərini itirməyən bir əbədi sənət dərsləridir. Gənc yazarlar həmin ədəbi mətnləri diqqətlə oxusalar, əlbəttə, xeyli faydalanarlar. Həmin tərcümələrlə tanışlıq peşəkar, təcrübəli qələm ustaları üçün də yəqin ki, maraqlı olar.

***

Ana dilimizə çevirdiyi hekayələrdə tərcüməçi həm də çox maraqlı seçim edib. Əvvəlcə oxucuda xoş ovqat, gülüş, şən əhval-ruhiyyə yaradan nümunələr, sonra da oxuduqca müətəssir olub kövrəldiyin ciddi mətnlər...

Tərcüməçi sanki müəlliflərin xəbərdarlığına şərik çıxır. Bəsdir güldük, güləndə də düşünüb kədərlənməyi bacaraq!

***

Kitabın "hekayələr" bölümündə dünya ədəbiyyatının klassiklərindən tutmuş çağdaş nəsrin görkəmli nümayəndələrinin irili-xırdalı əsərlərindən nümunələr oxuculara təqdim edilir.

Tərcüməçi dilimizə çevirdiyi mətnlərin mövzu rəngarəngliyinə, mətnlərin müəlliflərinin fərdi yaradıcılıq xüsusiyyətlərini qoruyub saxlamağa xüsusi diqqət ayırıb.

Bu bölmədə təqdim edilən tərcümələr arasında İtaliya yazıçılarının əsərləri təsirləndiricidir. Bir İtaliya yazıçısının hekayəsinin sujeti əsasında uzun illər bundan əvvəl çəkilmiş gürcülərin qısametrajlı məhşur "Küp" filmini xatırlaya-xatırlaya İtaliya ədəbiyyatının geniş təsir dairəsini bir daha yada salırsan...

***

Kitabdakı bəzi mətnlərdə yeri gələndə oxucuya gərəkli izahların, şərhlərin çatdırılması da tərcüməçinin öz işinə məsuliyyətlə, ciddi yanaşmasından soraq verir. Axı , Seyfəddin Hüseynli neçə illərdir ki, AYB Tərcümə Mərkəzinin dərgisi olan "Dünya ədəbiyyatı"nın baş redaktorudur və onun redaktəsi ilə indiyəcən qalın həcmli bu dərginin birbirindən maraqlı neçə-neçə sayı oxucular tərəfindən maraqla, rəğbətlə qarşılanıb.

***

"İstənilən əhvalatın kökündə onu qələmə alan insanın həyat təcrübəsi dayanır. Yəni həyat təcrübəsi təxəyyülün qida məhsuludur."

**(M.V.Lyoşa. "Gənc yazıçıya məktublar" silsiləsindən "Koteblepas" essesi.)**

Tərcüməçi A.Soljenitsinin ən məşhur əsərlərindən olan "İvan Denisoviçin bir günü" povestini də dilimizə çevirə bilərdi. Ancaq bu gün Azərbaycan oxucusuna həcmcə lakonik, məzmunca dərin məzmunlu belə mətnlərə ehtiyacı var.

"Bəşər tarixinin dərinliklərinə varıb, çox-çox qədimlərlə bugünkü günü tutuzduranda, məyus halda boynunu əyirsən; hə, deməli, dünyanın nizamı belədir. Biz əsla ondan kənara çıxa bilmərik: nə xoşməramlı icadlarla, nə də dünyəvi layihələrlə. Ta bəşərin sonunacan. Və hər bir canlının ixtiyarında bunlar var yalnız: öz əməli və öz ruhu".

**A.Soljenitsın.**

***

"...Bəlkə də elə buna görə vaxt-bivaxt yatanda yuxular görürük. O, yuxularımızda bəzən elə xoşbəxtliyə, səadətə qovuşuruq ki, onları oyaq, ayıq vaxtlarımızda ağlımıza gətirməkdən belə qorxar, cürət etməzdik." Bir vaxt başı bəlalar çəkmiş A.Soljenitsin nə yaxşı ki, ağrı-acı ilə bunları qələmə alıb oxucusuna çatdırıb və tərcüməçi də bunu dilimizə çatdırıb. Və yaxud "Səs təqlidçisi". Bir vaxt Henrix Böllün "Təqlidçi" adlı bir hekayəsini dilimizə çevirib "Qobustan" dərgisində çap etdirmişdim. Birinci şəxsin dilindən nəql edilən hekayənin qəhrəmanı gülüş yamsılayan, gülüş təqlidçisidir. Və hekayənin sonunda az qala onun fəryadı: "Bütün gülüşləri yamsılaya bilirəm. Fəqət öz gülüşüm isə yoxdur." "Səs təqlidçisi"nin eləcə fəryadı oxucunu təsirləndirir.

***

Qələm adamı üçün özlüyündə öz orijinal əsərini yazmağa guya nə var? Qəlbindən, beynindən keçənləri sözə çevirib kağıza köçürürsən, sanki dağa-daşa düşmürsən. Mətnə çevirdiyin o sözlərin bədii cəhətdən güclü və ya sönük olması bir ayrı məsələ. Birbaşa yaza yaza nə sinonim axtarırsan, nə omonim. Heç ideomatik, freozoloji ifadələrin yerli-yerində olması yadına düşmür. Necədeyərlər birnəfəsə, qələm də əlində...

Tərcümədə isə iş tamam başqadır. Gərək zərgər dəqiqliyi ilə sözü axtarıb tapıb yerinə qoyasan.

...Bir vaxtlar M.Bulqakovun, M. Zoşşenkonun bir neçə qısa hekayəsini, B.Şukşinin, M.Dumbadzenin hekayələrini, Norveç yazıçısı Karri Erbinin "Sınaq müddəti" povestini dilimizə çevirərkən tərcümənin necə ağır, məşəqqətli iş olduğunun fərqinə varmışdım. Necə deyərlər, iynə ilə gör qazmaq...

İdeomatik ifadələr, koloritli atalar sözlərimiz, zərb-məsəllər, yarandığı gündən bəri indiyəcən köhnəlməyən ifadələr...

Mətnləri maraqla mütaliə edən oxucu tərcüməçinin peşəkarlığı sayəsində həm də öz doğma ana dilinin zənginliyinin, dadının-duzunun həzzini alır, şahidi olur. Elə buna görə də Seyfəddin Hüseynliyə bir əlavə "sağ ol" düşür.

Əcnəbi yazıçını öz ana dilimizdə danışdırmaq tərcüməçidən istedad, hünər, cəsarət tələb edir, bir də ədəbiyyat qarşısında, məsuliyyətli, şərəfli bir borcu yerinə yetirməkdə peşəkarlıq, ustalıq...

Tərcüməçi, ədəbiyyatşünas, tənqidçi deyiləm. Ancaq peşəkar bir oxucu kimi isə deyə bilərəm ki, dostumuz Seyfəddin Hüseynli bunun öhdəsindən layiqi ilə gələ bilib.

***

Ömrünün neçə ilini həbs düşərgələrindəki soyuq divarlar arasında keçirmiş dissident yazıçı Aleksey Varlamovun yaradıcılığı haqqında tam təəssürat yaradan hekayəsini nümunə kimi seçib dilimizə çevirməyi də tərcüməçinin ədəbi meyarlara diqqətinin nümunəsidir. "Şanxay" adlı bu hekayə yazıçının nəql etdiyi bir əhvalat yox, duyğusal oxucu üçün kövrələ-kövrələ oxuduğu bir elegiyadır.

***

V.Krupinin "Televiziya tamaşaçısı" essesini oxuyub qurtarandan sonra ağıla gələn bu olur ki, sanki rus yazıçısı bizim telekanalların gün ərzində tamaşaçılara təqdim etdikləri saysız-hesabsız, boz, lağlağı verlişlərinə baxandan sonra bunları qələmə alıb.

"Tərcümə təcrübələri" kitabında diqqəti cəlb edən, təqdirə layiq bir cəhət də dilimizə çevrilən mətnlərdə bir növ oxucuya çatdırılan "ədəbi dərs"lərdir və bu dərslərdən istər özünü artıq ustad hesab edən qələm əhli, istərsə də, necə deyərlər oturuşmuş, özlərini artıq sənətkar bilənlər də xeyli faydalana bilərlər.

Xüsusən , "esse" və "söhbətlər" bölümündə toplanan mətnləri diqqətlə oxusalar, gərəkli-dəyərli fikirləri əxz etsələr çox faydalanarlar:

* "Xalqın zəkası şair dühasından üstündür"

**Kit Gestorton.**

***

- "Elə yazılar var ki, həm təhkiyənin cilovunu əldə möhkəm saxlamağı, həm də ali düşüncələri, ciddi eksistensial problematikanı epizodik əks etdirməyi bacarırlar."

**Remzo Oliva, "İnternet və çağdaş İtalyan ədəbiyyatı".**



***

- "Bədiiləşmə prosesi yaddaşın müəllifə verdiyi materialın sözlə qurulan gerçək dünyaya, yəni romana çevrilməsidir".

- "Ümumiyyətlə, yaradıcılığın yalnız nadir yazıçılara gətirdiyi şöhrətin gözqamaşdırıcı parıltısı ilə, maddi təminatla əsl ədəbiyyatı qarışdırmaq olmaz. Bunlar fərqli şeylərdir."

- "İstedadın insanın genlərindən süzülüb gələn, taleyin bəxş etdiyi anlayış olmasına inanmasam da, əminəm ki, intizam və inadkarlıq bəzən daha çox formalaşdırmağa qadirdir."

- "Yazıçılıq, sözün köməyi ilə yeni dünyalar yaratmaq yalnız tək-tək adama nəsib olur."

- "Bədii uydurma- arxasında böyük həqiqət gizlənən yalandır."

- "Ədəbiyyat- vaxt keçirmək vasitəsi, idman və ya rahatlıq gətirən əyləncəli oyun deyil."

- "Yazıçılıq isə uzun illər müntəzəm və gərgin əmək tələb edir."

**M.V. Lyosa. "Soliter haqqında pritça"**

***

- "Puşkinin nəsrini oxuyan ölkədə biz nəsə yazaqmı? Yazdıqlarım oxucunun gözlərini mənim sətrlərimdən iyrəndirəcəksə, qoy nəzərləri Puşkinə yönəlsin"

**V.Krupin. "Mən yox idim"**

***

"Kitablar indi- ülgüclər, şpristlər, ya başqa nələrsə kimi- birdəfəlikdir elə bil: "işini gör, tulla". Ədəbiyyat yüngül istehlak malına, əlüstü hazırlanıb yeyilən qida məhsuluna, daha dəqiqi, yarımfabrikat, "fast-food" kimi şeyə çevrilib. Çoxmu bədbinəm? Məncə yox..."

**(Renzo Olina, "İnternet və çağdaş italyan ədəbiyyatı")**

***

Yaddaşa əbədi həkk olunası, yaddaşlarında əbədi saxlamaq əziyyətinə qatlanmayanlar isə heç olmasa kitabdakı bu tərcümə mətnlərini cib dəftərçələrinə köçürüb hərdən bir vərəqləyə-vərəqləyə oxuyub yada salsınlar:

"Lindon Consonun siyasət haqqında söylədiyini cürət edib, mən də humanizm haqqında deyirəm. O, demişdi: "Siyasət çətin iş deyil: eləcə burnunu küləyin istiqamətinə tut və dəfn mərasimlərinə get!"

"Elə bilirdim ki, tərkisilah olunmasaq- hərçənd, bizim üçün ən vacibi məhz budur- doğrudan da bir-birinin ardınca hər yeri partladıb dağıdacağıq".

**(Kurt Vannequt, "Böyük partlayışdan necə yayınaq...")**

***

"Bütün yaxşı adamlar digər xalqları sevirlər, bir çox naqis adam isə öz xalqına dönük çıxır"

**(Gilbert Kit Gesterton, "Fransız və ingilis".)**

***

"Yalnız kilsəyə getdiyinə görə xeyirxah olan və yalnız oraya getmədiyi üçün qəddarlaşan bircə nəfərə də rast gəlməmişəm"

**(Artur Konan Doyl, "Din yeni vəhy işığında".)**

***

"Qocalıq heç də Tanrı cəzası deyil, o özü də bir nemətdir və xoş olan cilvələri var.

... Ağlı başında qocalmaq aşağıya deyil, yuxarıya aparan bir yoldur. Aclıq içində, soyuqda keçən qocalıq nəsib etmə bircə, İlahi!"

**(Aleksandr Soljenitsın, "Qocalmaq".)**

***

Kitabda diqqət cəlb edən bir də dilimizə çevrilən mətnlərdə dünya ədəbiyyatına yaxından bələd olan tərcüməçinin aktual seçim səriştəsi, istedadıdır.

Bəlkə də dilimizə tərcümə edilən o mətnləri müəlliflər 50 il, bəlkə də bir əsr bundan qabaq qələmə alıblar. Ancaq o mətnlər indi də məhz bu günümüzlə necə də səsləşirlər! Yəqin ki, Seyfəddin Hüseynli də vaxt sərf edib həmin müəlliflərin neçə-neçə əsərini oxuya-oxuya məhz onları ana dilimizdə oxucularımıza çatdırmağı gərək bilib, məqbul hesab edib. Tərcümə edilən esselərdə bu xüsusən diqqətə layiqdir. (A.Soljenitsin)

Məsələn, Renzo Olivanın(İtaliya) "İnternet və çağdaş İtaliya ədəbiyyatı" essesindəki dəyərli fikirlər: "Dükanlara girən kitablardan son dərəcə az qismi resenziyalara, deməli, həm də rəflərdə önə çıxarılmaq şərəfinə layiq görülür".

***

Sovetlər dönəmində istedadlı cavan şairin və yaxud nasirin o zamanlar fəaliyyət göstərən "Gənclik", "Yazıçı" nəşriyyatları tərəfindən qəbul edilən əlyazmaları "Gənc müəllifin ilk kitabı" seriyası ilə çapı ildən ilə tematik plana salınıb axır ki, işıq üzü görəndə şairin, yazıçının cavanlıq yaşı ötürdü.

Bu gün isə nəşriyyatlarımızın sayını bilmirik. Əlyazma qovluğunu təqdim et, çap xərclərini ödə və nə qədər olursa həcmli olursa-olsun bir-iki aya hazır kitabını götür! Qoy rəflərdə qalsın!

Əlbəttə, oxucular belə dəyərli və maraqlı kitabın növbəti cildlərini intizarla gözləyirlər. Yəqin ki, o da onları çox intizarda saxlamaz. Bu yolda Seyfəddin Hüseynliyə uğurlar!

***

"Ruhu, zehni əsla köhnəlməyən köhnə kişiyə- istəkli yazıçımız Aydın Tağıyevə dost salamım və gözəl istəklərimlə.." "Tərcümə təcrübələri" kitabını müəllif belə bir avtoqrafla mənə yollayıb. Sağ olsun!

Görəsən, kitabdan aldığım bu ilk təəssüratlarımla qələmə aldıqlarımla onun "köhnəlməyən" qənaətini doğrulda bildimmi?...

**Aydın TAĞIYEV, yazıçı-publisist**

## "ZƏLİMXAN NƏ DESƏ SAZ DİLİNDƏDİ"




**Bu günlərdə Xalq şairi Zəlimxan Yaqubun "Zəlimxan nə desə saz dilindədi..." adlı kitabı işıq üzü görüb. Azərbaycan Aşıqlar Birliyində nəşrə hazırlanan və "Zərdabi nəşr" MMC nəşriyyatında nəfis tərtibatla çap olunan bu kitab 2008-cildən 2016-cı ilədək Azərbaycan Aşıqlar Birliyinə rəhbərlik etmiş Xalq şairi Zəlimxan Yaqubun anadan olmasının 75 illik yubileyinə bir ərməğan və qədirşünaslıq nümunəsidir.**

Kitaba yazdığı "Ömrü, həyatı nağıl, dastan, ünvanı saz olan şair" adlı geniş ön sözdə Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun da qeyd etdiyi kimi, aşıq yaradıcılığına, bütövlükdə ozan-aşıq sənətinə və bu sənətin daşıyıcılarına bağlılıq şairin yaradıcılığında mühüm yer tutur: "Zəlimxan Yaqub şeirinin gücü, qüdrəti bir tərəfdən onun fitri istedadı ilə bağlıdırsa, digər tərəfdən saza bağlılığındadır".

Kitabda şairin aşıq sənəti və ustad sənətkarlarla bağlı yazdığı məqalələr, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr, eləcə də, bu sənətə və ustad sənətkarlara həsr etdiyi şeir və poemaları yer alıb.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab aşıq sənətinin tədqiqi və tədrisi ilə məşğul olan mütəxəssislər, aşıqlar, eləcə də bu sənətə maraq göstərən, ali və orta ixtisas məktəblərində müvafiq ixtisasa yiyələnən gənclər üçün də əhəmiyyətlidir. Kitabı nəşrə hazırlayan və redaktoru Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, elmi məsləhətçi Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı və rəyçi filologiya üzrə fəlsəf doktoru, dosent Altay Məmmədlidir.

## Bu vitamin çatışmazlığı xəstəliyə səbəb olur



**ABŞ-dan edilən yeni bir araşdırmalarda K vitamini çatışmazlığının beyin sağlamlığına zərər verdiyi məlum olub.**

Amerikalı tədqiqatçıların araşdırması nəticəsində K vitamininin oynaq və ürək-damar sistemindən əlavə beyinə də faydalı olduğu məlum olub. Əsasən ispanaq və kələm kimi tərəvəzlərdə olan K vitamininin kifayət qədər qəbul edilməməsi idrak qabiliyyətinin zəifləməsinə gətirib çıxarır.

# "Qodonun intizarında" tamaşasına ictimai baxış olub

**Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı tamaşaçılarını daha bir maraqlı səhnə əsəri ilə sevindirəcək. Bu, dünya şöhrətli irland yazıçısı ,şair və.dramaturq Samuel Bekketin absurd teatrın klassik nümunəsi olan " Qodonun intizarında " pyesidir. Müəllifin eyniadlı pyesi əsasında hazırlanan tamaşa bu dəfə teatrın direktoru, istedadlı rejissor Mir Qabil Əkbərovun quruluşunda səhnə təcəssümü tapıb.**

İctimai baxış zamanı teatrın direktoru Mir Qabil Əkbərov çıxış edib. Bildirib ki, 2025-ci ilin 1-ci rübbündə nəzərdə tutduğumuz " Qodonun intizarında" tamaşasına ictimai baxış keçirdirik.Tamaşanın xronometrajı bir saatdır, 4 nəfərlikdir. Tamaşa absurd üslubda yazılmış bir əsərdir.Əsər dünyaca tanınmış bir əsərdir. Absurdun ağırlığını nəzərə alaraq biz bunu bir pərdəli elədik.

Mir Qabil Əkbərov qeyd edib ki, tədbirdə Bədii Şuranın üzvlərindən əlavə, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Humanitar məsələlər şöbəsinin böyük məsləhətçisi Həsən Kərimov da iştirak edir, sözü ona verək..

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Humanitar məsələlər şöbəsinin böyük məsləhətçisi Həsən Kərimov çıxışında bildirdi ki, "Qodonun intizarında" tamaşası bu gün uğurla təqdim olundu. Məlumdur ki, Dram Teatrın repertuarında tez-tez dünya ədəbiyyatı incilərinə müraciət olunur bu təqdirəlayiq haldır. Bu gün dövlətin mədəniyyət siyasətinin əsas istiqamətlərindən biri də, həm milli,həm də dünya mədəniyyətinin incilərinin təbliğ olunmasıdır. Hər dəfə teatr tamaşaçılarına yüksək əxlaqi, mənəvi keyfiyyət aşılayan tamaşalar təqdim edir. Tamaşalarda çox ciddi mesajlar verilir. Tamaşada nsanların müxtəlif vəziyyətlərdə keçirdikləri hiss və həyəcan müəllifin istədiyi kimi təqdim olundu. Az heyətin iştirak etdiyi tamaşa uğurla tamaşaçıya çatdırıldı. Behruz Haxverdiyevin, Zakir Fətəliyevin, Məmməd Mehdiyevin və gənc aktyor İsmayıl Mirzəcanovun ifaları uğurlu alındı.

Həsən Kərimov tamaşanın ərsəyə gəlməsində başda Mir Qabil Əkbərov olmaqla hər kəsə təşəkkürünü bildirdi . O,tamaşanın həm səhnədə,həm də qastrol səfərlərində uğurla nümayiş olunacağına ümid etdiyini də dilə gətirdi.



Sonra Bədii Şuranın üzvləri tamaşa haqqında yüksək fikirlərini,münasibətlərini bildirdi, yaradıcı heyətə uğurlar arzu etdilər.

Qeyd edək ki,səhnə əsərində Azərbaycan Respublikasının əməkdar artisti Behruz Haxverdiyev Vladimir, Zakir Fətəliyev Estraqon, gənc aktyorlardan Məmməd Mehdiyev Poçço və İsmayıl Mirzəcanov Lakki obrazlarını məharətlə canlandırırlar. Onlar tamaşada obrazları ustalıqla ifa edir, tamasaçıya həyəcan dolu anlar yaşadir, əsərin ideyasını dolğunluğu ilə çatdırıdılar.

Tamaşanın rejissoru Mir Qabil Əkbərov,rejissor assistenti Leyla Yaqubova , quruluşçu rəssamı Araz Xudiyev, musiqi tərtibatçısı İbrahim Əliyevdir.

İnanırıq ki, " Qodonun intizarında" tamaşası da teatrın repertuarında uzun ömürlü səhnə əsərlərindən olacaq.

**Adilə Səfərova,**
**Azərbaycanın Əməkdar mədəniyyət işçisi**

# Azərbaycanda 11 yoluxucu xəstəliyə qarşı peyvəndləmə aparılır

**"Azərbaycanda hazırda dövlət tibb müəssisələrində cari profilaktik peyvəndlər təqviminə uyğun 11 yoluxucu xəstəliyə qarşı peyvəndləmə aparılır: Hepatit B, vərəm, difteriya, göyöskürək, tetanus, poliomielit, B tipli hemofil infeksiya, pnevmokok infeksiyası, qızılca, epidemik parotit, məxmərək"**

Adalet.az xəbər verir ki, bu fikirləri 93 FM dalğasında yayımlanan "Sağlam radio"da həkim-epidemioloq Aytəkin Qurbanova açıqlayıb.

Onun sözlərinə görə, hər peyvəndin təqvimə uyğun yaşda vurulması çox vacibdir, çünki həmin yaş dövründə uşağın peyvəndlə qarşısı alınan təhlükəli xəstəliklərə məruz qalma riski olduqca yüksəkdir:

"Həmçinin, uşaqda bu yaş dövründə peyvəndləmə nəticəsində daha güclü immunitet yaranır. Peyvənd təqvimi elmi sübutlara əsaslanaraq, tərtib olunub. Peyvəndlərin vurulmasında səbəbsiz gecikmələrə yol vermək olmaz. Peyvəndlər peyvənd təqviminə uyğun olaraq vaxtında tətbiq edilməlidir. Belə ki, peyvəndin vurulmasında gecikmə uşağın həssas olduğu dövrdə onu müdafiədən məhrum edir. Məsələn, Hib və pnevmokok kimi xəstəliklərdən demək olar ki, əsasən 2 yaşadək uşaqlar əziyyət çəkir. Hepatit B, göyöskürək və bəzi digər peyvəndlərlə qarşısı alına bilən xəstəliklər az yaşlı uşaqlarda daha ağır keçir. Lakin uşaqlara peyvənd vurulduğu təqdirdə, onların immun sistemi güclənir və erkən yaşlarından etibarən həmin xəstəliklərə qarşı qorunmuş olur. Məhz buna görə də, uşaqları doğulduğu gündən etibarən peyvənd cədvəlinə uyğun peyvənd etdirmək lazımdır".

Həkim-epidemioloq bildirib ki, uşaq hansısa səbəbdən bir və ya bir neçə peyvəndi vaxtında almayıbsa, yaxud ona ümumiyyətlə heç bir peyvənd vurulmayıbsa, belə hallarda uşağın gecikmiş peyvəndləmə cədvəlinə uyğun peyvənd olunması vacibdir:

"Uşağın peyvəndləməsi gec başladıqda və ya yenidən bərpa olunduqda, peyvəndləmə əvvəllər vurulan peyvəndlərin nəzərə alınması şərtilə dayandırıldığı yerdən davam etdirilməlidir. Uşağın xəstələnməyini gözləmədən, onu peyvənd etdirmək mütləqdir, çünki xəstəliklərin fəsadları ağır ola bilər. Əgər uşaq peyvəndlə qarşısı alına bilən xəstəlikləri keçiribsə belə, uşaq yenə də peyvənd edilməlidir. Bu çox vacibdir, çünki iki yaşından kiçik uşaqlar bəzi infeksiyaları (hemofil infeksiya, meningit, pnevmoniya) keçirdikdən sonra yetərli səviyyədə təbii immunitet əldə edə bilmirlər".

A. Qurbanova qeyd edib ki, uşaq xəstəliyə yoluxduqda virus və ya bakteriyanın bir növünə yoluxur:

"Lakin peyvənd uşağı eyni xəstəliyi törədə biləcək mikrobun bir çox növündən qoruyur. Məsələn, pnevmokok əleyhinə peyvənd uşağı pnevmokok bakteriyasının 13 növündən qoruyur".

*Həsən HƏSƏNOV,*
*İctimai-siyasi xadim*



# Yaradıcılıq məramnaməsi – tarixin açılmamış səhifələri

**Şamil Qurbanov 1974-cü ildə nəşr etdirib, oxuculara təqdim etdiyi "Açılmamış səhifələr" əsəri ilə xalqımıza yaradıcılıq məramnaməsi olan ictimai fikir, ədəbiyyatşünaslıq, publisistika tariximizin açılmamış səhifələrini çatdırdı. Bununla, haqsız olaraq, unudulmuş Hüseyn Minasazovu, Rəhim bəy Məlikovu, Həmzət bəy Qəbulovu, Sona xanım Axundovanı, Məmməd Qarayevi yenidən tanıtdırdı. Lakin bununla kifayətlənməyib Hüseyn Minasazovun və Rəhim bəy Məlikovun əsərlərini toplayıb kitab şəklində nəşr etdirdi.**

Onlara sadəcə ziyalılarımız deməklə kifayətlənmək olmaz, onlar əsrin əvvəllərində Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə ilə birlikdə XX əsrin əvvəllərində xalqımızda yeni milli düşüncə formalaşdırma yolunun fədailərindən idilər. XX əsrin əvvəllərində yaradıcılıqla məşğul olan ziyalılarımız tarixi missiyanı xalqımızın yeni dövr milli düşüncəsinin formalaşması, 1918-ci ildə müstəqil Azərbaycan Cümhuriyyətinin yaranmasının əhəmiyyətli amillərindən idi.

İlk kitabında bəyan etdiyi məramına sadiq qalaraq Şamil Qurbanov tariximizin unudulmuş səhifələrini araşdıraraq 1983-cü ildə Ömər Faiq Nemanzadənin əsərlərinin ilk toplusunu, 1985-ci ildə xatirələrini, sonralar onun haqqında böyük monoqrafiyasını və nəhayət, 1992-ci ildə publisistik əsərlərinin əksəriyyətini əhatə edən seçilmiş əsərlərini nəşr etdirdi. Ömər Faiq Nemanzadənin əsərləri nə sağlığında, nə də ki, ölümündən sonra toplanıb kitab şəklində çap olunmamışdır.

Yalnız Şamil Qurbanovun səyi nəticəsində ilk dəfə olaraq, Ömər Faiq Nemanzadə tam şəkildə oxuculara çatdırıldı. Ömər Faiq Nemanzadənin əsərləri yeni nəsil oxucuları tərəfindən böyük ehtiramla qarşılandı. Şamil Qurbanovun elmi qənaətinə görə, xalqın şüuruna təsir etməkdə Sabirin poeziya vasitəsilə etdiyini, Ömər Faiq Nemanzadə publisistika vasitəsilə edib. 1906-cı ildə Ömər Faiq Nemanzadə yazırdı: "Yadımıza belə gətirməzdik ki, ermənilər çox-çox əvvəl hazırladıqları hədsiz-hesabsız bombaların hamısını bizim başımızda partladacaqmış...

Bu sadəliyimizin səbəbi ilə cümləmiz qonşu ermənilərlə yenə qədim sayaq üzrə sülhanə rəftar edib, rahat və arxayın olmağı vəz və bəyan edirdik və bu surətlə millətimizin gözünü bağlayıb...uçuruma sarı hazırlayırdıq. İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq". Ömər Faiq Nemanzadənin bu sözlərini oxuyaraq böyük şairimiz Bəxtiyar Vahabzadə yazırdı:

*Ömər bəy, hər sözün haydı, haraydı*
*Deyilib elə bil bu çağımızda.*
*Sənin bu fəryadın sırğa olaydı,*
*Daim səslənəydi qulağımızda.*

*Əsrin əvvəlini unutmuşuq biz,*
*Saldın yadımıza dünənimizi.*
*Sədaqətliyimiz, təmizliyimiz*
*Tarixdə nə qədər aldatmış bizi.*

*...Ermənİ zülmündən yüz ildən bəri*
*Daşdan-daşa dəydi bu xalqın başı.*
*Unutdu çəkdiyi müsibətləri,*
*Niyə oğurlandı onun yaddaşı?*

Şamil Qurbanovun əsərlərinin nəşri məhz ona yönəlib ki, ziyalılarımızın əsrin əvvəlində dediyi və unudulmuş harayını eşidək, fəryadları daim qulağımızda səslənsin, tarixdə aldanmayaq, dünənimizi unutmayaq, qoymayaq ki, yaddaşımız bir daha oğurlansın.

Onu da xatırladım ki, Ömər Faiq Nemanzadənin arxivi məhv edildiyindən onun əsərləri Şamil Qurbanov tərəfindən böyük zəhmət hesabına toplanmışdır. Şamil Qurbanov Cəmaləddin Əfqaninin həyat və yaradıcılığına aid də bir əsər nəşr etdirdi. Amma bununla kifayətlənməyib hal-hazırda Cəmaləddin Əfqaninin seçilmiş əsərlərinin toplusunu hazırlayır. Əgər bunlardan birincisi, yəni Ömər Faiq Nemanzadə, Azərbaycan oxucusuna geniş də olmasa tanış idisə, amma ikincisi, yəni Cəmaləddin Əfqani sovet ideologiyası qadağanlarından irəli gələn səbəblərdən, müasir oxucumuza demək olar ki, tanış deyildi. Bu şəxslərin əsərləri və onlar haqqında kitabların nəşr olunması tarixin təkrar olunan dövrünə təsadüf etmişdir. Çünki bu ziyalıların əsrin əvvəllərində dedikləri tarix əsrin axırında yenə xalqımızın qarşısına imtahan şəklində qoymuşdu. Şamil Qurbanovun elmi əsərlərinin qəhrəmanları, öz dövrlərində də, indi də xalqımızın qarşısında duran problemlər haqqında ehtiramla danışıblar və xalqımızın qızıl fonduna layiq əsərlər yaradıblar. Şamil Qurbanovun tarix və xalqımız qarşısında xidmətlərindən biri də ictimaiyyət arasında Cəmaləddin Əfqani haqqında dolğun bir fikir yaratmasıdır. Cəmaləddin Əfqaninin əslən azərbaycanlı olub-olmamasını araşdırmaqla kifayətlənməyib. Cəmaləddin Əfqaninin Azərbaycanla bağlı olan milli-azadlıq tellərini hərtərəfli tədqiq edərək, ictimaiyyətə təqdim etdi. Məhz Şamil Qurbanovun bu böyük mütəfəkkirin həyat və yaradıcılığının tədqiqi nəticəsində bu gün xalqımız böyük övladını, demək olar ki, yenidən özünə qaytarır.



Cəmaləddin Əfqaninin milli fəlsəfi düşüncəmizdə yeri ondan ibarətdir ki, o, məhz ona məxsus bir düsturla ictimai həyatımıza daxil olmuşdur. O, bir tərəfdən bütün dünya müsəlmanlarının həmrəyliyi, o biri tərəfdən isə xalqın dil müstəqilliyini irəli sürür. Bir tərəfdən dilə və dinə tam sadiqliyi, o biri tərəfdən isə dünya dillərinə və dünyanın elmi nailiyyətlərinə doğru inkişafının vacibliyini irəli sürür.

Və hətta Cəmaləddin Əfqani o dövr üçün səciyyəvi olmayan bir fikri də irəli sürür ki, bu da ondan ibarətdir ki, hər hansı bir insan üçün özünüdərketmə prosesindən öncə milli dilə əsaslanan milli düşüncədir. Dini düşüncənin əsasını da Cəmaləddin Əfqani məhz dildə görür.

Hər hansı bir insanın ilkin tərbiyəsinin və mənəviyyatının əsasını Cəmaləddin Əfqani dində görür və elmə, mədəniyyətə ən yaxın din kimi İslam dinini qiymətləndirir.

Şamil Qurbanovun elmi tədqiqatları bizə belə bir nəticəyə gəlməyə əsas verir ki, ilk Azərbaycan Respublikasının yaradıcıları XX əsr Azərbaycan milli ideologiyasının düsturunu düşünərkən, onu Azərbaycanın milli və dövlət rəmzi olan bayrağımızda üç mənbənin vəhdəti kimi əks etdirərək məhz Cəmaləddin Əfqani düsturundan qidalanıblar. Bunlar əsasən üç mənbə, üç məzmunda və üç rəngdə öz əksini tapmışdır. Bəs bunlar hansılardır?

Bunlar ilk əvvəl dil və onun nəticəsi olan milli düşüncə, yəni göy rənglə əks olunan Azərbaycan dilinin və milliyyətinin əsasını təşkil edən türklük, ikincisi mənəviyyatla birbaşa bağlı olan dini mənsubiyyət, yəni yaşıl rənglə əks olunan Azərbaycan xalqının mənsub olduğu İslam dini və nəhayət, qırmızı rənglə əks olunan bəşər həyatını və mənəvi aləmini əhatə edən fəlsəfəyə hörmət edib onu qorumaq, maarif əsasında yüksələn elmin, mədəniyyətin bütün növlərinin Azərbaycanda yayılmağı, dərk edilməyi, daimi tərəqqi və yenilik selinin Azərbaycana axmağıdır.

**Şamil Qurbanovun yaratdığı əsərlər və onların novatorluq mahiyyəti ondan ibarətdir ki, onlar ancaq tarix, yaxud ədəbiyyatşünaslıq üçün yox, həmçinin Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə inkişaf edən, dilini, dinini qoruyub saxlayaraq inkişaf edən bugünkü Azərbaycanın ictimai-siyasi həyatı üçün də qiymətlidir.**

# DÜNYANIN GÖZÜNƏ OX OLAN ŞƏHƏR



*Baxşeyiş ABBASOĞLU*

*(Xalq şairi Zəlimxan Yaqubun "Ağdam Qarabağın toy otağıydı" şeirinə)*

(Poema)

Qarabağ düzündə bir şəhər vardı,
Tanrının verdiyi sərvətdi, vardı,
Qocası, cavanı nə bəxtiyardı,
Torpağı, daşı da qızıl, ləl, gövhər!
Dünyanın gözünə ox olan şəhər!

Qarabağın anasıydı bu şəhər,
Sonaların sonasıydı bu şəhər
Tarix boyu qalasıydı bu şəhər,
Onun mayasıydı igidlik, hünər!
Dünyanın gözünə ox olan şəhər!

Köksündə Pənahın türbəsi vardı,
Kəhər, köhlənlərin nal səsi vardı,
Ulu babaların nəfəsi vardı,
"İmarət" qalası tunclaşmış əsər!
Dünyanın gözünə ox olan şəhər!

Adı Ağdam idi ulu şəhərin,
Hər kəsə açıqdı yolu şəhərin,
Vətənin bükülməz qolu şəhərin,
Qızları qeyrətli, oğlanları nər!
Dünyanın gözünə ox olan şəhər!

Ağdam-Vətənimin qeyrət qalası!
Baxıb görənlərin heyrət qalası!
Yurdumun ucalan şöhrət qalası!
Kasıbı, varlısı tox olan şəhər!
Dünyanın gözünə ox olan şəhər!

Vətən torpağının nur parçasıydı,
Tanrımızın gözəllik boxçasıydı,
Mərdlik, kişiliyn bir qalasıydı,
Bütün varlığıyla canlı bir əsər!
Dünyanın gözünə ox olan şəhər!

Kölgəsi Vətənin üstünə düşən,
Adın eşidəndə yağı büzüşən,
Hər günü büsatla, toyla ötüşən,
İnsanı fərəhdən boğurdu qəhər!
Dünyanın gözünə ox olan şəhər!

Günəşə oxşayar, Aya bənzərdi,
Adı musiqini, sözü bəzərdi,
Şöhrəti dodaqda, dildə gəzərdi,
Barlı bağçasında meyvə, bar-bəhər!
Dünyanın gözünə ox olan şəhər!

Qışı da oxşardı, bahara, yaya,
Yetərdi, qaçardı hamı haraya,
Karlı kişiləri gəlməzdi saya,
Ümidlə açardı burda hər səhər!
Dünyanın gözünə ox olan şəhər!

Adının qorxusu dil qurudardı,
Adının qoxusu dərd ovudardı,
Vuran igidləri at oynadardı,
Ərən oğulları bir-birdən betər!
Dünyanın gözünə ox olan şəhər!

Mərdlik, qoçaqlığın ocağı idi,
Gözəlliyin ucu, bucağı idi,
İlahi, dünyanın xoş çağı idi,
Bilmirdin kim ağa, kim idi nökər!
Dünyanın gözünə ox olan şəhər!

Vətənin solmayan gülüzarıydı,
Vur deyənlə vuran burda yarıydı,
Yalan sözə qulaqlar da karıydı,
Əsla ayaq tutub yeriməzdi şər!
Dünyanın gözünə ox olan şəhər!

Burda muğam üstə ağlayardılar,
"Segah"a qoşulub çağlayardılar,
"Şur" ilə ürəyi dağlayardılar,
Yerindən tərpənən ötürdü "Şüştər!
Dünyanın gözünə ox olan şəhər!

Loğman idi bu yerlərin havası,
Can dərmanı xoş musiqi avazı,
Doxsan yaşayardı yaşayan azı,
Ölən də olurdu burda bəxtəvər!
Dünyanın gözünə ox olan şəhər!

Ağsaqqal-ağbirçək durardı başda,
Böyuklük, kiçiklik olardı başda,
Dost sanırdı səni doğma qardaş da,
Elliklə olurdu burda xeyir-şər!
Dünyanın gözünə ox olan şəhər!

Yaşayıb-yaşadan möcüzə idi,
Özü boyda qızıl bir kuzə idi,
Sanki cahan ilə üz-üzə idi,
Şöhrəti dünyadan çox olan şəhər!
Dünyanın gözünə ox olan şəhər!

Sevib yaşayırdıq bu şəhərdə biz,
Onunla vururdu nurlu qəlbimiz,
Bitib-təkənməzdi sevgi, eşqimiz,
Onsuz bizə həyat olardı zəhər!
Dünyanın gözünə ox olan şəhər!

Burda oxuyardı daş da, ağac da,
Ona bağlı idi varlı, möhtac da,
Şanlı-şöhrətindən doyardı ac da,
Canını edərdi Ağdama sipər!
Dünyanın gözünə ox olan şəhər!

Bir dəfə görənlər aşiq olurdu,
Baxıb gözəlliyə aşıq olurdu,
Deməyə ürəyi sözlə dolurdu,
Tayı-bərabəri yox olan şəhər!
Dünyanın gözünə ox olan şəhər!

Muğamın, sənətin, sözün məkanı,
Halalın, doğrunun, düzün məkanı,
Gözəl insanların ədəb-ərkanı,
Dodaqlarda əzbər, dillərdə əzbər!
Dünyanın gözünə ox olan şəhər!

Harda eşidəndə o şanlı adın,
İstərdin uçmağa olsun qanadın,
Yeri başda idi, qonağın, yadın,
Hörməti bol idi kim etsə səfər!
Dünyanın gözünə ox olan şəhər!

Baldan şirin idi ləhcəsi, dili,
Necə xoş gəlirdi hər gələn ili,
Bəy kimi yaşardı obası, eli,
Sənə ya göz dəydi, ya da ki, nəzər!
Dünyanın gözünə ox olan şəhər!

Yurdumun səngəri, qalası-Agdam!
Adın ürəklərdə qalası-Ağdam!
Vətənin ərköyün balası-Ağdam!
Düşmənin önündə sən oldun səngər!
Dünyanın gözünə ox olan şəhər!
Dünyanın gözünə ox olan şəhər!

3 mart 2025-ci il.

---



MEHDİ CALAL

## GÖZLƏRƏM

Məndən başqa bu döngədə duran yox,
Heç bilmirəm haçanacan gözlərəm.
Hələ neçə dərdli günüm, ayım var,
Dan sökülər, axşamacan gözlərəm.

Qaçılmazdı bəxtə düşən ömür, gün,
Açılmazdı ömrə düşən bu düyün.
Yel qanadlı tez ötüşən ömrümün
Qönçələri açanacan gözlərəm.

Ömür dedim ən kədərli günə də,
Dövran sürdüm bir məkansız kümədə.
Demişdim ki, gözləyəcəm, yenə də,
Ay Atacan, ay Anacan gözlərəm.

Eləbil ki Günəşi yox bu Yerin,
Mənzil uzaq, yerlər qatı, göy dərin.
Bir yenilməz Sahibi var göylərin,
Yollarımı açanacan gözlərəm.

## GƏLLƏM GÖRÜŞÜNƏ

Orda, o məzardan əziz nəyim var?
Gəlləm görüşünə, ay ana, gəlləm.
Çilərəm üstünə göz yaşlarımı,
Bəlkə yatan baxtım oyana, gəlləm.

Günlərin əlində incələr qəlbim,
Hər gecə şəhərdən köç elər qəlbim.
Qəbrinin üstündə gecələr qəlbim,
Onda dinə gəlləm, imana gəlləm.

Uzalı əllərim yetişməz göyə,
Mən elə təşnəyəm səni görməyə.
Sinəmin ahından oyanar deyə,
Bir qərib, bir yalan gümana

## DAĞLAR

Uzaq düşdüm qucağından,
Ay, dərdimdən halı dağlar!
Qərib ata ocağından,
Dolannam havalı, dağlar.

Arzum atlı, mən piyada,
Ömrü-günü verdim bada.
Nə görmədim bu dünyada,
Ömürdən bahalı dağlar!

Oda düşdüm, sevdim, yandım,
Dərddən-dərdə qanadlandım,
Orda bir "Gəlinatlandı",
Burda bir "Vağzalı", dağlar!

İllər yoluma gün tutmaz,
Daha sənə ünüm çatmaz.
Bu vurğun könlüm unutmaz,
O yamacı, yalı, dağlar!

Başın üstə dolan bulud,
Ulu dərddi, müqəddəs tut.
Nə quduz yelləri unut,
Nə Mehdi Calalı, dağlar !

## BU SEVGİ

Göydən yağa, yerdən bitə ömrümə,
Gözlərimdə yaşıllaşa bu Sevgi.
Bu günümdə gəlib yetə ömrümə,
Nağıllaşa, uyğulaşa bu Sevgi.

Elə billəm yaşdaşıdı ömrümün,
Bəlkə elə daşqaşıdı ömrümün.
Söykəyidi, yaddaşıdı ömrümün,
Dünyam qədər ululaşa bu Sevgi.

Çətən ola yamacımda, yalımda,
Bitən ola boşalanda, dolanda.
Vətən ola, - gedib öləm yolunda,
Qəbrim üstə buludlaşa bu Sevgi.

***

Sınıq görünürəm yaxını yada
Sirli arzularım bayatı, ağı.
Bir ömür yol getdim kefli dünyada,
Nə dəyişə bildim, mən kiməm axı?!

Həmişə yedəkli taledən, bəxtdən,
Uzaqda mən ollam, gendə mən ollam.
Kim isə ucalar, ya düşər taxtdan;
Tanrıya ən yaxın bəndə mən ollam.

Əziz bəndəsində dərd verər Allah,
Dərdsiz anlarımı hədər bilərəm,
Ən uzaq insanın, ən yad adamın
Dərdini ən yaxın kədər bilərəm.

Cibim boş olanda qəlbim daş olur,
Soyuqqanlı bilir dost-tanış məni
Sıxır hisslərimin məngənəsində,
Gah da silkələyir bu yanlış məni.

Yurdda bir yurdsuz var, duymazmı bir kəs?!
Dərdin ən ağırı payına düşüb.
Şəkildə özünü tanımayan kəs
Əhli-kef dünyanın hayına düşüb.

O kimdi?-bir təmiz Allah bəndəsi,
O kimdi?- bir halal kişinin oğlu.
Sorublar haqqımda söhbət düşəndə;
-Nəçidi o Calal kişinin oğlu?

Yox, daha ömrümün payızı gəlir,
Ürək təzə-təzə arzu bitirməz.
Bu yalan dünyanın yalan günləri
Məni o zirvəyə çəkib yetirməz.

Soyuq görünərəm yaxına, yada
Dərdlərin içində yadlaşıram mən.
Bir ömür yol gedəm, yenə dünyada
Nakam arzulara baş daşıyam mən

## BAŞINA DÖNÜM

Əlliylə "bəlli"dir,- deyib atalar,
Mən yaşı əlliyəm, başına dönüm.
Yağıb yollarıma qanlar, qadalar;
Hicran təməliyəm, başına dönüm.

Ruhum bir ocağın həndəvərində,
İstəyim göylərdə, fikrim dərində.
Sirli küləklərin nəğmələrində
Lal sükut dilliyəm, başına dönüm.

Dərdlər şimşək kimi köksümdə çaxdı,
Eşqim öz ömrümü yandırıb - yaxdı.
Düşmənim evimin içindən çıxdı;
Dərviş könüllüyəm, başına dönüm.

Elə dərdiməndəm dərdim bilinməz,
Hər yanım seyraqub mərdim bilinməz,
Qohumum, şəcərəm, yurdum bilinməz;
Dünyayla elliyəm, başına dönüm.

Bir ömür miskinəm, məstəm, bihalam,
Varı - yox, yoxu - var bilən abdalam.
Yerlərlə çarpışan Mehdi Calalam,
Göylərə bəlliyəm, başına dönüm.

---



*İlham ŞƏBİYEV,*
*hərbi həkim, şair*

## Ana dəyəri

Bundan gözəl gün olar,
Bülbül qona aynama.
Hər yer çiçək, gül olar,
Sarılanda anama.

Ana ətrindən gözəl,
Duyğu, hisslər olarmı.
Bütün dünyanı gəzər,
İnsan heç yorularmı?

Ana, səsin muğamın,
Səsindən həzin gəlir .
Hər bir yerdən dünyanın,
Ana, nəfəsin gəlir.

Ana, sənin qucağın,
İstisi yanan kimi.
Sanki bir od, ocağın,
Közündən bir an kimi.

Ana, o nurlu siman,
Cənnətə baxan kimi.
O, gözlərin asiman,
Günəş nur saçan kimi.

Ana, yatdığım bələk,
Öpüm bələyən əlin.
Nolar yenə sığal çək,
Görüm cənnəti gəlim.

Yuxusuz gecələri,
Ana, istə qaytarım.
Heç vaxt olma kədərli,
Sənsiz gəlmir baharım.

Ana, istə etməsəm,
Söylə varsa istəyim.

## "Kövrək duyğular" silsiləsindən

Bil ki, səni incitsəm,
Onda vurmaz ürəyim.

## Əsgər məktubu

Ana, sayma günləri
Danış mənim səsimlə
O, əkdiyim gülləri
Bəslə öz nəfəsinlə

Mən üçün evdə ağlayıb
Düşünürsən duymuram
Yastığı qucaqlayıb
Ətrin gəlir doymuram

Ana, qalıbdır səsin
Yadımda hərdən gəlir
Sənin laylan nəfəsin
İndi səngərdən gəlir

Sanma düşmüşəm uzaq
Vətən mənə yaxındır
Mənə açılıb qucaq
Üçrəngli bayrağımdır

Mən əsgər, Vətən anam
Bayraq əmanətimdir
Məndə çoxalır inam
Sevgim, məhəbbətimdir

Vətən söyləyir salam
O, inciyər almasan
Nə olar anam, qal cavan
Heç vaxtı qocalma sən

Vətən görən gözlərim
Çək mənə sığal deyir
Vətən aydın səhərim
Bayrağa ucal deyir

Ana, axdı damla yaş
İslatdı Vətən sözün
Qalsın məktubum yaddaş
Vətən gecəm gündüzüm

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 16 (2439) 2 may 2025-ci il



# SƏRKƏRDƏ GÜCLÜ OLAN YERDƏ...



**Hər bir ölkənin, hər bir dövlətin və hər bir məmləkətin başçısı olur. Daha doğrusu, bu başçıya ya prezident deyirlər, ya da baş nazir. Əsas məsələ odur ki, həmin vəzifəni xalqın seçkisi və iradəsi ilə qazanan prezident millətin bu etimadını doğrultsun. Vətənin ağır və xoş günündə onu seçən və sevən xalqının yanında olsun. Bizim millətin də bu sarıdan bəxti gətirib. Öncə Ulu Öndər Heydər Əliyev, ondan sonra isə prezident İlham Əliyev xalqın ən ağır və ən çətin günündə onun yanında olub, dərdinə, sərinə məlhəm qoyub, milləti ağ günə çıxarmaq üçün bütün qüvvəsi ilə çalışıb.**

Təbii ki, Azərbaycanın da çox ağır və məşəqqətli günləri olub. Bir tərəfdən yenicə müstəqilliyini əldə etmiş ölkəmiz iqtisadi cəhətdən güclənməli, digər tərəfdən isə işğal altında olan 20 faiz ərazisini azad etməli idi. Bununla yanaşı, ermənilər 30 ildən çox öz havadarlarının və arxasında duran dövlətlərin köməkliyi ilə bu çirkin siyasəti davam etdirir, yeni-yeni ərazilərimizin işğal olunması ilə bağlı bəyanatlar səsləndirirdi. Amma onlar onu bilmirdilər ki, artıq Azərbaycan 90-cı illərin əvvəllərindəki ölkə deyil. Bu ölkə Ulu Öndər Heydər Əliyevin və İlham Əliyevin hakimiyyəti dövründə iqtisadi-siyasi və hərbi cəhətdən çox böyük uğurlar əldə edib. Yəni Azərbaycan istər dünya siyasətində, istər dünya iqtisadiyyatında artıq öz sözünü deyib və üstəlik də ölkəmizə İlham Əliyev kimi Ali Baş Komandan, prezident rəhbərlik edir.

Təəssuf ki, ermənilər bax, bu məsələləri yaddan çıxartdılar və işğal etdikləri ərazilərimizi yenidən atəşə tutmaqda israrlı oldular. 2020-ci ilin sentyabrın əvvəllərində bu atəşkəs daha da tez-tez pozuldu və ermənilər yaşayış sahələrimizi, ərazilərimizi atəşə tutmaqda davam etdilər. Üstəlik də bir neçə diversiya dəstəsi gizli yollarla ərazilərimizə daxil olub orda mina basdırıb, əsgərlərimiz də mülki əhalimiz üçün böyük təhlükə törədirdilər. Təbii ki, artıq bıçaq sümüyə dirənmişdi. Yəni səbrin də bir həddi vardı, çünki 30 ildən çox idi ki, torpaqlarımızın işğal olunması ilə bağlı BMT-nin çıxartdığı 4 qətnamə icra edilməmiş qalırdı. Elə ermənilər də məhz bu məsələlər ruhlandırırdı. Düşünürdülər ki, hələ indən sonra bu problem daha da dondurulacaq və onlar 30 il də torpaqlarımızı işğal altında saxlayacaqlar.

Ali Baş Komandan İlham Əliyevin əmri ilə 2020-ci il sentyabrın 27-də Azərbaycan ordusu Füzuli istiqamətində əks hücuma keçdi. Aydındır ki, bu döyüş elə-belə döyüş deyildi. Çünki ordumuz uzun illən belə bir müharibəyə hazırlaşmış, özünün hərbi arsenalını ən müasir silahlarla təchiz etmişdir. Heç şübhəsiz, bunlar hamısı prezident İlham Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə həyata keçmişdi. Sentyabrın 27-də əks hücuma keçən əsgərlərimiz bir neçə günün içində Füzulinin işğal altında olan kəndlərini azad etdi və bu kəndlərin azad edilməsi hər bir əsgərimizdə böyük ruh yüksəkliyi, nikbinlik və mübarizlik duyğuları yaratdı. Əlbəttə, ermənilərin uzun müddət apardığı təbliğat sabun köpüyündən başqa bir şey olmadığını göstərdi. Yəni göstərdi ki, erməni ordusu onların dedikləri qədər də güclü və qüdrətli deyil. Həm də bu hücum onu təsdiq etdi ki, qüdrətli Azərbaycan Ordusunun qarşısında ermənilərin ordusu və əsgərləri çox acizdir. Onlar uzun müddət ona arxayın idilər ki, keçilməz müdafiə xətləri, səngərlər qurublar. Və bu xəttə də ermənilər "Ohanyan səddi" deyirdilər. Doğrudan da bu sədd 4-5 keçilməz müdafiə xəttindən ibarət idi. Yollar minalanmış, ondan sonra böyük kanallar qazılmış, bununla yanaşı həmin kanallara su buraxılmış, tankların və digər ağır texnikaların keçməməsi üçün ən müasir texnika və texnologiyadan istifadə edilmişdir. Sonrakı mərhələlərdə tikanlı məftillər, yenə minalar, yenə səngərlər Amma bu çətin və keçilməz müdafiə xəttini Azərbaycan Ordusu çox yüksək peşəkarlıqla və igidliklə yardı. Ermənilərin müdafiə xətti yarıldıqdan sonra onlar çaş-baş qaldılar. Artıq oktyabrın əvvəllərində onlarla Füzulinin və Cəbrayılın işğal altında olan yaşayış məntəqələri, kəndləri azad edildi. Həm də azad edilən kəndlərdə və yaşayış məntəqələrində əsgərlərimiz Azərbaycan bayraqlarını sancdılar və həmin məntəqələrin və kəndlərin azad olunması ilə bağlı generallarımız ilk məlumatı Ali Baş Komandan, prezident İlham Əliyevə verdilər. Cənab prezident də televiziyadakı çıxışlarında həmin kəndlərin və yaşayış məntəqələrinin adlarını xalqımıza çatdırdı. Həmin anların sevincini on milyonluq xalq yaşadı və hər gün biz o qələbənin gəlişini gözləyirdik. O qələbə gəlirdi və cənab prezident də azad olunan kəndlərimizin yeni siyahılarını millətimizə çatdırırdı.

Artıq Azərbaycan Ordusunun ildırım sürətli hücumunun qarşısını ermənilər ala bilmirdilər. Cəbrayıl şəhəri azad olunandan sonra bu hücum daha da geniş sürət aldı. Ermənilər Füzuli şəhərinin azad olunmasının qarşısını almaq üçün hər cür vasitədən istifadə edirdilər. Amma bu dəfə də generallarımız Ali Baş Komandanın rəhbərliyi ilə taktiki gedişlər elədi. Hadrut şəhəri alındı və ondan sonra Füzuli şəhəri və onun kəndləri erməni işğalından azad olundu. Bu anları, bu dəqiqələri xalqa çatdıran Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev dünyanın ən güclü sərkərdəsi idi desək, çox gözəl olar.

Bəli, o böyük və qüdrətli sərkərdənin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən İkinci Qarabağ savaşında Qubadlını, Zəngilanı, Şuşanı azad elədi. Şuşanın azad olunması isə birmənalı olaraq erməniləri təslim aktını imzalamağa məcbur etdi. Çünki "Laçın dəhlizi" Azərbaycan Ordusu tərəfindən alınandan sonra ermənilərin 30 min əsgəri mühasirəyə düşmüşdü. Onların qırılmasından və əsir düşməsindən qorxan Ermənistanın baş naziri Nikol Paşinyan və onun havadarları məcbur olub 10 noyabr üçtərəfli Bəyannaməsinə imza atdı.

**Bir xalqın ki qüdrətli və güclü Ali Baş Komandanı, sərkərdəsi var, o xalqa heç vaxt ölüm yoxdur. Məhz Azərbaycanın da İlham Əliyev kimi Ali Baş Komandanı və qüdrətli ordusu var. Bu ordu 44 günlük İkinci Qarabağ savaşında tariximizə yeni bir qızıl hərflərlə yazılan möhtəşəm qələbə həkk etdi. Bu qələbə işğal altında olan Qarabağ torpaqlarının azad edilməsi idi!**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# *Əzimə Ağalar:* "Xatirələrə geri dönməyi heç sevmirəm"

*Ömür boyu öz talelərinə çevirilib baxa bilməyən insanlar var. Kədərini sözə toxuyanlar da az deyil. Müsahibimiz yazıçı Əzimə Ağalar da uzun zamandır vətəndən ayrı düşüb, qürbətdə yurd salıb. Yaşantılarını vətəndən xeyli uzaqda- Avropada sözə çevirən yazıçı bunu da taleyin hökmü adlandırır.Bununla bağlı bir neçə dəfə danışsaq da müsahibim ”bu da mənim qismətimdir” deyib, susmağı seçib.*

**-Yaradıcılığınızın ilkin mərhələsində qürbət, nakam sevgi, mərhəmət hissinin aliliyi kimi movzuları görmək olur. İndi hansı mövzuları əsərlərinizə gətirirsiniz?**

-Doğrudan da elədir, qürbət, nakam sevgi hissini əsərlərimdə əsas mövzu kimi görürəm. ”Gecələrdə gizli qaldım” əsərində nakam sevgi var. ”Təyyarə qanadında uçan ruh”da da eyni mövzunu görə bilirik. ”Bakıdan Qahirəyə və Stokholuma uzanan yol” əsərimdə isə həm qürbət, həm nakam sevgi, həm də mərhəmət hissi var. Bəlkə də özüm o duyğuları yaşadım , onun üçün o hislər mənə bu qədər doğma, yaxın , əziz oldu. Türkçə yazdığım əsərlərimdə ”Yıpranmış hayellerin peşində”, ”Ağlayan duvar” əsas mövzu gizli təşkilatlar,terror hadisələri, onlarla mübarizə əzmini ön plana çəkmişəm. Çox sevdiyim mövzulardır. Düşünürəm ki, bu mövzuları əsərlərimdə çox gözəl işıqlandırmışam. Bu mövzularda yazdığım əsərlərdə əsasən mən Şərqi ifadə etmişəm. Çünki Şərq siyasətini gözəl bildiyim üçün dəqiqliklə incələmişəm. Ən azından müəllif olaraq mən belə düşünürəm (təbəssüm edir). Eyni zamanda əsərlərdə adı çəkilən bütün ölkələrə səyahət etdim. Hamısını gəzib- gördüm. Onların siyasətini, mədəniyyətini oxuyub- öyrəndim, sonra yazdım.Bu mövzularla yanaşı əsərlərin içində bir eşq var. Ki, əsərləri həmin eşq tamamlayır.

**- Yazıb-yaratmaq hissi qürbəti necə hiss etdirir?**

- Düşünürəm ki, qürbətdə yaşamasaydım, yazıb- yarada bilməzdim. Bilirsiniz, qürbət nə qədər çəkici və gözəl olsa da, mənəvu tərəfdən ağırlıqları çoxdur. Sanki başqa bir ölkədə uzunmüddətli qonaq yaşayırsan. Qürbət nə qədər gözəl olsa da, orada yaşayan insan bir vətən həsrəti çəkir, orda qəribə bir nisgil var. Sözə vurğun insanlar o nisgili şeirə və ya romana çevirə bilir. Qürbətə başqa mədəniyyət görürsən, və fərqli dinə sitayiş eləyən insanlarla eyni ölkədə yaşayırsan. Bu məqam da insana çox şeyi öyrədir. Bir də görürsən ki, qürbətdə yaşamaq hissi səni bioloji yaşından da çox böyüdüb.



**-Gəncliyinizin xatirələrini yazmağı düşünürsünüz?**

-Gənclik xatirələrimi yazmağı sevmirəm. Bəlkə də nələrisə qələmə ala bilərəm. Ancaq tam olaraq yazmağı qətiyyən düşünmürəm. Çünki keçmişlə yaşamağı, xatirələrə geri dönməyi heç sevmirəm. Hətta nifrət edirəm. Hər zaman xatirələri özümdən qovmağa çalışmışam. Bəzən insan tək olanda nələrsə yaddaşında təzələnir. Yadıma düşdükcə onlardan uzaqlaşmağa çalışıram. Nə qədər xatirələrdən uzaqlaşsam da , onlar məndən əl çəkmirlər. Mən o xatirələri büküb qəlbimin bir küncündə basdırmışam.

**-Hər bir yazıçının əsərlərinin içində mütləq ki, özü olur. Hamsı əsərinizdə özünüzü görürsünüz?**

-Əlbəttə, əsərlərimin bir çoxunda qısa bir epizod da olsa mən varam. Düşünürəm ki, bu, bütün yazıçılarda belədir. Hansısa detal onların əsərlərinə təsir edir. ”Gecələrdə gizli qaldım”da çox az da olsa Baharam, ”Bakıdan Qahirəyə və Stokholuma uzanan yol”da Dilarəyəm, ”Təyyarə qanadında uçan ruh”da Laləyəm. Ən bu əsərdə varam. Düşünürəm ki, qəhrəmanlarımın içərisində ən çox Lalə özümə bənzəyir. Lalənin adını çəkəndə belə qəlbim sızlayır, gözlərim dolur. ”Yıpranmış hayellerin peşinde” və ”Ağlayan duvar” əsərlərində özümü görümürəm. Ən son əsərimdə- yəni ”Biz kadının anatomisi” əsərində varam, həm də çox varam.

**-Nələrə illərinizi hədər etmisiniz?**

-Gəncliyimi, ömrümü övladıma hədər etdim. Çalışdım ki, yaşadığım acıları, sarsıntıları övladım hiss etməsin, üzülməsin. Bəlkə də özüm üçün xeyirli olan çox qapıları məhz oğluma görə öz üzümə bağladım. Bəlkə də mənə uğur gətirəcək çox yollardan oğluma görə geri qayıtdım. Dəyərdimi? Həmişə bu sual qarşısında mənən çırpınıram.

Bu mövzuda ”bəlkə”lərim daha çoxdur. Həyatım başqa cür ola bilərdi...

**-”Ağlayan duvar”ın iztirabı ”Yıpranmış hayellerin peşinde” əsərinə çöküb. Sanki bu əsərlər bir-birindən qisas alır. Bunun səbəbi nədir?**

-Mövzu baxımından bir-biri ilə oxşardır. Ona görə sizdə bu fikirlər yaranıb. Bəlkə də elədir. Axı hər iki əsər də eyni müəllifin qəlbindən qələminə süzülüb (gülür). Ümumiyyətlə, həyatda hər şey belədir. Kimsə bizə zülüm edirsə, bir başqası da gəlib həmin kəsə zülüm edir. Yəni 3-cü şəxs özü də bilmədən bizim qisasımızı alır. Əsərlər də belədir.Bir əsərdə yazıçı hansısa qəhrəmanı daha güclü göstərmək istəyir, lakin bu cəhdi uğurlu alınmırsa, digər əsərdə istənlilən bir qəhrəman daha möhtəşəm personaja çevirilir. Suala bu baxımdan yanaşsaq, sözlərinizdə həqiqət var.

Ancaq düşünürəm ki, əsərdə qəhrəmanlar bir- birilərinin qisasını alırlar. Bunu söyləmək bir az çətindir. Ancaq həqiqətdir.

**Əntiqə KƏRİMZADƏ**

# Uydurmalardan ibarət erməni filminin nümayişi də ləğv edildi

**Xatırlayırsınızsa, bir dəfə İordaniya Kral Film Komissiyası erməni rejissor Sarin Ayrapetyanın ”Mənim sevimli ölkəm” sənədli filminin ”Oscar” mükafatına namizədliyini geri götürdü. İordaniya sözügedən filmi ”Ən yaxşı xarici film” nominasiyası üzrə ”Oscar” mükafatına təqdim etmək üçün seçmişdi.**




Filmdə Qarabağda yaşayan və diş həkimi olmaq arzusunda olan 11 yaşlı Vrejen adlı erməni uşağın hekayəsindən bəhs edilirdi. Ekran işində həmin uşağın Azərbaycana qarşı döyüşməyə hazırlaşmasından bəhs olunurdu.

Sonra filmin rejissorunun jurnalistlərə açıqlamasında, noyabrın əvvəlində Amerika Film Akademiyasından ərizəmizin ləğv edildiyi barədə elektron məktub aldıqlarını söylədi:” Biz İordaniya Kino Komissiyası ilə əlaqə saxladıq və onlar bizə izah etdilər ki, Azərbaycan İordaniyaya şikayət edib və İordaniya filmi geri götürmək qərarına gəlib.

Uydurma və təxəyyül məhsulu olan böhtan xarakterli həmin erməni filmi haqqında yeni məlumat var. Adalet.az xəbər verir ki, Azərbaycanlı tələbələrin etirazları və Azərbaycan səfirliyinin səyi ilə Berkeley Universitetində ”Mənim şirin ölkəm” filminin nümayişi təxirə salınıb. Bu barədə amerikalı jurnalist Qohar Vəziryan öz Facebook səhifəsində yazıb:”Aprelin 24-də Ermənişünaslığın təşəbbüsü ilə Berkli Universitetində mövzusu Qarabağdan olan ”Mənim şirin ölkəm” sənədli filminin nümayişi və müzakirəsi keçirilməli idi. Aprelin 23-də axşam saatlarında bizə e-məktubda film nümayişinin ləğv edildiyi barədə məlumat aldıq.

Ermənişünaslıq fakültəsi və tələbələr üçün bu, həqiqətən də təəccüblü idi. Erməni Araşdırmaları Departamenti azərbaycanlı tələbələrin etirazı və Azərbaycan səfirliyinin səyi nəticəsində universitetin İnsan Hüquqları Mərkəzindən izahat tələb edildiyini açıqlayıb.

***P.S.** **Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığındakı səfiri Eldar Səlimov cənablarına postunda ayıq-sayıq durduğu üçün təşəkkür edirik!***

**Əntiqə RƏŞİD**

**Torpaq, yurd, vətən insana ana qədər doğmadır. 90-cı illərin gəncləri və orta yaşlı insanları ömürlərinin bahar çağında vətən həsrəti yaşadılar, vaxtsız tellərinə dən düşdü. Kimisi tələbə yataqxanasına sığınıdı, kimisi digər rayonlara üz tutdu, kimisi çadırlarda məskunlaşdı, kimisi də öz ayaqları üzərində ürəyində vətən dağı həyatla mübarizəni tək-köməksiz davam etdirib. Bu qədər əzabı, ağrını ürəyində daşıyan, bir gənc, bir orta yaşlı insanın ömrünə niyə sazaq gəlməsin ki ? Şuşanın səfalı qoynundan didərgin düşən İlduzə müəllimə də vətən həsrətini sözə toxudu. Həm də nöqtə- nöqtə, misra-misra Yaşadığı bütün acıları ilmə- ilmə hördü yazdığı şeirlərə.**

İlduzə Hüseynova 1951-ci ildə Şuşada anadan olub. Ömrünün 41 ilini Şuşada keçirən insan üçün Şuşasız yaşamaq çətin idi.

# Ömrün Şuşalı anları...



Şuşalı günlərin dadı damağından bir an belə getmədi. Şuşasız acı günlərinin üzərinə şeirlərini örtməyə çalışdı. Bacardımı?- Bunu onun ürəyi bilər O həm gözəl pedaqoq, həm də qayğıkeş anadır.

Bir xanım öz gəlin getdiyi ocaqdan ayrı düşür, ata yurduna həsrət qalır. Bundan böyük kədər ola bilərmi? O, bütün bu sualların cavabını şeirlərində tapır. Özü deyir ki, şair deyiləm, amma ürəyimdə yığılan illərin kədərini şeirə çevirəndə mənən rahatlıq tapıram.

***Öpüb divralardan, çıxdım evimdən.***
***Qapımı bağladım ayrılanda mən.***
***Səni o dağlara, evimi sənə***
***əmanət tapşırıb ayrıldım, Şuşa.***

Şeirdə bir vətən həsrəti, bir nisgil oxucunu ”qarşılayır”. Öz doğma ev- eşiyini dağlara əmanət edən qadının, son ümid yeridir o dağlar. Şuşa ilə ayrılığını bir an belə unutmayan müəllif onu dünən qədər yaxın vaxt kimi xatırlayır.

***Bu illər ərzində inanma ki, sən***
***Döyünən ürəklə sövdələşmisən.***
***O yad baxışınla, buz əllərinlə,***
***Heç vaxt ürəyimə girə bilməzsən.***

Yaradıcılığında sentimental poeziyaya yer ayıran müəllif, eşq küskünlüyünü bədii təsvir vasitələriylə daha da qabarıq göstərməyə çalışır. Sınmış bir qəlbin illər keçsə də barışmayacağına işarə edir. O, qəlb sınıqlığını zamanın axarına buraxmağı seçmir. Çünki yad baxışlar, buz kimi əllər bir sınıq qəlbi isidə bilməz.

***Ağbirçək, nurani ana görəndə***
***Kövrəlib təzədən uşaqlaşıram.***
***Anam gəlməz olan uzun yollara,***
***Mən həsrətlə baxa- baxa qalmışam.***

Ümumiyyətlə, ana mövzusu dahi şairlərdən gənc yazarlara qədər hər kəsin yaradıcılığında yer alır. İnsan hansı yaşda olursa olsun, anasını arzulayır. Müəllif də şeirdə həmin hislərini oxucuya çatdırmağa çalışıb. İllərdir anasını itirən bir insan kimi şeirdə anasına həsrətini qabarıq ifadə edib. Geri dönüşü olmayan yollara göz dikməyi isə ana həsrətinin tükənməyən yanğısı adlandırıb.

***Bir ata itirdim ana ürəkli,***
***Bir dəfə üzümə gec baxmayıbdı.***
***Başım ağrıyanda isti əlləri,***
***Pərişan saçımı sığallayıbdı.***

Şeirdə müəllif anasını atasından daha erkən itirdiyinə işarə edir. Atası isə övladlarına ana qayğısı göstərdiyi ilk misradan bəllidir. Atasına həm ana, həm ata sevgisi ilə sarılan müəllif atasının əbədi gedişindən sarsıldığını bildirir. Şeirdə ümumi olaraq valideynə ehtiram, sevgi, hörməti hissi öz əksini tapır.

Ömür kitabının 74-cü səhifəsini vərəqləyən İlduzə Hüseynova ”Şuşasız divanəyəm” və ””Yurdumun bir qayası olaydım” adlı şeirlər kitabının müəllifidir.

**Bu gün o, müəllifi olduğu kitablarla birgə azad Şuşaya gedir. Öz doğma yurdunu işğaldan azad görən İlduzə müəllimə üçün yazıb- yaratmaq eşqi abadlaşan Şuşanın sayəsində daha artır.**

**Əntiqə KƏRİMZADƏ**

Hüsniyyə Zülfüqarqızı, Asiya Zülfüqarqızı, Aysu Əsgər qızı **Rəqibə Musa qızına, Rafik Musa oğluna, Günay Novruz qızına, Şahruz, Pərviz Novruz oğluna,** əzizləri
**Novruz kişinin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N:
38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 227
Çapa imzalanmışdır: 01.05.2025